# İMAM ZAMANLA GÖRÜŞƏNLƏR

**Toplayan: İsmayıl Əhmədov**

ادخلوها بسلام آمنين

*Bu kitab Allahın höccət və dəlili İmam Zamanın (ə) dost və aşiqlərinə təqdim olunur. Onların ayaqları altında torpaq olmaq bizim üçün ən böyük şərəfdir.*

نام کتاب:.......................................ملاقات با امام زمان
گرد آورنده:........................................اسماعیل احمد اف
ناشر:.....................................................شهریار
تاریخ چاپ:..............................................۱۳۸۵
نوبت چاپ:................................................دوم
تیراژ:.......................................................۳۰۰۰

Kitabın adı:.................İmam Zamanla görüşənlər
Toplayan:.........................................İsmayıl Əhmədov
Nəşr edən:................................................Şəhriyar
Çap tarixi:.........................................................2007
Çap növbəsi:...................................................İkinci
Tiraj:................................................................3000

**964-5934-64-8**

# BAĞIŞLAYAN VƏ RƏHİMLİ ALLAHIN ADI İLƏ

***“Pərvərdigara! Ağlayıb-sızlayaraq Səndən İmam Zamanın kəramətli dövlətini zühura yetirməyini, onun zühuru ilə İslama və ümmətinə izzət əta qılmağını, nifaq və nifaq əhlini zəlil etməyini istəyirik. Bizi həmin haqq dövlətdə ona tərəf də`vət edənlərdən və hidayət yolunun rəhbərlərindən qərar ver. Onun vasitəsilə bizlərə dünya və axirət kəramətini əta qıl. Rəhmətinə and veririk, ey rəhimlilərin rəhimlisi!”***

*“İftitah duasından”*

# Mündəricat


- ÖN SÖZ - ........................................................................8
İMAM ZAMANLA GÖRÜŞƏNLƏR ......................................13
*«Birinci Görüş»* .......................................................13
*«İkinci Görüş»* .........................................................17
*«Üçüncü Görüş»* .......................................................24
*«Dördüncü Görüş»* ....................................................26
*«Beşinci Görüş»* .......................................................29
*«Altıncı Görüş»* ........................................................30
*«Yeddinci Görüş»* .....................................................33
*«Səkkizinci Görüş»* ...................................................35
*«Doqquzuncu Görüş»* ................................................36
*«Onuncu Görüş»* .......................................................37
*«On Birinci Görüş»* ...................................................38
*«On İkinci Görüş»* ....................................................43
*«On Üçüncü Görüş»* ..................................................44
*«On Dördüncü Görüş»* ...............................................45
*«On Beşinci Görüş»* ..................................................47
*«On Altıncı Görüş»* ...................................................48
*«On Yeddinci Görüş»* ................................................49
*«On səkkizinci Görüş»* ..............................................56
*«On Doqquzuncu Görüş»* ...........................................59
*«İyirminci Görüş»* ....................................................60
*«İyirmi Birinci Görüş»* .............................................60
*«İyirmi İkinci Görüş»* ..............................................61
*«İyirmi Üçüncü Görüş»* ............................................62
*«İyirmi Dördüncü Görüş»* .........................................70
*«İyirmi Beşinci Görüş»* ............................................71
*«İyirmi Altıncı Görüş»* .............................................71
*«İyirmi Yeddinci Görüş»* ..........................................73
*«İyirmi Səkkizinci Görüş»* ........................................74
*«İyirmi Doqquzuncu Görüş»* .....................................76

*«Otuzuncu Görüş»* ........................................................... *77*
*«Otuz Birinci Görüş»* ........................................................ *77*
*«Otuz İkinci Görüş»* .......................................................... *78*
*«Otuz Üçüncü Görüş»* ......................................................... *79*
*«Otuz Dördüncü Görüş»* ...................................................... *81*
*«Otuz Beşinci Görüş»* ........................................................ *83*
*«Otuz Altıncı Görüş»* ......................................................... *84*
*«Otuz Yeddinci Görüş»* ....................................................... *85*
*«Otuz Səkkizinci Görüş»* ..................................................... *86*
*«Otuz Doqquzuncu Görüş»* ................................................... *87*
*«Qırxıncı Görüş»* ............................................................... *88*
*«Qırx Birinci Görüş»* ......................................................... *89*
*«Qırx İkinci Görüş»* ........................................................... *90*
*«Qırx Üçüncü Görüş»* ......................................................... *92*
*«Qırx Dördüncü Görüş»* ...................................................... *95*
*«Qırx Beşinci Görüş»* ......................................................... *97*
*«Qırx Altıncı Görüş»* .......................................................... *98*
*«Qırx Yeddinci Görüş»* ....................................................... *99*
*«Qırx Səkkizinci Görüş»* ..................................................... *100*
*«Qırx Doqquzuncu Görüş»* ................................................... *101*
*«Əllinci Görüş»* ................................................................. *104*
*«Əlli Birinci Görüş»* ........................................................... *107*
*«Əlli İkinci Görüş»* ............................................................. *109*
*«Əlli Üçüncü Görüş»* ........................................................... *109*
*«Əlli Dördüncü Görüş»* ........................................................ *112*
*«Əlli Beşinci Görüş»* ........................................................... *113*
*«Əlli Altıncı Görüş»* ............................................................ *114*
*«Əlli Yeddinci Görüş»* ......................................................... *115*
*«Əlli Səkkizinci Görüş»* ....................................................... *116*
*«Əlli Doqquzuncu Görüş»* ..................................................... *118*
*«Altmışıncı Görüş»* ............................................................. *121*
*«Altmış birinci görüş»* ......................................................... *122*
*«Altmış İkinci Görüş»* .......................................................... *124*
*«Altmış Üçüncü Görüş»* ........................................................ *125*

*«Altmış Dördüncü Görüş»* ........................................................*128*
*«Altmış Beşinci Görüş»*...........................................................*129*
*«Altmış Altıncı Görüş»*............................................................*132*
*«Altmış Yeddinci Görüş»* .........................................................*132*
*«Altmış Səkkizinci Görüş»* .......................................................*134*
*«Altmış Doqquzuncu Görüş»* .....................................................*135*
*«Yetmişinci Görüş»*...................................................................*137*
*«Yetmiş Birinci Görüş»*............................................................*138*
*«Yetmiş İkinci Görüş»*..............................................................*139*

Nüdbə duası............................................................................ 144

İmam Zaman (ə) namazı.......................................................... 151

«Hacət Namazı» ..................................................................... 152

Həzrət Məhəmməd və onun mə`sum Əhli-beytinə salam və salavat göndərmək ......................................................................... 154

Ziyarətnamə............................................................................ 154

Səlamullahil-kamilut-tamm ziyarətnaməsi................................ 155

İmam Zamanla (ə) əlaqə yaratmaq üçün ziyarətnamə.................. 156

"Ali Yasin" ziyarətnaməsi......................................................... 157

# - Ön söz -

Bilmirəm İmam Zaman (ə)-ı qeyb dövründə görməyin və hüzuruna nail olmağın mümkünsüzlüyünü deyənlər, hansı dəlillərə istinad edirlər? Nə üçün vücudu adi insanlar kimi ət və sümükdən ibarət olan və insanlar arasında yaşayan bir şəxsin görünməsi qeyri-mümkün olsun? Axı, bu qədər böyük alimlərin, ilahi övliyaların və Həzrətin (ə) sadiq tərəfdarlarının onu gördükləri barədə söylədiklərini belə asanlıqla inkar etmək olarmı?!

"İmam Zaman (ə)-ı görmək olmaz!" – deyənlər heç bilirlərmi ki, belə yanlış və əsassız iddia ilə onun düşmənlərinə nə böyük kömək etmiş olurlar?! Onlar heç bilirlərmi ki, əgər müsəlman icması Həzrətin (ə) görülməsi mümkünlüyü barədə şəkkə-şübhəyə düşərlərsə, hətta onun mövcudluğunu sübuta yetirən əsaslı dəlillərdən birini əldən vermiş olarlar?!

Bə`zən deyirlər: "Bir sıra rəvayətlərdə İmam Zaman (ə)-ı görənlərin iddiaları təkzib və inkar olunmuşdur." Onlardan soruşmaq lazımdır ki, dediyiniz rəvayətlər haradadır? Axı nə üçün biz onları görməmişik?! Nə üçün həmin rəvayətləri yalnız onu görməyə nail olmayan şəxslər görməlidirlər?

Aparılan araşdırmalar nəticəsində yalnız bir rəvayət, nisbətən diqqəti özünə cəlb edir. Lakin onun da məzmunu qəlbləri kor olanların güman etdikləri kimi deyildir.

Bu müqəddəs sətirlər, İmam Zaman (ə)-ın dördüncü naibi Əli ibn Məhəmməd Səmuriyə ölüm ayağında olarkən Həzrət tərəfindən təqdim olunmuşdur:

*«Bağışlayan və rəhm edən Allahın adı ilə. Ey Əli ibn Məhəmməd Səmuri! Allah sənin müsibətində şiə qardaşlarının savabını artıq etsin. Sən altı gündən sonra vəfat edəcəksən. İşlərini yekunlaşdır və canişinlik məsələsini, artıq kimsəyə vəsiyyət etmə. Çünki, bundan belə böyük qeyb başlanır və Allahın izni olmayınca zühur baş verməyəcək. Bu iş qəlblər daşa döndükdən, yer üzünü zülm və ədalətsizlik bürüdükdən, yə`ni uzun müddətdən sonra baş verəcək.*

*Tərəfdarlarımızdan elələri olacaq ki, bizimlə əlaqədə olduqlarını və görüşdüklərini iddia edəcəklər. Bil ki, kim*

*Süfyaninin zühurundan və göydə qopan dəhşətli səsdən əvvəl bizimlə görüşdüyünü iddia edərsə, yalan demiş və iftira söyləmişdir. Və o böyük və əzəmətli Allahdan başqa güc və qüdrət sahibi yoxdur...»*

Bu yazıdan xəbərdar olan şiələr, altı gün sonra – Şaban ayının on beşi Əli ibn Məhəmməd Səmurinin evinə gəlib onu ölüm ayağında görürlər. Elə bir neçə dəqiqədən sonra da Əli ibn Məhəmməd Səmuri dünyasını dəyişir... Allah ona rəhmət etsin.

İndi ey insaf əhli! Heç bu mübarək yazının məzmununa və onun xüsusi cəhəti (Əli ibn Məhəmməd Səmurinin naibi-xass məqamını nəzərə alaraq) vurğuladığına diqqət yetirmisinizmi? Məktubdakı "kim İmam Zaman (ə)-ı gördüyünü iddia edərsə" – ibarəti ilə, yalnız İmam Zaman (ə)-ın dörd xüsusi naib və canişinlərindən qeyrilərinin həmin məqamdakı görüş iddiaları rədd edilir. Deməli, həmin andan sonra kimsə Həzrətlə xüsusi naib məqamında görüşdüyünü iddia edə bilməz.

Lakin, istər təsadüfü olsun, istərsə də təvəssül nəticəsində, İmam Zamanla görüşlər baş vermişdir. Amma təəssüflər olsun ki, hətta bə`zi elm adamları qeyb zamanı İmam Zaman (ə)-ı görməyi və onun hüzurunda olmağı qeyri-mümkün hesab edir! Mərhum Hacı Nuri "Nəcmus-Saqib" kitabında belə nəql edir:

"Mərhum Seyyid Bəhrul-Ülumun tələbələrindən olan agah və təqvalı axund Molla Zeynəlabidin Səlmasi buyurardı: Bir dəfə Seyyid Bəhrul-Ülumun dərsində olduğum zaman tələbələrdən biri ondan soruşdu: Böyük qeyb zamanı kimsə Sahibəzzəman (ə)-ı görə bilərmi? Seyyid Bəhrul-Ülum susub ona cavab vermədi. Mən onun yaxınlığında oturduğum üçün gördüm ki, başını aşağı salıb asta səslə deyir: Nə cavab verim axı, bir halda ki, elə indi İmam Zaman (ə) məni qucaqlayıb bağrına basmışdır."

Bu kitabda həmin əsassız fikri rədd edən, İmam Zaman (ə)-ın hal-hazırda bizim aramızda olduğunu sübuta yetirən dəlillər gətirilməklə siz əziz oxucuları İmam Zamanla (ə) görüşün mümkünlüyünə ümidvar etmək üçün, bu məzmunda

nəql olmuş minlərlə əhvalatlardan yalnız e`tibarca qəti və doğruluğunda şübhə olmayanları verilmişdir. Ümidvarıq ki, bu yazılar elə İmam Zaman (ə) tərəfindən bəyənilib qəbul olunacaq.

Bu əhvalatları nəql etməzdən əvvəl neçə məsələnin aydınlaşdırılması zəruridir:

1. Şübhəsiz ki, fədası olduğumuz İmam Zaman (ə) hər hansı bir susuzu sirab etmək, səhrada azan hansı bir yolçuya yol göstəmək, hansısa xəstəyə şəfa vermək və hansı bir evsiz-eşiksizə ev vermək üçün yaradılmayıb. "Nüdbə" duasında o həzrətin vücudunun yaradılışı belə qiymətləndirilir: "İlahi! Onu bizim üçün sığınacaq yeri, hidayətçi və günahdan çəkindirəcək bir vasitə yaratdın."

2. Kitabda verilən bə`zi görüş və sərgüzəştlər başqa mənbələrdən götürülsə də, əmin olmaq üçün kənarında digər şahidlərdən də istifadə olunub.

3. Bə`zən əhvalatlarda ixtisara yol verilsə də, lakin mətnlərin məzmunlarına xələl yetirilməmişdir.

4. İmam Zaman (ə)-ın müqəddəs adının ehtiramını qorumaq üçün bu kitabda o həzrətin (İmam Zaman) (Sahibəzzaman) kimi məşhur ləqəblərindən istifadə olunub.

5. İmam Zamanla (ə) görüş və əlaqə dörd cür ola bilər:

1) Ruhi və mə`nəvi əlaqə.

Daim mümkün ola bildiyi üçün, demək olar ki, onların arasında ən əhəmiyyətlisi sayılacaqdır.

2) İmam Zamanı (ə) yuxuda görmək.

3) İmam Zamanı (ə) mükaşifə aləmində ziyarət etmək.

4) İmam Zamanla (ə) adi halda görüş.

Bu kitabda yalnız İmam Zaman (ə)-ın sadiq dost və aşiqlərinin onun mübarək zahiri vücudu ilə görüşdükləri əhvalatlar verilmişdir ki, onun hal-hazırda sağ və bizim aramızda yaşadığı bir daha sübuta yetsin.

6. "Böyük qeyb"ə hazırlıq "kiçik qeyb"lə başlandığı kimi, Həzrətin zühuru da zühura hazırlıqla müşayiət olunacaqdır. Belə ki, deyilən əlamətlər həyata keçməyincə, zühur baş verməyəcək və bu, bəşərin zühura hazırlığı üçün zəruridir.

İnşallah, tezliklə o həzrətin (ə) günəş tək parlaq vücudu Məkkə üfüqündən baş qaldıracaq və yer üzünü zülm, haqsızlıq

və ədalətsizlik bürüdükdən sonra haqq-ədalətlə yenidən dolduracaqdır. *«Biz isə onu yaxın görürük.»*[1]

7. Bütün əhvalatlar tamamilə doğru və yalnız mö`təbər mənbələrdən götürülmüşdür.

İmam Zaman (ə)-ın yerinə başqa birisinin ziyarət olunması şübhəsi doğuran nəqllərdən pəhriz olunmuşdur.

Nəql olunan bütün əhvalatlarda İmam Zamanla (ə) görüşən şəxslərin Həzrəti gördükləri anda və ya bir qədər sonra onu tanıdıqlarına və əksərən qarşılarındakı şəxsin İmam Zaman (ə) olduğunu bildiklərinə işarə olunmuşdur.

Mö`min şəxs çətinlik, bəla və xəstəliklərlə, qorxu və təhdidlərlə üzləşdiyi vaxt, xüsusilə də şübhələrə, fitnələrə tuş gəldiyi zaman o Həzrətə (ə) pənah aparmalı, Allahın yer üzündəki höccətinə üz tutmalıdır.

Odur "əl-kəhfil-həsin", odur "ğiyasəl-müztərril-mustəkin". Yə`ni Həzrət (ə) yenilməz hasarı olan bir qalaya bənzədilir. O, çətinlikdə, iztirabda olub onun qalasına sığınanları qoruyur, fəryad edib onu köməyə çağıranların dadına yetişir.

Odur "məfzəul-ibad fid-dahiyətin-nad". Yə`ni sıxıntılarda pənah aparılacaq yer odur. Buna görə də Həzrətin (ə) şərif ləqəblərindən biri "qövs"dür. "Əl-qövs" dada, fəryada yetən deməkdir. Həzrətin (ə) bu ləqəbi ona aid dualarda, ziyarətnamələrdə çox yad edilir. Həzrətin (ə) digər məşhur ləqəblərindən biri də "Əbu Saleh"dir. Əllamə Nuri deyir: "Ərəblər, məxsusən bədəvilər arasında, həmçinin şe`rlərdə Həzrət (ə) daha çox "Əbu Saleh" ləqəbi ilə yad edilir. Eləcə də təvəssül, istiğasə, nüdbə və şikayətnamələrdə Həzrətə (ə) bu ləqəbi ilə müraciət olunur. Məşhur əhli-beyt şairlərinin çoxusu öz qəsidələrində, mədhnamələrində, mərsiyələrində Həzrəti (ə) mübarək "Əbu Saleh" künyəsi ilə zikr etmişlər."

Əbül-Vəya Şirazi aşağıdakı rəvayəti Peyğəmbərdən (s) nəql edərək deyir: "Nə vaxt çıxılmaz vəziyyətə düşsən, vəziyyəti olduqca ağır görsən, Həzrət Höccətə (ə) istiğasə et. O sənin fəryadına yetişəcək, sənə nicat verəcəkdir. O, onu çağıran hər kəsin çağırışına cavab verər, köməyinə yetər.

[1] "Məaric", 7.

Çətin anlarda onu çağıraraq belə deyin: "Ey mövlam, ey Sahibəzzaman! Sənə pənah gətirmişəm."

Seyyid ibn Tavus deyir: "Nə vaxt şiddətli narahatçılığa düçar olsan, yolu azsan, Həzrəti (ə) həmin adla (Ya Əbu Saleh deyərək) köməyə çağır."

Əbu Bəsir İmam Sadiqdən (ə) bu rəvayəti nəql edərək buyurur: "Nə zaman yolu itirsəniz, ona müraciətlə deyin: Ya Saleh yaxud ya Əba Saleh."

Ravi Ubeyd ibn Hüseyn Zərəndi nəql edir ki, Əli ibn Əbu Həmzə deyirdi: "Başımıza bir bəla gəldi (yolu azdıq). Bizimlə olanlara göstəriş verdik ki, bizdən bir qədər aralanıb Həzrəti (ə) bu adı ilə (ya Əba Saleh) çağırsınlar. Onlar bizdən uzaqlaşıb Həzrəti (ə) səsləməyə başladılar. Bir müddətdən sonra bizim yanımıza qayıdıb xəbər gətirdilər ki, çox astadan belə bir səs eşidiblər: "Yol sağ tərəfdədir!" Biz həmin səmtə yollandıq və yolu tapdıq."

Cənab Şeyx Qasım deyir: "Səfərlərimin birində karvandan dala qalmışdım. Uca səslə fəryad etdim: "Ya Saleh!" Bu adı çağırmaqda məqsədim Seyyid ibn Tavusun "Əl-aman" kitabında göstərdiyi kimi, İmam Zamanı (ə) haraylamaq idi. Seyyid ibn Tavus o kitabda deyir: "Biyabanda yolu itirdiyiniz zaman Həzrəti (ə) bu adı ilə səsləyin." Beləliklə, o həzrət dadıma çatıb məni xilas etdi."

Ümid edirik ki, bununla İmam Zaman (ə)-ın dost və aşiqlərinə dərin sevinc bəxş edə bilək.

# İMAM ZAMANLA GÖRÜŞƏNLƏR

## «Birinci Görüş»

Cəmkəran məscidi... Bura İmam Zaman (ə)-ın aşiqlərinin onunla ruhən görüşdükləri bir məkandır. Bilirsinizmi bu əzəmətli və mə`nəviyyatla dolu olan məscid necə tikilmişdir? Bilirsinizmi bu müqəddəs məkan nə üçün İmam Zamanla (ə) görüş yerinə çevrilmişdir?

Bu məscid min il bundan qabaq Qum şəhərində elmi hövzə tə`sis olunması məqsədilə dəftərxana olaraq İmam Zaman (ə)-ın aşiqlərinin onun müqəddəs vücudu ilə görüşə bilmələri üçün tikilmişdir. Hal-hazırda bura camaatın İmam Zamanla (ə) görüş diyarı və öz hacətlərini ondan aldıqları dilək yeridir. Əgər bu məsciddə yalnız İmam Zaman (ə)-ın hüzuru və onunla əlaqədar nəql olunan görüşləri bir yerə yığmaq istəsək, bəlkə də yüzlərlə əhvalat nəql edə bilərik. Amma nə etmək olar ki, bu görüşlərə nail olan bə`zi şəxslər görüşlərin onların şəxsi həyatı ilə birbaşa əlaqəsi olduğu üçün onları nəql etməyə icazə verməmişlər. Bu görüşlərdən bə`ziləri Ali-Məhəmmədin sirlərilə əlaqəli olduğu üçün biz onlar barədə söhbət açmayacağıq. Hər halda, Cəmkəran məscidi bu günlər bəlkə də, Qumdakı həzrət Mə`sumənin ziyarətgahından daha çox ziyarət edilir. Bir neçə il bundan əvvəl, hətta cümə axşamlarında belə orada çox az sayda insan göründüyü halda, lakin indinin özündə bu məscidin minlərlə İmam Zaman (ə) aşiqinin ziyarətgahına çevrildiyi şübhəsizdir.

Qeyd etmək lazımdır ki, bu məscidin əhəmiyyət və əzəmətini gözdən salmaq və ya şübhə altına almaq istəyən “zirək” düşmənlər və bə`zən də nadan dostlar demişlər ki, onun tə`sisi əhvalatını Həsən ibn Müslə yuxuda görmüşdür. Lakin, bu əhvalatın qeyd olunduğu bütün mənbələrdə onun oyaq vaxtı baş verdiyi və heç bir halda yuxuya aid olmadığı

vurğulanıb. “Nəcmus-Saqib”, “Qum tarixi” və “Munisul-həzin” kitablarında bu əhvalat belə nəql olunur:

“Şeyx Həsən Müslə Cəmkərani buyurur: 393-cü hicri qəməri ilinin Ramazan ayının 17-si, çərşənbə axşamı evimdə (Cəmkəran kəndində) yatmışdım. Gecənin yarısı neçə nəfər evimin qapısı arxasından məni səsləyib yuxudan oyadaraq dedilər: Qalx! İmam Zaman (ə) səni çağırır. Tez ayağa qalxıb qaranlıqda köynəyimi geymək istədim. Amma, deyəsən, səhvən başqa bir köynək götürmüşdüm. Göynəyi geyinmək istəyirdim ki, eşikdən səs eşitdim: O köynək sənin deyil, onu geyinmə! Öz köynəyimi tapıb geyindikdən sonra şalvarımı geyinmək istədim. Yenə də eşikdən səs gəldi: O şalvar səninki deyil, onu geyinmə! Mən yenə şalvarı kənara qoyub öz şalvarımı tapıb geyindim. Bundan sonra həyətin qapısını açmaq üçün qıfılın açarını axtarmağa başladım ki, yenidən həmin səs eşidildi: Qapı açıqdır və açara ehtiyac yoxdur. Qapıya yaxınlaşdıqda, baxıb gördüm ki, bir qrup böyük şəxs məni gözləyir. Onlara salam verdim, onlar da salamımın cavabını verib “mərhəba!” – dedilər. Sonra onlarla birlikdə (indiki Cəmkəran məscidinin olduğu yerə) yola düşdüm. Görüş yerinə çatdıqda, gördüm ki, açıq bir yerə taxt qoyulmuş, taxtın üzərinə xalı döşənmiş, onun üzərinə də balışlar qoyulmuşdu. Taxtda, təxminən otuz yaşlı bir cavan oturub balışlara söykənmişdi. Cavanın yanında qoca bir kişi də oturub əlindəki kitabdan onun üçün nə isə oxuyurdu. Taxtın kənarında isə altmış nəfərə yaxın adam namaz qılırdı. Onların bə`zilərinin əynində ağ, bə`zilərinin əynində isə sarı paltar var idi.

Həzrət Xızr (ə) olan həmin qoca mənə İmam Zaman (ə) olan o cavanın yanında yer verdi və o Həzrət məni adımla çağırıb buyurdu: Həsən Müslə! Get, Həsən Müslimə de ki, neçə ildir bu yeri abadlaşdırır və əkinçiliklə məşğul olursan. De ki, bundan belə bu yerdən istifadə etməyə ixtiyarın yoxdur. Bu vaxta qədər götürdüyün məhsulların gəlirini gərək geri qaytarasan ki, biz də burada məscid tikə bilək! Həsən Müslimə bunu da de ki, bu yer çox şərəfli bir yerdir və Allah-təala oranı seçib bəyənmişdir. Sən isə bu yeri öz ixtiyarına keçirəndən sonra Allah-təala səni cəzalandırmaq məqsədilə iki oğlunu əlindən alsa da, amma bir nəticə çıxarmadın. Əgər bu işdən

yenə də əl çəkməsən, Allah-təala səni ağlına gətirmədiyin əzaba düçar edəcəkdir. Dedim: Ey mənim ağam, ey mənim sərvərim! Camaat mənim dediklərimi qəbul etməz və əlimdə bir dəlil olmazsa, onlar mənim dediklərimi təkzib edərlər. Buyurdu: Biz sənə bir əlamət deyəcəyik, sən isə get bizim dediklərimizi ona çatdır. Sonra Seyyid Əbül-Həsənə de ki, səninlə birgə gedib onun bu vaxta qədər əldə etdiyi gəlirini geri alıb, həmin pulu burada məscidin tikilişinə sərf etsin. Məscidin qalan məxaricini isə bizim Ərdəhaldakı mülkümüzün gəlirindən gətirib, məscidin tikintisini sona çatdırsın. Biz o mülkün mənfəətinin yarısını məscidə vəqf etmişik ki, hər il əldə olunan gəlirdən onun təmirinə sərf olunsun. Camaata da deyin ki, bu yerə böyük diqqət və rəğbət göstərsinlər. Məscidin ehtiramını əziz tutub, orada dörd rükət namaz qılsınlar. Birinci namazın qılınma qaydası isə belədir:

(“Təhiyyət” namazında) hər rükətdə “Həmd” surəsini oxuduqdan sonra yeddi dəfə “İxlas” surəsi, həmçinin yeddi dəfə də rüku və səcdələrin zikrləri təkrar olunsun.

İkinci namaz isə İmam Zaman (ə) üçün niyyət olunmalıdır. Qayda belədir ki, hər rükətdə “Həmd” surəsindəki «İyyakə nə`budu və iyyakə nəstəin» (“Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik”) – ayəsi yüz dəfə, rüku və səcdələrin zikrləri isə yeddi dəfə təkrar olunsun və namaz salamlarla sona çatdırılsın. Namazdan sonra Həzrət Zəhra (ə.h)-ın zikrini (34 dəfə “Allahu əkbər”, 33 dəfə “Əlhəmdu lilah”, 33 dəfə də “Subhanəllah”) deyib səcdə edilsin və yüz dəfə Peyğəmbər və onun xanədanına salavat göndərilsin. Sonra buyurdu: “Kim bu iki rükətlik namazı burada qılarsa, sanki Kə`bədə iki rükət namaz qılmışdır.”[1]

Bu sözləri eşitdikdə, öz-özümə dedim ki, məscidin yeri o cavanın (İmam Zaman (ə)) əyləşdiyi yer olacaq. Bundan sonra İmam Zaman (ə) mənə işarə etdi ki, gedə bilərsən.

Aralanıb Cəmkərandakı evimə getmək istəyirdim ki, yenə də məni səsləyib buyurdu: Çoban Cə`fər Kaşaninin sürüsündə bir keçi var ki, onu almalısan. Əgər Cəmkəran kəndinin camaatı o keçinin pulunu versələr ki, heç, yox əgər verməsələr,

---

[1] Hər iki namaz iki rükətdən ibarətdir.

öz pulunla onu al. Sabah axşam mübarək Ramazan ayının on səkkizinci günü onu burada kəsərsən. Ətindən hər hansı ağır xəstə və ya əlil yesə, Allah ona şəfa verər. O keçinin yunu çox və üzərində xalları vardır ki, onların üçü onun sağ, dördü isə sol tərəfindədir.

Mən aralanıb getmək istəyirdim ki, yenə də məni səsləyib buyurdu: Biz yetmiş, ya yeddi gün (sənədlərdə müxtəlif nəql olub) hələ burada olacağıq (Əgər yeddi gün hesablasaq, mübarək Ramazan ayının iyirmi üçüncü günü, yə`ni qədr gecəsi və əgər yetmiş gün hesablasaq, Zilqədə ayının iyirmi beşinci gecəsi olacaqdır ki, bu da olduqca əhəmiyyətli günlərdəndir).

Beləliklə, son dəfə Həzrətin hüzurundan ayrılıb evə getdim və səhərə qədər bu haqda fikirləşdim. Səhər açıldıqda, sübh namazını qılıb Əli Münzərin yanına getdim və hər şeyi ona danışdım. Məscidin yerində İmam Zaman (ə)-dan qalan nişanə və əlamətlər yerə çalınmış mıx və zəncirlər idi.

Sonra birlikdə Seyyid Əbül-Həsən Rzanın yanına getdik. Evinə yaxınlaşdıqda gördük ki, xidmətçiləri bizi gözləyirlər. Bizi görcək, əvvəl məndən soruşdular: “Sən Cəmkərandansanmı? Dedim: Bəli. Dedilər: Seyyid Əbül-Həsən səhər açılandan sizi gözləyir.

Bundan sonra Seyyidin yanına gəlib salam verdim. O da çox gözəl tərzdə cavab verib mənə böyük ehtiram göstərdi. Mən ona bir şey deməzdən əvvəl buyurdu: Ey Həsən Müslə! Dünən gecə yuxuda bir şəxs mənə bunları dedi: Cəmkərandan Həsən Müslə adlı bir şəxs sənin yanına gələcəkdir ki, o nə desə, qəbul elə və ona e`timad et. Çünki, onun dedikləri bizim sözümüzdür. Dediyi hər bir sözə qulaq as və heç nəyi rədd etmə. Həmin andan yuxudan ayılıb sizi gözləyirəm! Mən də əhvalatı ətraflı ona danışdım.

Sonra o, xidmətçilərə atları yəhərləməyi əmr etdi. Biz də atlara minib yola düşdük və birlikdə Cəmkəran kəndinə çatdıq. Yolun kənarında çoban Cə`fəri sürüsü ilə birgə gördük. Sürünün arasına girib həmin keçini axtarmağa başladım. Birdən sürünün arxasından həmin keçinin gəldiyini gördüm. Keçini götürüb pulunu vermək qərarına gəldim. Çoban Cə`fər and-aman etdi ki, hələ bu vaxta qədər bu keçini sürüdə

görməmiş və nə qədər onu tutmağa çalışsa da, bunu edə bilməmişdir. Dedi: İndi ki, o özü sizin yanınıza gəlir, götürün onu aparın, o bizim deyildir.

Mən də keçini məscidin indiki yerinə aparıb, orada deyildiyi kimi kəsib xəstələrə payladım. Mən həmin keçinin ətindən hər xəstəyə verdimsə, şəfa tapdı. Seyyid Əbül-Həsən Rza, Həsən Müslimi yanına çağırıb əhvalatı ona danışdı. O da ötən illərdə əldə etdiyi gəlirləri ödəyib, məscidin yerini geri qaytardı.

Nəhayət, məscid tikildi və üstü taxta ilə örtüldü. Seyyid Əbül-Həsən Rza yerdə qalan mıx və zəncirləri isə evinə apardı.

Sonralar xəstələr onların vasitəsi ilə şəfa alardılar. Seyyid Əbül-Həsən Rza mıx və zəncirləri evində sandıqda saxlayırmış. Deyilənlərə görə onun vəfatından sonra övladları xəstələrə əlac etmək istəyərkən, onların yoxa çıxdığını görürlər.”

## «İkinci Görüş»

Şükür olsun Allaha ki, bu günlər Qumun elmi hövzələrində təhsil alan tələbələrin və İmam Zaman (ə)-ın aşiqlərinin sayı xeyli artmış və bu şəhər sözün əsl mə`nasında o Həzrətin əsgərlərinin qərargahına çevrilmişdir. Lakin, İmam Zaman (ə)-ın göstərişi ilə Qumda “İmam Həsən Müctəba” adlı başqa bir məscid də tikilir ki, bu əhvalat belədir:

Həzrət Ayətullah hacı şeyx Lütfüllah Safi “On suala cavab” adlı kitabında (səh. 31) yazır: Bizim dövrümüzdə baş verən qeyri-adi əhvalatlardan biri də bu olmuşdur ki, qədim Qum-Tehran yolunun kənarında sağ tərəfdə baş sahədə Hacı Yədulla Rəcəbiyan “İmam Müctəba” adına çox gözəl və böyük bir məscid tikdirir. İndinin özündə də həmin məsciddə camaat namazları qılınır. Məscidlə əlaqəli olan bu əhvalatı 1357-ci hicri şəmsi (1978) ilinin tir ayını yeddisi (1398-ci hicri qəməri ilinin rəcəb ayının 22-si) çoxdan Tehranda yaşayan böyük alimlərdən olan cənab Əhməd Əsgəri Kermanşahinin özündən

eşitdim. Əhvalatın canlı şahidi olan Kermanşahi onu bizə Hacı Yədulla Rəcəbiyanın evində bir neçə hörmətli şəxsin hüzurunda nəql edirdi:

"Təqribən iyirmi beş il bundan qabaq bir cümə axşamı sübh namazının duasını oxuyurdum ki, birdən qapı döyüldü. Eşiyə çıxdıqda qapının ağzında üç nəfər cavan oğlan gördüm. Onların hər üçü mexanik idi və bir yerdə maşınla gəlmişdilər. Məni görcək dedilər: Bu gün cümə axşamıdır. Xahiş edirik bizimlə birlikdə Cəmkəran məscidinə gedib, orada dua edək ki, bir hacətimiz vardır.

Onlar mənim dərslərimdə iştirak edər, gəlib namaz və Qur`an öyrənərdilər. Etdikləri xahişdən xəcalət çəkdim və başımı aşağı salıb dedim: Axı mən kiməm ki, gəlim sizinlə dua da edim. Amma onlar israr edərək onlarla getməyimi xahiş etdilər. Gördüm ki, onların xahişini qəbul etməsəm yaxşı alınmayacaq. Nəhayət, razılaşıb onlarla birlikdə Cəmkəran məscidinə yola düşdük.

O vaxtlar Qumun ətrafındakı Tehran yolu üstə indiki binalar yox idi. Gözə dəyən yalnız yolun sol tərəfindəki Qara Əlinin qəhvəxanası adlanan xarabalığa çevrilmiş bir karvansara idi. Yolumuza davam edirdik ki, birdən Hacı Rəcəbiyanın tikdirdiyi indiki "İmam Həsən Müctəba" məscidindən bir qədər yuxarıda maşınımız işdən düşdü. Onlar maşından düşdülər və kopotu açıb maşını tə`mir etməyə başladılar. Əliağa adlı cavanlardan birindən təharət üçün bir qədər su alıb kənara çəkildim. İndiki məscidin yerində çox gözəl, surəti ağ çatmaqaş bir seyyid gördüm. Əynində ağ əba, ayaqlarında sarı başmaq, başında isə xorasanlıların əmmaməsinə oxşar yaşıl əmmamə var idi. Əlindəki səkkiz metrlik nizə ilə məscidin yerində nə isə xətlər çəkirdi. Öz-özümə dedim: Bir buna bax, səhərin gözü açılmamış dost-düşmənin keçdiyi bir yerdə əlinə nizə alıb, nə işdir görür. (Əhməd Əsgəri özü bu sözlərindən peşman olduğu halda üzrxahlıq edərək deyir:) Ürəyimdə öz-özümə dedim: Ay zəmanə adamı, indi top-tüfəng, atom dövrüdür. Əlindəki nizə ilə nə etmək fikrin var?! Get dərsini oxu! Ayaqyoluna getmək istəyirdim ki, birdən məni səsləyib dedi: Ağa Əsgəri, ora olmaz, oranı mən xətləmişəm, ora məscidin yeridir.

Mən, onun məni haradan tanıdığını bilmədim və böyüyün sözünü eşidən uşaq tək “baş üstə” – deyib sözünə qulaq asdım. Sonra o mənə dedi: O təpənin arxasına keç. Mən onun dediyi kimi də etdim və öz-özümə dedim: Gedib ona üç sual verəcəyəm və sonra deyəcəyəm ki, ay seyyid, ay peyğəmbər övladı, get dərsini oxu. Vermək istədiyim suallar isə bunlar idi:

1. Məscidi cinlər üçün tikirsən, yoxsa mələklər? Qumdan iki fərsəx yol gəlib, qızmar günəşin altında məscidin lahiyyəsini çəkirsən? Olmaya, oxumamış me`mar olubsan?!

2. Hələ ki, burada məscid tikilməyib, nə üçün icazə vermirsən?

3. Tikəcəyin məsciddə cinlər namaz qılacaq, yoxsa mələklər?

Sualları hazırladım və ona tərəf yaxınlaşıb salam vermək istədim. Amma o məni qabaqlayıb birinci salam verdi və əlindəki nizəni yerə batırıb məni bağrına basdı. Onun əlləri olduqca ağ və yumşaq idi. Öz-özümə bunu da fikirləşdim ki, Tehranda seyyidlərdən kimsə şuluqluq etdiyi zaman, zarafatla “məgər bu gün çərşənbədirmi?” – dediyim sözləri ona da deyim. Amma hələ bir söz deməmiş təbəssümlə dedi: Bu gün çərşənbə yox, cümə axşamıdır və nəzərdə tutduğun sualları da buyur ver. Başa düşə bilmədim ki, mən bir söz deməmiş o mənim sual nəzərdə tutduğumu haradan bildi. Dedim: Ay seyyid, ay peyğəmbər övladı! Dərsi buraxıb, sübh tezdən nizə ilə bu yolun kənarında nə etmək fikriniz var? Bilmirsən ki, yaşadığımız dövr top-tüfəng dövrüdür və əlindəki nizə sənin dərdinə dəyməz? Axı dost var, düşmən var, get dərsini oxu! O, gülümsəyib başını aşağı saldı və sonra buyurdu: Burada məscidin lahiyyəsini çəkirəm. Dedim: Cinlər üçün, yoxsa mələklər üçün? Buyurdu: Adəm övladı üçün, bura abadlıq olacaqdır. Dedim: Deyin görüm, nə üçün məscid tikilməzdən əvvəl burada ayaqyoluna icazə vermədin?

Buyurdu: Həzrət Zəhranın (ə) əziz övladlarından biri burada şəhid olmuşdur. Gördüyün kimi, mən burada bir düzbucaqlı çəkmişəm. Sonra bir-bir işarə edərək buyurdu: Gördüyün bu yerdə mehrab olacaqdır, qan damcıları gördüyün bu yerdə isə mö`minlər dayanacaqlar. Bura isə Allah və Onun peyğəmbərinin düşmənlərinin sərildiyi yerdir, məscidin

ayaqyolusu da elə burada olacaqdır. Sonra durduğu yerdən geri döndü və məni də özü ilə geri qaytarıb buyurdu: Bura isə Hüseyniyyə olacaqdır. Bunu deyərkən, ixtiyarsız gözlərindən yaş axdı. Məni də ağlamaq tutdu. Sonra buyurdu: Buranın arxası isə kitabxana olacaqdır. Sən kitabxananı kitablarla tə`min edə bilərsənmi? Dedim: Ey peyğəmbər övladı, bunun üç şərti var: Birinci şərti budur ki, o vaxt sağ olum. Buyurdu: İnşaallah. İkinci şərti budur ki, bura məscid olsun.Buyurdu: Bərəkəllah. Üçüncü şərti isə budur ki, göstərişinizi yerinə yetirmək üçün bacardığım qədər, hətta bir kitab belə olsa, bura gətirə biləm. Amma indi xahiş edirəm, get və bu fikri də birdəfəlik başından at. Bunu dedikdən sonra güldü və məni iki dəfə qucaqladı. Dedim: Axı demədin buranı kim tikəcək? Buyurdu: "Allahın əli [qüdrəti] onların əllərindən yuxarıdır."1 Dedim: Ay seyyid, mən özüm bu qədər dərs oxumuşam, yə`ni, Allahın əlinin [qüdrəti] bütün əllərdən [qüdrətlərdən] üstün olduğunu yaxşı bilirəm. Buyurdu: Sən intizarda ol və məscid tikilib qurtardıqdan sonra onu tikənə mənim adımdan salam söyləyərsən. Bunu deyib yenə məni qucaqlayıb buyurdu: Allah köməyin olsun.

Geri qayıdanda, artıq maşının mühərriki işə düşmüşdü. Onlardan soruşdum: Nə olmuşdu? Dedilər: Filan məftilin altına bir kibrit çöpü qoyduq, sən gələn kimi işə düşdü. Dedilər: Orada kiminlə danışırdın? Dedim: Məgər əlində o boyda nizə tutan seyyidi görmədinizmi? Mən onunla danışırdım. Dedilər: Hansı seyyid? Geri qayıtdıqda, orada kimsəni görmədim. Həmin yer əlin içi kimi düz olmuşdu, oradakı çökəklik və təpəliklərdən heç bir əsər-əlamət də qalmamışdı. Geri dönüb maşında oturdum və kimsə ilə bir kəlmə söz danışmadım. Sonra birlikdə Həzrət Mə`sumənin (ə) ziyarətgahına yola düşdük, amma bilmədim zöhr və əsr namazlarını necə qıldım.

Nəhayət, gəlib Cəmkəran məscidinə çatdıq. Orada namaz qılıb sonra çörək yedik. Mən əsla özümdə deyildim və yoldaşlarım mənimlə danışsalar da mən onlara cavab verə bilmirdim. Cəmkəran məscidində bir tərəfimdə qoca bir kişi, o biri tərəfimdə isə cavan bir oğlan oturmuşdu. Ortada oturub

---

[1] "Fəth", 10.

nalə ilə zar-zar ağlayırdım. Cəmkəran Məscidin namazını qılıb salavat demək üçün səcdəyə getmək istəyirdim ki, birdən xoş ətir qoxusu gəldi və bir şəxs adımı çəkərək mənə salam verib yanımda oturdu. Onun səsi səhər çağı mənə nəsihət verən həmin seyyidin səsinə oxşayırdı.

Salavat demək üçün səcdəyə getdim, amma ürəyim Həzrətin yanında idi. Başımı səcdədən qaldırıb onun haralı olduğunu və məni haradan tanıdığını soruşmaq istəyirdim ki, gördüm o artıq yoxdur. Yanımdakı qoca kişi və cavan oğlandan mənimlə söhbət edən şəxsin hara getdiyini soruşdum. Amma onlar da bilmədilər. Birdən, elə bil göy başıma dolandı və mən başa düşdüm ki, həmin şəxs həzrət Mehdi (ə) imiş. Daha özümdən getdim və yoldaşlarım üzümə su vurub məni ayıltdılar. Onlar məndən nə baş verdiyini soruşsalar da, bir cavab vermədim. Nəhayət, namazlarımızı qılıb tez Tehrana qayıtdıq.

Çatdığım ilk gündə Tehranın böyük alimlərindən biri ilə görüşdüm və baş verənləri ona danışdım. Sonra o məndən həmin şəxsin xüsusiyyətlərini xəbər aldı. Mən də onu olduğu kimi vəsf etdim. O məni axıra qədər dinlədikdən sonra dedi: O, həzrətin özü olmuşdur. İndi isə intizarda olmaq lazımdır, əgər orada məscid tikilərsə, buna tam əmin ola bilərsən.

Bir neçə ay bundan əvvəl dostlarımızdan birinin atası vəfat etmişdi. Məsciddə mənimlə birgə olan yoldaşlarla onu Quma gətirərkən, həmin yerə çatdıqda, orada iki sütunun ucaldığını gördüm. Yoldaşlarımdan orada nə tikildiyini soruşdum. Onlar hacı Hüseyn Suhaninin oğullarının məscid tikdirdiklərini bildirdilər. Beləliklə, Quma çatıb cənazəni "Behişt bağı" adlanan qəbiristanlıqda dəfn etdik. Amma mən özümdə deyildim. Yoldaşlarıma dedim ki, siz gedib nahar edənə kimi mən də qayıdacağam. Tez taksiyə oturub Hacı Hüseynin oğullarının halva dükanına getdim və onlardan soruşdum: O məscidi sizmi tikdirirsiniz? Dedilər: Xeyr. Soruşdum: Onda bəs kim tikir? Dedilər: Hacı Yədulla Rəcəbiyan. Onlar elə Yədulla demişdilər ki, ürəyim çırpınmağa başladı. Onlar məni bu vəziyyətdə görüb dedilər: Ay qardaş, sənə nə oldu? Tez məni əyləşdirdilər. Tər başdan-ayağa bütün vücudumu bürümüşdü. Heyrət içində qalıb yalnız bunları deyə bildim. "Allahın əli bütün

əllərdən yuxarıdır.” Başa düşdüm ki, bu həmin şəxs Hacı Yədullahdır, onu da mən o vaxta qədər nə görmüş, nə də tanıyırdım. Tehrana qayıtdıqdan sonra həmin alimin yanına getdim və bu əhvalatı da olduğu kimi ona nəql etdim. O da məni dinlədikdən sonra buyurdu: Qayıt ora, başına gələnlər həqiqət imiş.

Mən də dörd yüz cild kitab aldıqdan sonra Quma getdim və orada Hacı Yədullanın işlədiyi yunəyirmə karxanasını axtarıb tapdım. Karxanaya gedib qaravulçudan Hacı Yədullanı soruşdum. Dedi: Hacı evə getdi. Dedim: Xahiş edirəm, ona zəng vurub deyin ki, Tehrandan bir nəfər gəlib, sizinlə işi vardır. O da zəng etdi. Hacı telefonun dəstəyini götürdü və mən də nəzakətlə ona salam verib Tehrandan gəldiyimi, məscidin kitabxanasına dörd yüz cild kitab vəqf etmək istədiyimi bildirdim. Soruşdu: Kim bu işi sizə tapşırıb və bizi necə tanıyırsınız? Dedim: Qardaş, mən yalnız dörd yüz cild kitab vəqf etmək istəyirəm. Dedi: Biz bilməliyik onlar kimindirlər. Dedim: Bu telefon söhbəti deyil. Dedi: Gələn cümə axşamı sizi gözləyəcəyəm, kitabları gətirərsən evimizə. Evimiz isə “Şah dörd yolayrıcı”nda, Şükrullahi döngəsinin sol tərəfində, sol tərəfdən üçüncü qapıdır.

Tehrana qayıdıb kitabları qutulara yığdım və cümə axşamı dostlardan birinin maşını ilə onları Hacının evinə gətirdim. Hacı məni görcək dedi: Belə qəbul edə bilmərəm, gərək nə baş verdiyini danışasan. Mən də çarəsiz qalıb baş verənləri ona danışdım və kitabları təqdim edib həmin məscidə getdim. Orada İmam Zaman (ə)-ın namazını qılıb xeyli ağladım. Hacı Yədulla məscidin lahiyyəsini İmam Zamanın (ə) çəkdiyi kimi mənə göstərib dedi: Allah köməyin olsun, əhdinə vəfa etdin.

“İmam Həsən Müctəba məscidi”nin əhvalatı ixtisarla bundan ibarət idi. Amma yenə diqqətinizi Hacı Rəcəbiyanın nəql etdiyi başqa bir maraqlı əhvalata da yönəltmək istəyirik. Hacı Rəcəbiyan deyir:

Adət üzrə hər cümə axşamı işdən sonra məscidin usta və fəhlələrinin pullarını ödəyər və bir sıra əlavə xərcləri hesablayardım. Bir dəfə məscidin baş ustası fəhlələrin haqqını almaq üçün yanıma gəlib dedi: Bu gün bir nəfər seyyid gəlib bu

əlli tüməni məscidə verdi. Dedim: Məscidin banisi kimsədən pul almır. O isə səsini qaldıraraq mənə dedi: Deyirəm al bunu!

Ustadan əlli tüməni aldım. Onun arxasında belə bir yazı var idi: *«İmam Həsən Müctəba məscidinin tikilişinə xərclənəcək.»* İki-üç gündən sonra mənə bir qadın müraciət etdi və özünün və iki yetiminin ağır vəziyyətindən gileyləndi. Əlimi cibimə salıb gördüm ki, pulum yoxdur. Evdən çıxanda da yadıma düşmədi ki, özümlə pul götürüm. Həmin əlli tüməni ona verib öz-özümə dedim: Sonra özüm yerinə qoyaram. Pulu qadına verəndən sonra ona ünvanımızı verib dedim ki, ehtiyacın olanda gəl həmişə kömək edərik. Qadın pulu alıb getdi, amma ünvanımızı bilsə də, bir daha müraciət etmədi. Amma sonradan bərk peşman oldum ki, gərək o pulu verməyəydim.

Növbəti cümə günü baş usta yanıma gəlib dedi: Bu həftə sizdən bir xahişim var, əgər qəbul edəcəyinizə söz versəniz, deyərdim. Dedim: Buyur, de. O bir daha dedi: Əvvəl söz verin ki, onu qəbul edəcəksiniz. Dedim: Usta, əgər öhdəsindən gələ bilsəm, qəbul edərəm. Dedi: Bilərsən. Dedim: Yaxşı, de. Daha neçə dəfə aramızda bu söz təkrar olandan sonra dedi: Seyyidin verdiyi o əlli tüməni səndən istəyirəm. Öz-özümə dedim: Usta dərdimi təzələdin. Çünki, o əlli tüməni o qadına verəndən sonra çox peşman idim və həmin əhvalatdan iki il sonraya qədər əlimə düşən hər əlli tümənə baxırdım ki, birdən həmin pul olar. Dedim: O gecə müxtəsər dedin, indi isə ətraflı danış görüm, nə olub? Dedi: O gün günortadan sonra, təxminən dördün yarısı olardı və hava da çox isti idi. İstinin qızmar çağında işimlə məşğul idim və yanımda iki-üç fəhlə də var idi. Birdən gördüm ki, məscidin qapılarının birindən nurani bir şəxs içəri daxil oldu. Zahiri görünüşü olduqca cazibəli idi. Rəftarından olduqca alicənablıq duyulur və vüqarlı, böyük şəxsiyyət olduğu mə`lum idi. Məscidə daxil olan andan daha əlim iş tutmadı, elə hey ona tamaşa etməyə başladım. O, bir qədər məscidin salonunda gəzdikdən sonra gəlib üzərində işlədiyim dayağın qarşısında dayandı. Sonra əlini əbasına aparıb, oradan pul çıxardı və mənə verib dedi: Usta, tut bu pulu, onu məscidinin banisinə verərsən. Dedim: Ağa, o

kimsədən pul almır. Mən onu sizdən alsam da, ola bilsin, o almayıb narahat olsun. Birdən, onun üzünün rəngi dəyişdi və dedi: Sənə deyirəm al bu pulu, bunu götürər. Mən də bulaşıq əllərimlə tez pulu alıb cibimə qoydum. O isə daha çıxıb getdi. Öz-özümə dedim: Havanın bu isti çağında bu şəxs kim idi, belə? Fəhlələrdən Məşhədi Əlini tez yanıma çağırıb dedim: Get gör, o hara gedir? Kiminlə və nə ilə gəlmişdir? Məşhədi Əli getdi, amma beş dəqiqə keçdi gəlmədi, on dəqiqə keçdi, yenə gəlmədi. Axır onu səsləyib dedim ki, harda qaldın? Bəs niyə gəlmirsən? Dedi: Ağaya tamaşa edirəm. Dedim: Gəl daha. Gəlib dedi ki, o şəxs başını aşağı salıb getdi. Ondan soruşdum: O nə ilə gəlmişdi? Maşınla idimi? Dedi: Xeyr, heç bir minik vasitəsi yox idi və başını aşağı salıb eləcə getdi. Dedim: Onda bəs sən kimi gözləyirdin? Dedi: Dayanıb, ağaya tamaşa edirdim.

Hacı Rəcəbiyan deyir: Bax, bu idi əlli tümənin əhvalatı. Amma inanın ki, o əlli tümənin məscidin tikilişinə böyük tə`sir qoydu. Mən heç məscidi bu asanlıqla tikəcəyimə və tək başıma bu ərsəyə çatdıracağıma ümid etmirdim. Həmin əlli tümənin əlimə düşdüyü gündən həm məscidin tikilişinə, həm də şəxsi işlərimə böyük tə`siri oldu.”[1]

## *«Üçüncü Görüş»*

Mərhum Ayətullah Hacı Şeyx Müctəba Qəzvini Məşhədin tanınmış və adlı-sanlı alimlərindən biri olmuşdur. Və mən özüm ondan dəfələrlə kəramətlər görmüşəm. O 1338-ci hicri şəmsi ilində bu əhvalatı nəql edirdi:

Məşhəd sakini olan Damğanlı Seyyid Məhəmməd Baqir, mərhum hacı Mirzə Mehdi İsfahani Qərəvinin şagirdlərindən biri olmuş və dəfələrlə onun hüzurundan bəhrələnə bilmişdir. O bir neçə il vərəm xəstəliyindən əziyyət çəkdi. O zamanlar həmin xəstəliyin əlacı yox idi. Xəstəlik onu xeyli zəiflətmiş, bunun üçün də hamı naümid olmuşdu. Amma bir vaxt onun

[1] Ayətullah Safi, “On suala cavab”.

tamamilə sağlam və çevik bizim yanımıza gəldiyini gördüm. Hamımız bundan təəccübləndik və sağalmağının səbəbini soruşduq. Dedi: Bir gün hulqumumdan xeyli qan gəldi, həkimlər də dərdimə çarə tapa bilməyib məni lap mə`yus etdilər. Qərara gəldim ki, gərək Ayətullah Qərəvinin yanına gedib vəziyyətimi ona izah edim. O məni dinlədikdən sonra dizi üstə oturdu və təəccüblə dedi: Məgər sən seyyid deyilsən?! Nə üçün əcdadlarından xəstəliyinə şəfa diləmirsən?! Nə üçün İmam Zaman (ə)-ın hüzuruna gedib, hacətini ondan diləmirsən? Məgər bilmirsənmi ki, onlar Allahın gözəl adlarıdırlar? Məgər Kumeyl duasında "Ey o kəs ki, onun adları dərdlərə dəva yad olunması isə bəlalara şəfadır" – münacatını oxumamısanmı? Əgər müsəlmansansa, əgər seyyidsənsə, əgər şiəsənsə, onda gərək günü bu gün şəfanı fədası olduğumuz İmam Zaman (ə)-dan istəyəsən!

Ayətullah Qərəvinin sözləri mənə o qədər tə`sir etdi ki, özümü saxlaya bilməyib zar-zar ağlamağa başladım. Yerimdən qalxdım. Məndə elə hal yarandı ki, sanki, hökmən İmam Zaman (ə)-ın hüzuruna getməliydim. Elə hey ağlayır və öz-özümə zümzümə edərək deyirdim: Ya Huccətubnul-Həsən, ədrikni! "Ey Höccət ibn Həsən, dadıma çat!" Bundan sonra həzrət İmam Əli ibn Musa Rza (ə)-ın müqəddəs ziyarətgahına tərəf getdim. Məscidin qədim həyətinə daxil olduqda oranı bir qədər dəyişgən gördüm. Ora olduqca xəlvət idi. Həyətdə yalnız birgə hərəkət edən yalnız bir neçə nəfər görmək olardı. Onların qarşısında bir seyyid də var idi. Mən başa düşdüm ki, o İmam Zaman (ə)-dır. Öz-özümə dedim ki, onlar gedə və mən onlara çatmaya da bilərəm. Yaxşısı budur ağanı çağırım və ondan xəstəliyimə şəfa istəyim. Bu fikiri zehnimdən keçirirdim ki, gördüm ki, həmin seyyid qayıdıb gözünün ucu ilə mənə nəzər saldı. Bədənimi soyuq tər bürüdü. Birdən məscidin həyətini adi vəziyyətdə gördüm. Artıq həmin bir neçə nəfər şəxs orada görünmirdi, camaat həmişə olduğu kimi orada get-gəl edirdilər. Mən heyrət içində idim. Elə bu vaxt özümün tam sağaldığımı və əziyyət çəkdiyim xəstəlikdən heç bir əsər-əlamətin qalmadığını hiss etdim. Evə qayıtdım və pəhrizə son qoydum. Halım o qədər yaxşı olmuşdu ki, nə qədər istəyirdim öskürəm, öskürə bilmirdim.

Mərhum Hacı Şeyx Müctəba Qəzvini (Allah ona rəhmət etsin) bunu deyib zar-zar ağlamağa başladı. Sonra buyurdu: Bəli, bu idi Seyyid Məhəmməd Baqir Damğaninin əhvalatı. Həmin əhvalatdan bir neçə il sonra yenə də onu gördüm. O, tamamilə sağlam və gümrah idi.

Şair deyir:

*Bir baxışla torpağı kimya edənlər,*

*Olarmı ki, bizə bir nəzər salmasınlar.*

## *«Dördüncü Görüş»*

Seyyid Həsən Əbtəhi deyir: 1353-cü hicri şəmsi ilində Mədinəyə getmişdim. Gecə yarısı, küçələr tamamilə xəlvət olduğu vaxt dolanıb bir-bir onları nəzərdən keçirirdim. Babus-səlam tərəfdəki binalar uçurulmuş və hələ indiki kölgəliklər tikilməmişdi.

Peyğəmbər məscidinin divarları ilə üzbəüz prospektə qədər yeni Qəmamə məscidi tikilmişdi. Gecənin axırı olduğundan, ziyarətgahın qapıları hələ açılmadığı üçün yoldaşımla birlikdə Peyğəmbərin məscidinin kənarında oturmuşduq. Hər bir qapı həzrət İman Zamanı (ə) xatırladırdı. Hər ikimiz oturub o həzrətə olan eşq və diqqətimizi izhar edirdik. Yoldaşım birdən mənə dedi: Sizə bir sualım var. Dedim: Buyur soruş. Dedi: Ola bilərmi ki, fədası olduğum İmam Zaman (ə)-ın Mədinədə mənzili olmasın? Dedim: Niyə də ola bilməsin, lazım deyil onun hər şəhərdə evi olsun. Xüsusilə də ona görə ki, dostlarının evi elə onun özünə məxsusdur. Yoldaşım dedi: Yox, mən belə fikirləşirəm o Həzrətin Mədinədə evi vardır. Dedim: O ev haradadır? Dedi: Əgər onun evinin yerini bilsəydim, indi burada oturmazdım. (Mən bilirdim ki, o həzrətin aşiqlərində belə bir hal baş verdikdə, azacıq diqət yetirməklə xeyli faydalanmaq olar. Bunun üçün də dedim:) Mən belə bir əqidədə olsaydım, yə`ni fədası olduğum İmam Zaman (ə)-ın Mədinədə evi olduğunu hesab etsəydim, onun evini tapana qədər şəhərdəki bütün evlərin qapısını döyər və ev

sahibinin adını soruşardım. Sonra sözlərimə əlavə edərək dedim: Əgər bu iş tam ciddiyyətlə və düzgün yerinə yetirilərsə beş-altı günə bütün evlərə baş çəkmək olar. Axı, Mədinə nə boyda şəhərdi ki, bu müddət ərzində bu işi görmək olmasın. İşin özü isə o qədər müqəddəs və əhəmiyyətlidir ki, ona görə belə bir zəhmətə qatlaşmağa, xəcalət çəkməyə, hətta kimlərinsə söyüş və təhqirlərinə dözməyə belə dəyər.

Amma mən belə bir əqidədəyəm ki, İmam Zaman (ə)-ın qeyrət və dostlarına olan lütf və məhəbbəti onların bu qədər zəhmətə qatlaşmalarına və kimlərinsə yanında xəcalətli olmalarına yol verməz. Deməli, əgər o istəsə, öz evini iki üç qapını döyməkdən daha tez sizə göstərər.

Lakin bu əqidədə olmadığım üçün, yə`ni, İmam Zaman (ə)-ın müqəddəs Mədinədə evi olmadığını hesab etmədiyim üçün bu işi görmədim. Xülasə, bu barədə mən onunla o qədər danışdım ki, gecə yarısı yatağından qalxdı. Mən də onunla birlikdə qalxdım. O heyrət içində qalıb haradan başlayacağını bilmirdi. Mən isə hər an fədası olduğum İmam Zaman (ə)-ın bizə bir lütf edəcəyini gözləyirdim. Birdən, camaat yuxuda olduğu zaman ətrafa qəribə sükut çökdü. Qəmamə məscidi ilə üzbəüz küçədən bir səs eşitdik, sanki kimsə bizi fars dilində çağırırdı. “Bu tərəfə, bu tərəfə.” Biz səs gələn tərəfə baxdıq, amma uzaqda olduğundan onun kim olduğunu və nə paltar geyindiyini müəyyən edə bilmədik. Deyəsən doğrudan da o bizi çağırırdı. İlk mərhələdə mən elə fikirləşdim ki, o bizi İmam Zaman (ə)-ın evinə tərəf çağırır. Gözlərim doldu və durmadan onun tərəfə hərəkət etməyə başladıq. Amma nədənsə, buna heç inanmağım gəlmirdi və öz-özümə dedim: Yə`qin ki, bu bizi yoldaşları ilə səhv salan hansısa iranlı ziyarətçidir. O, bizi yoldaşlarına oxşadıb elə güman etmişdir ki, biz yolumuzu itirmişik. Həmin şəxs yenə də bizi səsləyir və o tərəfə istiqamətləndirirdi. Amma birdən özü aradakı küçələrdən birinə girib gözdən itdi və biz bir daha onu görmədik. Nəhayət, on dəqiqədən sonra həmin yerə çatdıq, lakin yenə də orada üç yol ayrıcında qalıb nə edəcəyimizi və hansı tərəfdən ketməli olduğumuzu bilmirdik. Amma bu çaşqınlıq çox çəkmədi, birdən güclü matorsiklet səsi küçənin sükutunu pozdu və Qəmamə məscidinin qarşısındakı küçənin sonundan bir motorsikletçi

görünməyə başladı. Bizə çatdıqda sürətini azaltdı, bir qədər qarşımızda dayanıb otelin arxasındakı prospektdən ayrılan o biri küçəyə işarə edib fars dilində dedi “bu tərəfdən”, “bu tərəfdən.” Bunu deyib sür`ətlə bizdən uzaqlaşdı. Belə olduqda mən bu istiqamətləndirmələrin təbii olmadığını ehtimal verməyə başladım. Çünki, əgər birinci şəxs təsadüfi olaraq çağırmış olsaydı da, ikinci şəxsin – motorsikletçinin bizə yol göstərməsi heç də adi deyildi. Çünki, iranlılar Mədinədə motorsiklet sürmürdülər. Bəli, bu iş heç də adi iş deyildi. Xüsusilə də ona görə ki, motorsiklet bizi görcək qarşımızda dayanıb kim olduğumuzu yaxından gördü. Bunun üçün də o bizi yoldaşları ilə səhv sala bilməzdi. Beləcə, göz yaşı axıdaraq “Ya Sahibəzzəman!” deyə-deyə bizə göstərilən küçəyə tərəf hərəkət etməyə başladıq. On addım irəliləməmişdik ki, bir də gördük ki, təqribən on nəfər cavan, ərəb paltarında olan alicənab bir şəxsin ətrafına toplaşıb onun dediklərinə qulaq asırlar. Hiss olunurdu ki, onlar evdən təzə çıxıb harasa getmək istəyirdilər. Onlar yavaş-yavaş bizə tərəf gəlirdilər. Bizə çatdıqda həmin alicənab şəxs bizə baxıb dedi: “Salamun Ələykum!” Biz də salamına cavab verdik. Lakin bu salamlaşma və bu baxış o qədər qeyri adi oldu ki, bizi tamamilə heyran etdi. Fikirləşdim ki, görəsən onlar haradan küçəyə çıxmışlar. Başımın arxasına nəzər saldıqda baxıb gördüm ki, evlərdən birində işıq yanır. Və bununla da mə`lum olurdu ki, onlar hansı evdən çıxmışlar. Evin qapısı taxtadan idi, qapının üzərində isə şüşə əvəzinə biri-birindən üç barmaq aralı dəmir millər var idi. Ev olduqca köhnə və bəzək-düzəksiz idi. Qapının arxasında yanan çırağın altında isə bir şəxs dayanmışdı və çox güman ki, o evin xidmətçisi idi. Evin yuxarısına isə kiçik bir lövhə vurulmuşdu, onun üzərinə saçan işıq lövhəni bütünlüklə, ətrafı isə qismən işıqlandırırdı. Lövhənin üzərində qızılı xətlə yazılmışdı: “Mənzilul-Məhdiyyil-ğaus” – birinci sətirdə “mənzil”, ikinci sətirdə isə “Məhdiyyil-ğaus” sözü yazılmışdı:

منزل
المهدى الغوث

Evi gördükdə yəqin bildik ki, məqsədimizə çox asanlıqla çatdıq və həzrət Mehdi (ə)-ın nurani evini heç bir zəhmət çəkmədən belə bir tez zamanda tapa bildik. Bu barədə daha çox şey bilmək

istədiyim üçün qapıdan həyətə daxil olub çırağın altında dayanan şəxsdən ərəb dilində soruşdum:

Ev sahibi evdədirmi? Həmin şəxs təbəssümlə və böyük mehribanlıq göstərərək dedi: Elə indicə getdi. Bildik ki, ev sahibi qarşımıza çıxan, cavanlarla birgə gələn həmin alicənab şəxs idi. Adı Mehdi, ləqəbi isə "Əl-ğaus". Amma, doğurdanmı o İmam Zaman (ə) idi? Doğurdanmı, mənim o həzrəti görməyə ləyaqətim çatırdı? Ümumiyyətlə, "Əl-ğaus"un mə`nası nədir? Əl-ğaus – yə`ni, çarəsizlərin yeganə pənahı. Ah-nalə və göz yaşları isə bizə imkan vermirdi. Bir azdan xidmətçi evin işığını söndürdü. Deyəsən, ev sahibini yola salıb özü yatmaq istəyirdi.

Amma fikir məni elə götürmüşdü ki, az qala böyük bir qabı göz yaşlarımla dolduracaqdım. Öz-özümə dedim: Görəsən, mənim kimi bir insanın o həzrəti görməyə ləyaqəti çatırmı? Lakin motorsikletçinin bizimlə fars dilində danışıb yol göstərməsi, əhli sünnənin özlərinə Mehdi adını qoymamaları, hətta Mədinə şiələrinin təqiyyə üzündən çox az bu addan istifadə etmələri məni buna layiq olduğuma ümidvar edirdi. Beləcə, bir saata yaxın həmin qapının arxasında oturduq, sonra durub qaldığımız yerə getdik. Həmin gecənin səhəri ziyarət karvanı Məkkəyə yola düşdü. Və mən bu səfərdə ikinci dəfə həmin qapıya gedə bilmədim. Lakin sonralar Mədinəyə etdiyim ziyarət səfərlərində həmin məhəlləyə getdim. Orada biri-birinə oxşar bir neçə ev var idi, amma onların heç birinin üzərində həmin lövhə yox idi.

Əgər diqqət yetirsəniz, görəcəksiniz ki, İmam Zaman (ə) bizim hətta bir qapını belə döyüb ev sahibinin qarşısında xəcalət çəkməyimizə razı olmamışdı.

Atam-anam fəda olsun, o mehriban şəxsə!

## «Beşinci Görüş»

Mərhum şəhid Seyyid Əbdülkərim Haşimi Nejad ustadı Şeyx Əli Fəridətül-İslam Kaşani haqda deyir:

"Bir gün axşam çağı mərhum müəllimim Qumda icarə etdiyi evin eyvanında üzü həyətə tərəf durub "Ali-Yasin"

ziyarətnaməsi ilə fədası olduğum İmam Zaman (ə)-ı ziyarət və onunla münacat edirdi. Mən də onun yanında manqala od salıb sönməsin deyə küləkləyirdim. Birdən, mərhum müəllimim yerindən tərpənib ağlamağa başladı. Başımı qaldırdım ki, görüm nə olub. Baxıb gördüm ki, İmam Zaman (ə) yerlə göy arasında müəllimimin qarşısında durub ona baxaraq təbəssüm edir. Gecənin qaranlığında o həzrətin üzünün bütün cizgilərini, hətta paltarının hansı rəngdə olduğunu görə bildim. Başımı aşağı salıb qaldırdıqda, yenə o həzrəti həmin qiyafədə gördüm. Beləcə, bir neçə dəfə başımı aşağı salıb yenidən onun müqəddəs surətinə nəzər saldım və hər dəfə onun nurani vücudunu müşahidə edə bildim. Başımı sonuncu dəfə aşağı saldıqda müəllimimin sakitləşdiyini hiss etdim, başımı sonuncu dəfə qaldırdıqda isə artıq onu görə bilmədim. Bununla da başa düşdüm ki, müəllimimin münacatı sona çatdı. Münacat başa çatdıqdan sonra taxtın aşağı tərəfində oturduğumdan o mənim heç nəyi görmədiyimi güman edib hər şeyi məndən gizli saxlamaq istədi. Mən ondan soruşdum: Müəllim! Siz ağanı hansı paltarda gördünüz? O təəccüblə soruşdu: Məgər sən o həzrəti gördünmü? Dedim: Bəli, onun əynində xət-xət paltar, başında isə yaşıl əmmamə var idi. Surəti olduqca gözəl və cəzbedici, üzündə isə bir xal var idi. Bir sözlə Həzrətin bütün nişanə və əlamətlərini bir-bir ona sadaladım. O da dediklərimi təsdiq edib məni daha da təşviq etdi və mənim o həzrəti görməyə layiq olduğuma çox sevindi.”

## *«Altıncı Görüş»*

Məşhəd camaatı hacı şeyx Namazidən məşhur bir əhvalat nəql edirlər ki, onun özü isə hadisəni belə söyləyir:

“Bir vaxtlar Məşhəd əhalisindən bir dəstə camaatı karvanbaşı olaraq Kə`bənin ziyarətinə aparırdım. O vaxtlar isə Nəcəf-Əşrəfin yolu quraqlıq, qumlu səhralardan keçirdi. Asfalt və ya daş döşənmiş yollar isə ümumiyyətlə, yox idi. Yolun istiqamətini isə yalnız bələdçilər təpələrin və bə`zi əlamətlərin vasitəsilə müəyyən edə bilirdi. Bizim isə su və yanacaq

baxımından kifayət qədər ehtiyatımız var idi, hətta maşını növbə ilə iki sürücü idarə edirdi. Müsafirlər də özləri ilə kifayət qədər yol azuqəsi götürmüşdülər. Beləcə, yolumuza davam edirdik. Sürücülərdən biri çox da təqvalı adam deyildi və o gün günortadan sonra sükan arxasında da elə özü oturmuşdu. Günəş batana yaxın ona yaxınlaşıb dedim: Qaş qaralır, gecəni elə burada qalıb səhər arxayın yolumuza davam edərik. Amma o, bizə fikir verməyib yoluna davam etməyə başladı. Hava qaraldıqdan sonra da bir az yoluna davam edib birdən dayandı və bizə tərəf çevrilib dedi: Bundan o tərəfə yol mə`lum deyil. Biz də maşından düşüb elə oradaca gecələməli olduq. Səhər açıldıqda baxıb gördük ki, yol tamamilə itib. Hətta külək qumlarla gəldiyimiz yoldakı maşının təkər izlərini də doldurub yoxa çıxarmışdı.

Vəziyyəti belə gördükdə, müsafirlərdən maşına minmələrini istədim. Sonra üzümü sürücüyə tutub dedim: Hər dörd tərəfə, altmış kilometr şimala, altmış kilometr cənuba, altmış kilometr şərqə, altmış kilometr də qərbə gedib yolu tapmalıyıq. Sürücü də xahişimi qəbul edib maşını işə saldı. O gün quru və otsuz-ələfsiz səhrada işimiz bundan ibarət oldu, amma yolu tapa bilmədik. Yenə axşam orada gecələməli olduq. Amma mən çox pərişan idim. İkinci gün də nə qədər etsək də, yenə də yolu tapa bilmədik. Bu müddət ərzində xeyli yol qət etdiyimizdən yanacaq da qurtarmaq üzrə idi. Günəş qürub edənə yaxın yanacaq tamamilə qurtardı. Su da müsafirlər arasında bölünür və o da qurtarmaq üzrə idi. O gecə Allahın qapasını döyüb xeyli ah-nalə etdik, səhərə yaxın suyumuz qurtardıqda hamımız çox əziyyət çəkir, ölümlə üzbəüz dayanmışdıq. Yenə də üzümü müsafirlərə tutub dedim: Gəlin nəzr edək ki, əgər Allah bizə bu çöllü biyabandan nicat versə, vətənimizə qayıtdıqda hər nəyimiz varsa Allah yolunda ehsan edək. Müsafirlər hamılıqla təklifimi qəbul edib özlərini qəza və qədərə təslim etdilər.

Səhər oldu. Saat doqquz radələri idi ki, hava yavaş-yavaş qızmağa başlayırdı. Susuzluğa taqəti olmayan müsafirlərin bə`ziləri hətta az qalmışdılar ki, susuzluqdan dünyalarını dəyişsinlər. Bunun üçün də mən son dərəcə iztirab içində idim. Yerimdən qalxıb müsafirlərdən bir qədər

aralandım. Külək yaxınlıqda qumu bir yerə toplayıb kiçik bir təpəcik yaratmışdı. Həmin təpənin arxasına keçib uca səslə fəryad etdim: Ya Əba Salihəl Məhdi, ədrikni! Ya Sahibəzzaman, ədrikni! Ya höccətəbnəl Həsənil Əskəri, ədrikni! (Ey Əba-Salihəl Mehdi, dadımıza çat! Ey Sahibəzzaman, dadımıza çat! Ey Höccət ibn Həsən Əsgəri, dadımıza çat!) Başımı aşağı dikib göz yaşları axıtdım ki, birdən ayaq səsləri eşidildi. Başımı qaldırdıqda, ərəb qiyafəsində bir kişi gördüm. O, dəvələrin yüyənlərini əlində tutub keçib getmək istəyirdi. Üzümü tutub dedim: Qardaş, biz yolumuzu azmışıq, xahiş edirəm bizə yol göstər. O, dəvələri oturdub mənə yaxınlaşdı və salam verdi. Mən də salamına cavab verdim. O isə adımı çəkib dedi: Şeyx İsmayıl! Nigaran olma, mən sizə yolu göstərəcəyəm. Sonra məni təpənin o biri tərəfinə aparıb dedi: Bax, bu tərəfdən gedərsiniz, qabağınıza iki dağ çıxacaq. Onların arasından keçib, sağ tərəfə dönüb düz gedəcəksiniz və gün batana yaxın yola çıxacaqsınız. Dedim: Biz yenə də yolu itirəcəyik. Bunu deyib cibimdən Qur`anı çıxarıb dedim: Sizi and verirəm bu Qur`ana, bizi özünüz yola çıxarın. Çox israr etdim və dəfələrlə yolu göstərməsinə and verdim. Nəhayət, razılaşıb dedi: Yaxşı, hamınız minin maşına, sonra üzünü təqvalı sürücüyə tutub dedi: Sükanın arxasında sən otur. Özü isə sürücünün yanında əyləşdi. Mən də onun yanında oturdum. Yə`ni maşının qabağında üç oturacaq var idi, onlardan birində sürücü, ikisində də biz oturduq. Bilmirəm sevindiyimizdən və ya başımız qarışdığından kimsənin yadına düşmürdü ki, maşının yanacağı hələ əvvəlki gecə tamamilə qurtarmışdı. Bir-iki saat yol getdikdən sonra həmin şəxs günorta namazını qılmaq üçün sürücüdən maşını saxlamağı istədi. Hamı maşından düşdü, onun özü də düşdüb yaxınlıqdakı bulaqda dəstəmaz aldı. Biz də həmin bulaqdan su içib dəstəmaz aldıq. Sonra kənara çəkilib namaz qılmağa başladı, mənə də camaatla birgə namaz qılmağı tapşırdı. Namazımı qurtarıb əl-üzümüzü yuduqdan sonra buyurdu: İndi isə maşına minin, çünki xeyli yol getməliyik. Hamı maşına mindi və yola düşdük. Bir qədər gedəndən sonra dediyi kimi, iki dağa rast gəldik və onların arasından ötüb keçdik. Sonra o sürücüyə dedi: İndi isə sağ tərəfə dön və beləcə, düz gedək.

Gün batana yaxın əsas yola çatdıq. O yolda bizimlə fars dilində danışırdı. Hərdən məndən Məşhəd alimləri barədə də soruşur və onlardan bə`ziləri barədə danışmağımı istəyirdi və dinlədikcə deyirdi: Filan şəxsin yaxşı gələcəyi var. Yolda ona dedim: Biz nəzir etmişik ki, əgər Allah-təala bizə nicat versə, vətənimizə qayıtdıqdan sonra bütün var-dövlətimizi Onun yolunda ehsan edək. Buyurdu: Bu nəzirə əməl etmək lazım deyil.

Nəhayət, əsas yola çatdıqda hamı sevincək maşından yerə düşdü və mən müsafirləri bir yerə yığıb dedim: Nə qədər pulunuz varsa, verin bu ərəbə ki, bizim üçün çox zəhmət çəkdi, hətta dəvələrini çöldə buraxıb bizimlə gəldi. Birdən, müsafirlər və mən özüm sanki yuxudan ayıldıq. Müsafirlər bir-birinə dedilər: Doğrudan bu şəxs kimdir? O, dəvələrinin yanına necə qayıdacaq? Onlardan biri dedi: O, çöldə dəvələrini bir adama tapşırmışdımı? Başqa birisi dedi: Axı maşının yanacağı qurtarmışdı, yarım günlük yolu necə gələ bildik? Tələm-tələsik, hamılıqla həmin ərəbin ardınca yürüməyə başladıq. Amma o, artıq getmişdi, ondan nə bir əsər var idi, nə də bir əlamət. O, bizi ayrılıq dərdinə mübtəla etdi. Biz sonradan başa düşdük ki, bir gün İmam Zaman (ə)-ın xidmətində olduq, amma onu tanıya bilmədik.

Bu əhvalatdan belə anlayırıq ki, İmam Mehdi (ə)-ın nişanələrindən biri də “təkvini qanunauyğunluq”ların hamısı o həzrətin əlindədir və hər zaman, harada olur-olsun ona təvəssül edənlərə özünü göstərir və onların dadına çatır. “Amma, əgər yolçu qapını döyməzsə, bu isə artıq ev sahibinin təqsiri deyildir.”

## *«Yeddinci Görüş»*

Seyyid Həsən Əbtəhi deyir: Atam Hacı Seyyid Rza Əbtəhi (Allah ona rəhmət etsin) Məşhəddə “nüdbə” duasının oxunmasına səbəb olan belə bir əhvalat söyləyir ki, onu özünün və bə`zi alimlərin e`timad etdiyi bir isfahanlı tacir danışıbmış:

“Evimin böyük otaqlarından birini “hüseyniyyə” edib əksər hallarda orada rövzəxanlıq edirdim. Bir gün yuxuda gördüm ki, evdən çıxıb bazara tərəf gedirəm. Amma İsfahan alimlərindən bə`ziləri bizim evimizə tərəf gəlirlər. Onlar mənə çatdıqda dedilər: Hara gedirsən? Məgər bilmirsənmi bu gün evində rövzə oxunacaq? Dedim: Xeyr, bu gün bizim evimizdə rövzə oxunmayacaq. Onlar bir daha dedilər: Niyə, bu gün sizin evinizdə rövzə oxunacaq və biz də ora gedirik. Həzrət İmam Zaman (ə) da oradadır. Mən tez evimə tərəf qayıtmaq istədim. Onlar məni səsləyib dedilər: Evə ədəb-ərkanla daxil ol. Mən də evə çatıb ədəb-ərkanla daxil oldum. Gördüm ki, hüseyniyyədə bir neçə alim var və İmam Zaman (ə) da məclisin yuxarı başında əyləşmişdir. İmam Zaman (ə)-ın qiyafəsinə nəzər saldıqda, mənə elə gəldi ki, əvvəllər onu hardasa görmüşəm. Bunun üçün də ona yaxınlaşıb soruşdum: Bağışlayın mən sizi harada görmüşəm? Buyurdu: Bu il Məkkədə, gecə yarısı Məscidül-Həramda. Sən mənim yanıma gəlib paltarlarını yanımda qoyduğun zaman sənə dedim ki, açarlarını paltarlarının altına qoy.

Bəli, Həzrətin dediyi kimi də olub. Bir gün Məkkədə yuxum qaçdığından öz-özümə dedim: Yaxşı olar ki, Məscidül-Hərama gedib gecəni orada ibadətlə keçirim. Məscidül-Hərama daxil olub ətrafa nəzər saldım, e`timad olunan bir şəxs axtarırdım ki, paltarlarımı onun yanında qoyub dəstəmaz almağa gedim. Gördüm ki, küncdə münasib bir şəxs oturub, onun yanına gedib salamlaşdım və paltarlarımı onun yanında qoymaq istədiyimi bildirdim. O da razı oldu. Açarlarımı paltarların üstün qoymaq istədikdə buyurdu: Açarları paltarların altına qoy. Mən də onun dediyi kimi etdim. Açarları paltarlarımın altına qoydum və gedib dəstəmaz aldım. Qayıtdıqdan sonra səhərə qədər onun yanında ibadətlə məşğul oldum. Amma bütün bu müddət ərzində onun fədası olduğum İmam Zaman (ə) olduğuna ehtimal belə vermədim. Amma yuxuda o həzrətdən soruşdum: Sizin zühurunuz nə zaman baş verəcək? Buyurdu: Yaxındır. Şiələrimizə de ki, cümə günləri “nüdbə” duasını oxusunlar.”

Bu görüş əsasən, İmam Zaman (ə) istəyir ki, onun dost və aşiqləri heç olmasa cümə günləri bir-birlərinin kənarında diz

üstə əyləşib, göz yaşları tökərək “haradadır İmam Zaman (ə)?” – desinlər. Desinlər: *“Haradadır Kərbəlada öldürülənin intiqamını alan? Ata-anam sənə fəda, canım sənə sipər olsun! Ey Əhmədin oğlu, səninlə görüşmək üçün bir yol varmı? Nə vaxt sən bizi görəcək və nə vaxt biz səni görəcəyik? Bir halda ki, zəfər bayrağın artıq ucalmışdır. Mümkünmü ki, gəlişinlə gözlərimizin yaşı qurusun və sən insanları öz ətrafına toplayıb yer üzündə haqq-ədaləti bərqərar edəsən?...”*

## *«Səkkizinci Görüş»*

Daha çox Nəcəf-Əşrəfdə məşhur olan bu əhvalatı mərhum Məclisi “Biharül-ənvar” və Hacı Nuri “Nəcmus-Saqib”də yazmışdır. Mərhum Məclisi yazır ki, bunu mən e`tibarlı bildiyim bir şəxsdən eşitmişəm. O, əhvalatı mənə belə söyləyib:

“İndi yaşadığım köhnə ev əvvəllər Həsən Müdəllil adlı xeyirxah və əməlisaleh bir şəxsin olub. O, mö`minlərin əmiri Əli (ə)-ın ziyarətgahına yaxın məhəllədə yaşayırdı. Böyük külfət sahibi olan bu şəxs neçə il idi ki, iflic olduğundan ayağa qalxıb hərəkət edə bilmirdi. Hətta ayaqyoluna belə getmək istədikdə, əhli-əyalı ona köməklik edirdi. Xəstəliyi uzun çəkdiyindən ailəsi yoxsulluqla üzləşmişdi.

Bir dəfə (720-ci hicri qəməri ili) gecə yarısı uşaqları yuxudan oyanıb görürlər ki, evin üstündən qəribə bir işıq saçır. İşıq o qədər qeyri-adi olur ki, insanın gözlərini qamaşdırır. Onlar Hüseyn Müdəllilin yanına gəlib ondan soruşurlar: O işıq nədir elə? Nə olub, nə baş verir? O deyir: Elə indicə fədası olduğum İmam Zaman (ə) mənim yanıma təşrif gətirmişdi. Mənə dedi: Ey Hüseyn! Qalx yerindən! Dedim: Ey mənim ağam. Ey mənim sərvərim! Görürsən ki, mən yerimdən ayağa qalxa bilmirəm, bədənim iflic olub. Həzrət əlimdən tutub ayağa qaldırdı və elə həmin andan özümü tamamilə sağlam hiss etməyə başladım. Sonra mənə dedi: Bu dalan mənim

Əmirəlmö`minin Əli (ə)-ın ziyarətgahına keçib getdiyim yoldur. Hər axşam onun qapısını bağlayın. Dedim: Baş üstə, dediyiniz kimi də edərəm. Sonra İmam Zaman (ə) ayağa qalxıb elə həmin yerdən Əli ibn Əbu Talibin ziyarətinə getdi. Və bu işıq onun ayaq izlərinin nişanələridir.”

Mərhum Hacı Nuri deyir: O dalan indinin özünədək Hüseyn Müdəllil dalanı kimi məşhurdur. Camaat o dalana nəzirlər edir və həzrət Sahibəzzamanın hərəkətilə öz diləklərinə nail olurlar.

## *«Doqquzuncu Görüş»*

Mərhum Hacı Nuri “Nəcmus-Saqib” kitabında böyük arif Seyyid Bəhrul-Ülumun şagirdi Molla Zeynəlabidin Səlmasidən belə nəql edir:

“Bir gün Seyyid Bəhrul-Ülumla birlikdə Samirrada İmam Hadi (ə) və İmam Həsən Əsgəri (ə)-ın ziyarətinə getdik. Biz bir neçə nəfər idik. Ziyarətgaha daxil olub birlikdə camaat namazı qılmaq istədik. İkinci rükətdə təşəhhüddən sonra üçüncü rükətə qalxmaq istərkən ona nəsə oldu və bir qədər dayandıqdan sonra ayağa qalxdı.

Namazdan sonra onun nə üçün dayandığından təəccüblənsək də, kimsə ondan nə üçün namazın ortasında dayandığını soruşmağa cür`ət etmirdi. Evinə qayıtdıqdan sonra süfrə arxasında oturduq. Seyyidlərdən biri mənə işarə etdi ki, Seyyid Bəhrul-Ülumdan namaz əsnasında dayanmasının səbəbini soruşum. Dedim: Sən ona məndən daha yaxınsan. Seyyid Bəhrul-Ülum bizim pıçıltımızı başa düşüb dedi: Biri-birinizlə nə danışırsınız? Onunla aramız açıq olduğundan cür`ətə gəlib dedim: Sizin namazın ikinci rükətindən sonra nə üçün dayandığınızı bilmək istəyir. Buyurdu: Namaz qılarkən gördüm ki, fədası olduğum İmam Zaman (ə) ziyarətgaha daxil olub atasının ziyarətinə gəlir. Onu görcək, özümü itirdim və sizin dediyiniz həmin vaxt onun müqəddəs vücuduna nəzər salırdım, ta o vaxta qədər ki, ziyarətini bitirib ziyarətgahdan xaric oldu.”

## *«Onuncu Görüş»*

“Cəfr”, “rəml” və kimya kimi elmlərə yiyələnən çox təqvalı arif mərhum Seyyid Məhəmməd Müşir (Məşhəddə yaşayırmış) deyir:

“Günlərin bir günü “cəfr” vasitəsilə mənə mə`lum oldu ki, həzrət İmam Zaman (ə) hal-hazırda İmam Rzanın (ə)-ın hərəmindədir. Dərhal, evdən çıxıb İmam Rza (ə)-ın hərəminə getdim. İçəri daxil olduqda başa düşdüm ki, zərihin (qəbir) kənarında oturan üç nəfərdən biri İmam Zaman (ə)-dır. Dayanıb gözlədim ki, ziyarətlərini bitirib ayağa dursunlar və mən də ona yaxınlaşıb qəlbimdən keçənləri bildirim.

Onlar bir qədər bir yerdə oldular və mən fikirləşdim ki, görəsən, onlardan hansı biri İmam Zaman (ə)-dır. Bu arada onlardan biri mənim diqqətimi özünə daha çox cəlb etdi və təxminən, əmin oldum ki, İmam Zaman (ə) onun özüdür. Təsadüfən, yanındakı iki nəfər şəxs ayağa qalxıb İmam Rza (ə)-ın qəbrinin baş tərəfinə getdilər. Diqqətimi cəlb edən və İmam Zaman (ə) olduğunu güman etdiyim həmin şəxs isə eləcə İmam Rza (ə)-ın qəbrinə tərəf əyləşib ziyarətnamə oxuyurdu. Onun halı olduqca yaxşı nəzərə çarpırdı. Elə mənim də halım çox yaxşı idi. Çünki, tək özüm fədası olduğum İmam Zaman (ə)-ı görə bilirdim.

Amma bir neçə dəqiqədən sonra biri tələm-tələsik mənim İmam Zaman (ə) güman etdiyim şəxsə yaxınlaşıb dedi: Həzrət Mehdi (ə) getdi. O da tez yerindən qalxıb onun ardınca getdi. Başa düşdüm ki, mən onlardan birini İmam Zaman (ə) hesab etməkdə yanılmışam. Mən də tələm-tələsik onların ardınca getdim. Amma onlar o qədər də iti getmir və mənim qaçmağıma baxmayaraq tez bir zamanda məndən uzaqlaşıb gözdən itdilər. Bundan sonra bir daha onları görmədim. Mən Seyyid Müşirə dedim: Necə ola bilir ki, siz hər yerə düz gedir, amma belə bir əhəmiyyətli məsələdə, yə`ni İmam Zamanı (ə) üç nəfərin arasından seçməkdə səhvə yol vermisiniz? Buyurdu: Hər yerdə ixtiyar bizim əlimizdə deyildir. Həmin gün

bir dərs olaraq mənə başa saldılar ki, böyük səhvə yol verirəm və fədası olduğum İmam Zaman (ə)-a cəfr, rəml və bu kimi şeylərlə çatmaq olmaz. Bunun üçün nəfsimizi təmizləməli və mə`nən güclənməliyik ki, o həzrəti görməyə ləyaqətimiz çatsın.”

Mərhum Seyyid Müşir başqalarının malik olmadıqları yüksək mə`nəvi xüsusiyyətlərə malik idi. Onun saatı olmadığına baxmayaraq gecə yarısı nə vaxt onun qapısını döyüb saatı soruşsaydıq, vaxtı dəqiqəsinə qədər düz deyərdi.

Günlərin bir günü o və bir neçə tanınmış alim Məşhədin yaxınlığındakı bağa də`vət olunurlar. Mərhum Ağaxan Zəncani namaz qılarkən, birdən, Seyyid Müşir dayandığı yerdən hərəkət edib ona iqtida etməyə başlayır. Namazını qılıb qurtardıqdan sonra ondan nə üçün belə tələsik Molla Ağaxana iqtida etdiyini soruşurlar. O deyir: Gördüm ki, Molla Ağaxan namazda İmam Zaman (ə)-a iqtida edir. Mən də ona qoşularaq İmam Zaman (ə)-a iqtida etdim.

## *«On Birinci Görüş»*

Mərhum Hacı Nuri “Nəcmus-Saqib” və Əllamə Ərdəbili “Kəşful-ğummə”də Hillə əhalisi arasında belə bir əhvalatın nəql olunduğunu qeyd edirlər:

“Hillənin yaxınlığındakı Hirqil kəndinin sakini İsmail ibn Həsən Hirqili belə bir əhvalat nəql edir: Cavan yaşlarımda hər bahar fəslində sağ budumda çiban əmələ gəlir və sonralar çirk edərək xeyli qan axır. Hər il bundan xeyli əziyyət çəkir, heç bir iş görə bilmərdim. Bir il həmin xəstəlikdən xeyli əziyyət çəkməli oldum. Bir gün Hilləyə Seyyid ibn Tavusun yanına getdim və ona əziyyət çəkdiyim xəstəlikdən gileyləndim. Seyyid Tavus Hillənin bütün tanınmış həkimlərini çağırıb həkimlər şurası təşkil etdi. Həkimlər məni müayinə etdikdən sonra dedilər: Çiban İsmayılın elə bir yerində çıxıb ki, əgər cərrahiyə əməliyyatı aparılsa çox güman ki, öləcəkdir. Bunun üçün də biz onu kəsməyə cür`ət etmirik.

Cənab Seyyid Tavus üzünü mənə tutub dedi: Bu yaxınlarda Bağdada getmək fikirim var. Gəl mənimlə get ki, oranın həkimləri də səni müayinə etsinlər. Bəlkə onlar səni müalicə edə bildilər. Mən də onun təklifini qəbul edib bir neçə gündən sonra onunla birlikdə Bağdada yola düşdüm.

Seyyid ibn Tavus Bağdadın da ən tanınmış həkimlərini bir yerə yığıb məni müayinə etdirdi. Onlar da Hillə həkimlərinin dediklərini təsdiq edib üzərimdə cərrahi əməliyyat aparmaqdan imtina etdilər.

Bundan xeyli mə`yus oldum, deməli ömrümün sonunadək bu xəstəlikdən əziyyət çəkməli və ömrüm-günümü qara əskiyə bürüməli idim.

Seyyid ibn Tavus namaz və sair ibadətlərə görə bu qədər mə`yus olduğumu güman edib buyurdu: Allah-təala sənin namazlarını həmin çirkli yaranla da qəbul edəcək. Əgər bu dərdə səbr etsən, Allah-təala sənə böyük mükafat verər. Tövsiyə edirəm mə`sum imamlara və İmam Zaman (ə)-a təvəssül edib, onlardan dərdinə şəfa diləyəsən.

Dedim: Əgər belədirsə, onda Samirraya gedib orada mə`sum imamlara təvəssül etməklə İmam Zaman (ə)-dan dərdimə şəfa verməsini diləyəcəyəm. Beləliklə, səfər tədarükü görüb Samirraya tərəf hərəkət etdim. O şərəfli məkana çatdıqda ilk növbədə həzrət İmam Hadi (ə) və İmam Həsən Əsgəri (ə)-ın ziyarətinə getdim. Sonra isə İmam Zaman (ə)-ın qeybə çəkildiyi yerə gedib gecəni orada qaldım. Orada Allahın dərgahına xeyli ah-nalə edib, İmam Zaman (ə)-dan dadıma çatmağını istədim.

Səhər Dəcləyə[1] tərəf getdim və onun kənarında yaramı yuyub pakladım. Orada ziyarət qüslü aldım və bir qab su götürüb yenidən mə`sum imamların hərəmini ziyarət etmək üçün geri qayıdırdım. Hələ şəhərə çatmamış, birdən, mənə tərəf gələn dörd nəfər atlı gördüm. Samirranın kənarında bir neçə seyyid yaşadığı üçün güman etdim ki, o dörd nəfər şəxs onlardır. Kənara çəkildim ki, ötüb keçsinlər. Amma mənim yanıma çatdıqda gördüm ki, iki cavanın belində qılınc,

---

[1] Dəclə çayı öz başlanğıcını Türkiyədən götürür və Bağdaddan ötüb keçərək Samirranın kənarından axır.

üçüncünün əlində nizə, dördüncünün də bir əlində siyirmə qılınc, o biri əlində isə nizə var. O, orta yaşlı bir cavan idi. Onlar birlikdə mənə yaxınlaşdılar. Həmin iki cavan onun sağ tərəfində, əlində nizə tutan qoca isə yolun ortasında dayanıb əlindəki nizənin başını yerə tərəf tutmuşdu. Qarşımda dayanıb mənə salam verdilər və mən də salamlarının cavabını verdim. Orta yaşlı şəxs məndən soruşdu: Sabah burdan gedəcəksənmi? Dedim: Bəli. Buyurdu: Qabağa gəl, yarana baxım. Öz-özümə dedim: Bunlar təharətə riayət etməyən çöl adamlarıdır, mən isə təzə qüsl almışam və paltarlarım da hələ tam qurumayıb, əlini paltarıma vurmasa yaxşıdır. Elə bu fikirdə idim ki, həmin şəxs əyilib məni özünə tərəf çəkdi və əlini yaramın üzərinə qoyub sıxdı. Mən bir qədər ağrı hiss etdim. Sonra əlini götürüb yenə də yəhərində oturdu.

O qoca dedi: Qurtuldun, ey İsmayıl! Dedim: Sizsiniz qurtuluş tapan. Həm də təəccüb etdim ki, görəsən onlar mənim adımı haradan bilirlər? Qoca yenə dedi: Qurtuldun, canın qurtardı, bu İmam Zamandır! Bunu eşitcək ayağından yapışıb öpdüm və ardınca qaçmağa başladım. O isə üzünü mənə tutub buyurdu: Qayıt. Dedim: Mən heç vaxt səndən ayrılmaram. Yenə də üzünü mənə tutub dedi: Qayıtmağın məsləhətdir. Yenə də israrla dedim: Mən heç vaxt səndən ayrılmaram. Qoca dedi: İsmayıl! Utanmırsan! İmam Zaman (ə) sənə ikinci dəfə qayıt dedi, sən isə ona itaət etmirsən?! Dayandım, onlar bir neçə addım məndən uzaqlaşdılar. Fədası olduğum İmam Zaman (ə) bir daha dayanıb üzünü mənə tutaraq buyurdu: Bağdada çatdığın vaxt abbasi xəlifəsi Müstənsir səni yanana çağırıb hədiyyə verəcək. Sən isə hədiyyəni ondan qəbul etmə və övladım Rzaya[1] de ki, sənin barəndə Əli ibn Əvəzə məktub yazıb mənim tərəfimdən ona çatdırsın ki, sənə hər nə istəsən versin. Yerimdə dayanıb Həzrətin sözlərinə qulaq asırdım. İmam Zaman (ə)-ın sözləri başa çatdıqdan sonra atlılar birgə hərəkət edib gözdən itdilər.

İmam Zaman (ə)-ın ayrılığı məni yandırır, Samirraya qayıda bilmirdim. Elə oradaca oturub göz yaşları axıtmağa başladım. Nəhayət, bir saatdan sonra ayağa qalxıb Samirraya

[1] Seyyid ibn Tavusun öz adı Rza olmuşdur.

tərəf hərəkət etməyə başladım. Məni görən şəhər əhalisindən bə`ziləri halımın nə üçün dəyişildiyini xəbər alırdı. Onlar məndən soruşurdular: Sənə nə olub? Kiminləsə dava etmisən? Mən isə deyirdim: Xeyr, amma siz deyin görüm o atlılar kimlər idi!...

Onlar budumu açıb baxdılar, yaranın hətta yerinin qalmaması mənin özümü də təəccübləndirdi. Göz yaşları axıda-axıda dedim: Yara bəlkə o biri ayağımda idi. O biri ayağımı da açdım, amma onda da yaradan heç bir əsər-əlamət yox idi.

Camaat İmam Zaman (ə)-ın bərəkəti ilə şəfa tapdığımı görüb məni hər tərəfdən əhatə etdilər və əynimdəki köynəyi təbərrük olaraq parça-parça etdilər. Əgər neçə nəfər mənə kömək etməsəydi, camaatın əl-ayağı altında həlak olacaqdım.

Bu xəbər məntəqə nəzarətçisinin də qulağına çatdı. Yanıma gəlib hər şey barədə sorğu-sual etdi. Mən də verdiyi suallara bir-bir cavab verdim. Onun məqsədi əldə etdiyi mə`lumatı Bağdada yazmaq idi. Nəhayət, gecəni elə orada qaldım və səhər açıldıqda dostlarımdan bir neçəsi məni Bağdada yola saldı.

O biri gün Bağdada çatdım. Gördüm ki, şəhər körpüsünün üstündə xeyli adam yığılıb. Onlar şəhərə daxil olmaq istəyən hər bir şəxsin ad və şəxsiyyətini soruşurlar. Sanki, kimisə gözləyirdilər. Məni də görüb adımı soruşdular. Tanıyan kimi üstümə tökülüb təzə geyindiyim paltarı əynimdə parça-parça etdilər. Camaat az qala məni həlak edəcəkdi ki, bu vaxt Seyyid Rəziyəddin ibn Tavus bir neçə nəfərlə köməyimə gəlib məni onların əlindən ala bildi. Sonradan mə`lum oldu ki, məntəqə nəzarətçisi Bağdada məktub göndərib onları mənin gəlişimdən xəbərdar etmişdir. Seyyid Rəziyyəddin ibn Tavus mənə dedi: Şəfa tapan şəxs sənsənmi? Dedim: Bəli. Atdan düşüb diqqətlə ayağıma baxdı. O, əvvəl ayağımdakı yaranı gördüyü üçün indi ondan heç bir əsər-əlamət görmədikdə, heyrətə gələrək ağlamağa başladı. O qədər ağladı ki, axırda özünü saxlaya bilməyib huşunu itirdi. Özünə gəldikdə mənə dedi: Xəlifənin vəziri sən gəlməzdən əvvəl məni yanına çağırıb dedi ki, eşitmişik Samirradan Allahın həzrət Mehdi (ə)-ın

vasitəsilə şəfa verdiyi bir şəxs gəlir və həmin şəxs sənin tanışındır. Tez onun barədə bizə bir xəbər gətir.

Bundan sonra Seyyid ibn Tavus məni Qum əhlindən olan vəzirin yanına aparıb dedi: Bu şəxs mənim yaxın dostlarımdan biridir. Vəzir üzünü mənə tutub dedi: Başına gələnləri nəql et. Mən də başıma gələnləri əvvəldən axıra kimi ona nəql etdim. Vəzir məni müayinə edən həkimləri bir yerə yığıb onlara dedi: Siz bu şəxsi tanıyırsınızmı? Onlar hamısı bir nəfər kimi dedilər: Bəli, onun sağ budunda bir yarası vardır. Vəzir onlardan soruşdu: Onun əlacı nədir? Dedilər: Əlacı yalnız cərrahi əməliyyata bağlıdır. Əgər bu işi görsək, çətin sağ qalar. Vəzir soruşdu: Belə fərz edək ki, bu işi gördünüz və o da sağ qaldı. Bəs, yarasının tam sağalması üçün nə qədər vaxt lazımdır? Dedilər: Ən azı iki ay. Lakin sağaldıqdan sonra yeri ağ qalıb orada tük bitməyəcək. Vəzir onlardan soruşdu: Onun yarasını gördüyünüz gündən nə qədər keçir? Dedilər: Onu on gün bundan qabaq müayinə etmişik. Vəzir dedi: İndi isə yaxın gəlin. Sonra ayağımı açıb onlara göstərdi. Həkimlər ayağımı görcək, heyrətə gəldilər. Məsihi olan həkimlərdən biri dedi: Allaha and olsun ki, bu həzrət Məsihin mö`cüzəsidir!

Nəhayət, bu xəbər xəlifənin də qulağına çatdı. O, vəzirə göstəriş verdi ki, məni onun yanına aparsın. Vəzir də məni xəlifə Müstənsir-billahın yanına apardı. Xəlifə məni görcək, dedi: Başına gələn əhvalatı danış, görək. Mən də başıma gələnləri bir daha əvvəldən axıradək ona nəql etdim. Sonra xəlifə xidmətçisinə əmr etdi ki, mənə min dinarlıq bir kisə versin. Amma mən qəbul etmədim. Xəlifə nədən qorxduğumu soruşduqda, dedim: Mənə şəfa verən şəxsin özündən. Çünki o həzrət mənə əmr etdi ki, Müstənsirdən heç bir şey qəbul etmə. Xəlifə kədərlənib bir söz deyə bilmədi və xeyli göz yaşı axıtdı."

Bu hadisə bir çox kitablarda yazılmışdır. Burada diqqəti bir neçə məsələ cəlb edir:

1. Fədası olduğum İmam Zaman (ə)-a təvəssül olunduğu zaman özü hər kəsin imdadına gəlir.

2. İnsan bütün hallarda İmam Zaman (ə)-a müt`i olub onun əmrlərini yerinə yetirməlidir.

3. İnsan, başqalarının var-dövlətini zülm və haqsızlıqla əldə edən şəxslərə əl uzatmamalı və onlardan heç bir şey qəbul etməməlidir.

4. İmam Zaman (ə) Seyyid ibn Tavusu öz övladı adlandırır.

## «On İkinci Görüş»

İlahi övliyalardan mərhum Hacı Şeyx Təqi Zərgəri barədə hörmətli zövcəsi belə deyir:

“1348-ci hicri qəməri ilinin mübarək Ramazan ayının on altıncı gecəsi idi. Birdən Mirzə Təqi Zərgərinin münacat və ağlamaq səsini eşidib yuxudan oyandım. Otağa çox qəribə ətir iyi yayılmışdı. Ondan nə olduğunu soruşduqda buyurdu: Bilirsən nə olub? Fədası olduğum İmam Zaman (ə) təşrif gətirmişdi. Bir müddət yanımda oturdu, sonra durub getdi. İndi də onun ayrılığına ağlayıram. Dedim: Bəs nə üçün məni oyatmadın? Dedi: Ağa dedi, qoy yatsın. Dedim: Onunla söhbətiniz də oldumu? Dedi: Ağaya bir neçə sual da verdim və o bütün suallarıma cavab verdi. Dedim: Etdiyiniz söhbət barədə mənə də söylə. Dedi: Ağadan məmləkətin vəziyyəti barədə soruşdum. Buyurdu: Tezliklə şah gedəcək və zalım rejim süquta uğrayacaq, zühur da bu yaxında baş verəcəkdir. (Bir halda ki, həmin dövrlərdə kimsə Məhəmməd Rza kimi qüdrətli bir padşahın süquta uğrayacağını fikirindən belə keçirmirdi.) Sonra soruşdum: Bəs ağadan xəstəliyinə şəfa verməsini istəmədinmi? Dedi: Mən tezliklə dünyadan gedəcəyəm və bu iş hələ bir neçə ay kecikmişdir. Sonra mən bir şey soruşmadan sözlərinə davam edərək dedi: Həzrətdən onun hüzuruna necə çatmağın mümkün olduğunu soruşdum. Buyurdu: *Mən hər zaman sizinləyəm, nə vaxt istəsəniz, məni görə bilərsiniz.*

Beləcə, gecəni başa vurduq. Amma o gündən sonra ömrünün sonunadək Mirzə Təqinin halı tamam başqa oldu.”

Gördüyünüz kimi, Həzrət Mehdinin (ə) aşiqləri onunla necə əlaqə saxmışlar və o həzrət onlara bildirmişdir ki, onun müqəddəs vücudu hər zaman onlarla birgədir.

Ey Sahibəzzaman! Can və ruhumuz sənə fəda olsun!

## *«On Üçüncü Görüş»*

Bu məşhur əhvalat Qumda elm və fəzilət sahiblərindən nəql olunur. Qabaqlar Qumdan Cəmkərana gedən yol həzrət Əli ibn Cə`fər (ə)-ın ziyarətgahının yanından keçirdi. Ziyarətgahın ətrafında isə bir neçə ağac olduğundan bir qədər səfalı görünürdü. Bura həm də həzrət İmam Zaman (ə) aşiqlərinin görüş yeri idi. Əhvalat belədir:

“Hər həftənin cümə axşamı səhər vaxtı mərhum Hacı Molla Ağaxanın dostları orada yığışar və birgə Cəmkəran məscidinə gedərdilər. Bir gün cümə axşamı səhər ora gələn ilk şəxs mərhum höccətül-İslam Mirzə Təqi Zərgəri Təbrizi olur. Tanışlarını gözləyən Mirzə Təqi bir anlıq daxilən mə`nəvi hissə qapılır. Birbaşa qərara gəlir ki, Cəmkəran məscidinə tək başına getsin. Bu hal onu o qədər özündən ayırır ki, hətta Cəmkəran məscidinin ziyarətindən Quma qayıdan bir dəstə tələbənin onunla qarşılaşdıqlarını belə hiss etmir.

Dostları sonralar dəyirmanın yanına gəldikdə Mirzə Təqinin həmin gün gəlmədiyini güman edirlər. Cəmkəran məscidindən qayıdan tələbələrdən onu görüb-görmədiklərini soruşduqda hamı bir nəfər kimi deyir: Bəli, gördük. O, bir nəfər seyyidlə Cəmkəran məscidinə tərəf gedirdi və onların başı söhbətə o qədər qarışmışdı ki, hətta bizə diqqət belə yetirmədi.

Dostları da birlikdə Cəmkəran məscidinə tərəf yola düşürlər. Məscidə daxil olduqda baxıb görürlər ki, Mirzə Təqi mehrabla üzbəüz özündən gedib yerə yıxılmışdır. Tez onu ayıldıb soruşurlar: Sənə nə olub, niyə yıxılmısan? Bəs yanındakı seyyid hanı?

Mizə Təqi özünə gəldikdə deyir: Dəyirmana çatdıqda gördüm ki, özümü çox yaxşı hiss edirəm. Qorxdum ki, əgər qalsam, fikrim yayınacaqdır. Bunün üçün də qərara gəldim ki,

Cəmkəran məscidinə təkbaşına gedim. O ki qaldı yanımdakına, mənimlə kimsə olmamışdır. Özüm içimdə İmam Zamanla (ə) söhbət və münacat etmişəm. Mehrabın qarşısına çatdıqda isə bir qəzəl söylədim. Birdən, mehrab tərəfdən səs gəldi və cavabımı verdi. Bundan sonra tab gətirməyib özümdən getdim."

Mə`lumdur ki, bütün yolu o, İmam Zamanla (ə) birgə olmuşdur. Həzrətin səsini eşidib tab gətirməyən kəs onun mübarək üzünü görməyə necə tab gətirə bilər?! Bunun görə də İmamı o an tanımayanlar Mirzə Təqinin bir nəfərlə birgə getdiyini görmüş, lakin, o özü yalnız İmam Zamanla (ə) daxilən münacatdan ləzzət almışdır.

## «On Dördüncü Görüş»

Seyyid Həsən Əbtəhi deyir: Təxminən, 1342-ci hicri şəmsi ilində "fiqh" və "üsul" dərslərimi başa vurub Qur`anın "Barı, hər tayfadan bir dəstə (elm öyrənib, sonra da onu dindaşlarına öyrətmək üçün) hicrət etsin ki, öz diyarlarına qayıtdıqdan sonra (Allahın əzabı ilə) xalqı qorxutsun."[1] – göstərişinə əsasən, Məşhəd camaatına xidmət etmək qərarına gəldim. O vaxt Məşhədin Səadətabad məhəlləsində Bəhailərə mənsub olan ən azı əlli ailə yaşayırdı. Orada Məşhədin və İranın sair şəhərlərinin xeyirxah camaatının köməyi ilə "İmam Zaman (ə)" adına məscid və dini mərasimlər keçirmək üçün bir salon tikildi. Şükür olsun Allaha ki, az müddət ərzində tikili kompleks fədası olduğum İmam Zamana (ə) təqdim olundu. Burada həmin məscidin, içindəki kitabxananın və salonun göstərdiyi fəaliyyət barədə söhbət açmaq istəmirəm. Lakin bunu qeyd etsək kifayətdir ki, on illik fəaliyyətdən sonra bəhailərin məhəlləsi mö`minlərin mərkəzinə çevrildi. Şah rejimində bütün İran ərazisində bir dənə də olsun İmam Zaman (ə) adına küçə və ya prospekt yox idi. Amma biz məscidlə üzbəüz həmin prospektə, yerləşdiyi meydana, məscid və

[1] "Tövbə", 122.

salona İmam Zaman (ə)-ın adını verdik. Və get-gedə həmin məhəllədə bahai qalmadı. Hətta “Pepsi kola” adı ilə buraxılan və Məşhədin hər yerində satılan bəhailərə məxsus qazlı sular belə camaat tərəfindən baykot edilməyə başladı.

Bir gün dost və həmkarlarım “Dini tənqid və müzakirələr” mərkəzində mənə xəbər verdilər ki, bir şikəst bəhai İmam Zaman meydanında “pepsi kola” satır. Biz də gedib ona öz e`tirazımızı bildirdik. Məhəllə dükançılarından biri narazı halda bizə mane oldu. Mən dostlardan işin nə yerdə qadığını soruşdum. Dedilər: Biz hər yolla onu oradan uzaqlaşdırmağa çalışsaq da, amma bir dükançı bizim qarşımızı kəsib bu işə icazə vermədi. Dedim: Eybi yoxdur, İmam Zaman (ə) yolunda nə qədər zəhmət çəksəniz, əvəzini görərsiniz.

Ertəsi gün bir nəfər mənim yanıma gəlib dedi: Dünən gecə filan dükançının ürəyi infarkt keçirmiş və səhər özünə gəlmişdir. Amma hələ də həkim yanına getməmişdir. Buna baxmayaraq sizinlə görüşmək istəyir. Əgər mümkünsə, onun evinə gedin sizi görsün. O saat başa düşdük ki, o, dünən yoldaşlarıma e`tiraz edən və su satan bəhainin tərəfini saxlayan həmin şəxsdir. Dedim: çox yaxşı elə indi gedib onu görərəm. Tez paltarımı geyinib onun mənzilinə getdim. Evə daxil olduqda onun çox ağır vəziyyətdə yatağında uzandığını gördüm. O məni görcək dedi:

Dünən gecə evə qayıdıb yeməyimi yedim, sonra yataq otağıma girdim. Sevinirdim ki, bu gün iflic bir nəfərə kömək edə bilmişəm. Birdən gördüm ki, fədası olduğum İmam Zaman (ə) təşrif gətirib məni (tənbih edərək) əli ilə vurdu və buyurdu: Əgər bu işdən, yə`ni düşmənimə kömək etməkdən peşman olmasan, məhv olacaq və əgər peşman olsan şəfa tapacaqsan. Bunu eşitcək, huşumu itirib yerə yıxıldım və bundan sonra nə baş verdiyini başa düşə bilmədim.

Səhər özümə gəldikdə gördüyüm işdən tövbə etmək qərara gəldim. Bunun üçün də sizdən xahiş etdim ki, bizim evə gəlib tövbə etməyimin şahidi olasınız. Bilirəm ki, şəfa tapacağam və həkimə heç bir ehtiyacım yoxdur.

Bu belə də oldu, həmin əhvalatdan sonra uzun müddət yaşadı və o xəstəlikdən heç bir əziyyət çəkmədi.

## «On Beşinci Görüş»

Hacı seyyid Səttar Məhəmmədi Miyanə şəhərinin tanınmış alimlərindən biri olmuşdur. Çox səxavətli olan bu insanın evinin qapısı həmişə açıq, dost-tanışların, alimlərin yığıncaq yeri idi.

Seyyid Həsən Əbtəhi deyir: Bir dəfə (1360-cı hicri şəmsi) bə`zi qədir bilməz insanlar onu bərk narahat edirlər. O da Məşhədə İmam Rzanın (ə) ziyarətgahına şikayətə gəlir. Məşhəddə olduğu günlərdə bizim evimizdə qalır və bu müddət ərzində çox narahat idi.

Bir gün günorta yeməyindən sonra yatıb yuxuda rəhmətlik atamı gördüm. O, qonaq otağında huşsuz üzü üstə yerə yıxılıb qalmışdı. Sanki, onun qəlbi infarkt keçirmişdi. Mən tez onun çiyinlərini ovxalamağa başldım. Nəhayət, özünə gəlib dedi: Çox qorxmuşdum, elə bildim dünyamı dəyişmişəm.

Yuxudan ayılıb qonaq otağında olan Seyyid Səttarın yanına keçdim, gördüm o da yatıb. Oyandıqdan sonra yuxumu ona danışdım. Tövsiyə etdi ki, atamın adından ehsan verim. Həmin günün axşamı işim olduğundan evdən bayıra çıxdım. Evə qayıtdıqda, qonaq otağına daxil oldum və seyyid Səttarın yuxuda atamı gördüyüm kimi üzü üstə yerə yıxıldığını və ürəyi tutduğundan çətin nəfəs aldığını gördüm. Həmin an yuxuda atamı çiyinlərindən tutub ovxaladığım yadıma düşdü. Onun da çiyinlərini ovxalamağa başladım. Nəhayət, özünə gələndən sonra bir təhər onu yataq otağımla yanbayan otağa aparıb, istirahət üçün yatağa uzatdım. Evim şəhərdən kənarda Qəryətül-Məhdi kəndində olduğundan həmin gecə həkim gətirə bilmədim. Amma bütün gecəni olduqca narahat keçirdim və bir dəqiqə də olsun gözümə yuxu getmədi. Tez-tez yanına gedib halını xəbər alırdım. Səhər açıldıqda onu həkimə aparmaq

istədim, amma o buna razı olmayıb buyurdu: Özümü çox yaxşı hiss edirəm və həkimə heç bir ehtiyacım yoxdur. Sonra xanımım mənə dedi: Dünən namazımı qalıb yerimdə oturmuşdum ki, bir də gördüm onun yatdığı otağın qapısı açıldı və Həzrət Peyğəmbər (s) ora daxil oldu və bizimlə onun otağı arasında açılan qapının üzbəüzündə dayandı. Həzrət Əli Peyğəmbərin (s) sağ, Həzrət Fatimə sol tərəfində, mə`sum imamlar və İmam Zaman (ə) isə onun arxasında dayanmışdılar. Əvvəl elə güman etdim ki, Səttar Məhəmmədi ölüm ayağındadır və o seyyid və təqvalı alim olduğu üçün mə`sumlar başı üzərinə yığılmışlar. Öz-özümə dedim: İndi ki belədir, bəs nə üçün onları mən də görürəm? Axı onları təkcə ölüm ayağında olan görməlidir. Lakin sonra gördüm ki, həzrət Peyğəmbər (s) onu qucaqlayıb məhəbbətini bildirdi və İmam Mehdi də ona ürək-dirək verərək əlini ürəyinin üstünə qoydu və şəfa verib getdi.

Bundan sonra o, əziyyət çəkdiyi xəstəlikdən yaxa qurtardı və sonrakı qalan neçə il ömrünü də sağ-salamat Miyanədə başa vurdu.

## *«On Altıncı Görüş»*

Seyyid Həsən Əbtəhi deyir: Məşhəddə “Sahibəzzəman” məscidində, adətən, şam namazını qılandan sonra minbərə qalxıb Qur`anın əxlaqi, əqidəvi ayələri və bu məzmunda nəql olmuş hədislər barədə söhbət edərdim.

Bir gecə əxlaqi və mə`nəvi mövzuda söz düşmüşdü. Başım söhbətə qarışmış ikən, birdən adını çəkməyə razı olmayan bir şəxs minbərə yaxınlaşıb uca səslə dedi: Ağa hara getdi? Minbərdə oturduğumdan başqalarından çox hamını mən yaxşı görürdüm və əgər kimsə eşiyə çıxmış olsaydı, onu əvvəlcə mən görərdim. Bunun üçün də dedim: Kimsə məsciddən eşiyə çıxmamışdır, siz kimi deyirsiz getdi?

Yanındakı yeri göstərib dedi: Elə indicə burda idi, amma indi yoxdu. Dedim: Deyə bilərsinizmi nə baş verir? Dedi: Mən “İmam Zaman” məscidindən uzaq bir məhəllədə yaşayıram və

bu vaxta qədər bu məscidə gəlməmişdim. Üç ildir ki, əlacı olmayan ağır ürək xəstəliyinə düçar olmuşam. Bu gün işimlə əlaqədar bu məhəlləyə gəlmişdim. Axşam azan səsini eşidib öz-özümə dedim: Yaxşı olar ki, namazın fəzilətli vaxtını buraxmayıb şam və xiftən namazlarını elə bu məsciddə qılım. Sizi də tanıdığım üçün camaat namazında iştirak etmək qərarına gəldim. Lakin xiftən namazının salamını verib qurtardıqdan sonra yanımda əyləşən şəxs mənə hamıdan tez salam verdi. Mən də ona salamının cavabını verdim. Sonra o məndən soruşdu: Ürəyinin ağrısı yaxşı oldu, ya yox? Əvvəl elə bildim, o bizim məhəllənin sakinlərindəndir, bunun üçün də əziyyət çəkdiyim xəstəlikdən xəbərdardır. Amma baxıb gördüm ki, mən onu tanımıram. Qorxdum ki, əgər söhbətinizi kəssəm, sizə qarşı ədəbsizlik etmiş olaram. Bunun üçün də sizə qulaq asa-asa yavaşca ondan burada nə etdiyini soruşdum. O da dedi: Məgər bura "Sahibəzzaman" məscidi deyilmi? Dedim: Niyə, elədir. Dedi: Elə isə bura mənə məxsusdur. Onun nə demək istədiyini başa düşmədim və eləcə oturub sizə qulaq asırdım. Amma birdən onun əziyyət çəkdiyim xəstəlikdən xəbərdar olması və "elə isə bura məxsusdur" – deməsi yadıma düşdü və tez yanıma baxıb gördüm ki, artıq yoxdur. Bundan sonra başa düşdüm ki, o, İmam Zaman (ə) imiş.

Həmin şəxs sonralar bizimlə tanış oldu və şükür Allaha ki, uzun illər keçməsinə baxmayaraq onda əziyyət çəkdiyi ürək ağrısından heç bir əsər-əlamət qalmadı.

## «On Yeddinci Görüş»

Mərhum Şeyx Abbas Qumi (Allah ondan razı olsun) "Məfatihul-cinan"da yazır ki, burada əməlisaleh, təqva sahibi

Əli Bağdadinin əhvalatını nəql etmək yerinə düşərdi. Şeyximiz bu əhvalatı "Cənnətül-mə`va" və "Nəcmus-Saqib" kitablardan nəql edərək deyir: Əgər "Nəcmus-Saqib"də ibrətamiz və doğruluğunda şəkk-şübhə olmayan əhvalatlardan yalnız bu biri nəql olunsaydı, dediklərimizə kifayət edərdi:

"Hacı Əli Bağdadi deyir ki, boynumda səksən tümən imam malı var idi. Bunun üçün də Nəcəf-Əşrəfə gedib həmin puldan iyirmi tümən Şeyx Mürtəzaya (Allah onun məqamını uca etsin), iyirmi tümən Şeyx Məhəmməd Həsən Müctəhid Kazimiyə, iyirmi tümən də Şeyx Məhəmməd Həsən Şüruqiyə verdim. Beləcə, boynumda yalnız iyirmi tümən pul qaldı. Fikirimdə var idi ki, Bağdada qayıtdığım zaman onun da Şeyx Məhəmməd Həsən Kazimi "Ali-Yasin"ə verim və çalışırdım ki, bu işi mümkün qədər tez edim.

Cümə axşamı Kazimeynə İmam Musa ibn Cə`fər (ə) və İmam Məhəmməd Təqi (ə)-ın ziyarətinə getdim və orada Şeyx Məhəmməd Həsən Kazimi "Ali-Yasin"lə görüşdüm. Həmin iyirmi tümənin bir miqdarını ona verib, qalan hissəsini də mallar satıldıqdan sonra qaytaracağıma zəmanət aldım. Elə həmin gün günortadan sonra Bağdada qayıtdım. Şeyx qalmağımı israr etsə də, üzrxahlıq istəyib dedim ki, toxucuların əmək haqlarını verməliyəm. Çünki, bir qayda olaraq onların əmək haqları hər həftənin cümə axşamı verilirdi.

Beləliklə, Bağdada tərəf yola düşdüm. Yolun üçdə birini gedəndən sonra Bağdad tərəfdən gələn yaraşıqlı bir seyyidlə qarşılaşdım. Mənə yaxınlaşaraq hər iki əlini açıb mənimlə qucaqlaşıb görüşmək istədi. Böyük məhəbbətlə "Xoş gördük" – deyib, qucaqlaşıb öpüşdük. Başında yaşıl əmmamə, üzündə isə iri bir xal var idi. Nəhayət, buyurdu: Hara gedirsən, Hacı Əli? Dedim: Kazimeyndə idim, İmamların qəbirlərini ziyarət edib, indi də Bağdada qayıdıram. Buyurdu: Bu gecə, cümə axşamıdır, gəl Kazimeynə qayıdaq. Dedim: Yox bunu edə bilmərəm, imkanım yoxdur! Buyurdu: Bilərsən! Gəl gedək, mən babam Əli ibn Əbu Talibin yanında şəhadət verəcəyəm ki, sən bizim dost və tərəfdarlarımızdansan. Buna Şeyx də şəhadət verəcək və biz iki nəfər sənin imanına şahid duracağıq. Allah-təala da buyurur: "İki şahid gətirin."

Bu söz qəlbimdə saxladığım bir niyyətə işarə idi. Niyyət etmişdim ki, Şeyx Məhəmməd Həsən Kazimini yenidən gördüyüm zaman ondan mənim Əhli-beyt davamçısı olduğuma dair şəhadətnamə yazmasını xahiş edəcəyəm. Həmin şəhadətnaməni isə vəfat etdiyim zaman kəfənimə qoymalarını vəsiyyət etmək istəyirdim.

Dedim: Siz bunu haradan bilirsiniz və necə şəhadət verirsiniz?! Buyurdu: Haqqı öz sahibinə çatdıranı heç tanımamaq olarmı? Dedim: Nə haqq? Buyurdu: Mənim vəkillərimə qaytardığın haqq! Dedim: Sizin vəkilləriniz kimlərdirlər? Buyurdu: Şeyx Məhəmməd Həsən. Dedim: O sizin vəkilinizdirmi? Buyurdu: Bəli, o mənim vəkilimdir. Bunu dedikdə, məndə belə bir sual yarandı: Məni tanımaya-tanımaya adımla çağırır. Bu seyyid görəsən kimdir? Öz-özümə dedim: Bəlkə də o məni tanıyır, amma mən onun kim olduğunu unutmuşam. Yenə də öz-özümə dedim: Yəqin, o, məndəki seyyidlərin payından bir şey istəyir və yaman ürəyimdən keçdi ki, imam payından ona bir şey verə biləydim.

Dedim: Sizin payınızdan bir az məndə var idi, amma onu Şeyx Məhəmməd Həsənə qaytardım və gərək onun icazəsilə başqalarına bir şey verəm. O gülümsəyərək buyurdu: Bəli, bizim payımızın bir hissəsini Nəcəf-Əşrəfdəki vəkillərimizə çatdırmısan. Dedim: Verdiklərim qəbuldurmu? Buyurdu: Bəli. Öz-özümə dedim: Axı bu seyyid kimdir ki, tanınmış alimləri öz vəkili hesab edir. Bu səbəbdən də belə bir qənaətə gəldim ki, elə alimlər seyyidlərin payını almaqda vəkildirlər.

Sonra buyurdu: Qayıt, bir yerdə cəddimin qəbrinin ziyarətinə gedək. Mən də razılaşdım. O, sağ əli ilə mənim sol əlimdən tutaraq Kazimeynə tərəf birgə addımlamağa başladıq. Yol boyu sağ tərəfimizdən göz yaşı tək saf suyu olan çay axırdı. Çayın kənarında isə başımız üzərinə limon, türünc, nar, üzüm və sair ağaclar kölgə salırdı. Onlar müxtəlif mövsümlərə aid olan meyvə ağacları olsalar da, eyni vaxtda bar gətirmişdilər.

Dedim: Bu çay və bu meyvələr nədir, belə? Buyurdu: Kim bizim davamçılarımızdan olub babamın qəbrini ziyarət etsə, bunlar onun ixtiyarında olar. Dedim: Bir sualım var. Buyurdu: Soruş. Dedim: Mərhum Şeyx Əbdürrəzaq müəllimlik edirdi. Bir

dəfə ondan bu sözləri eşitdim: Qəlbində İmam Əliyə (ə) məhəbbəti olmadan ilin bütün günlərini oruc tutub gecələrini ibadətlə keçirən və qırx dəfə həcc ziyarətini yerinə yetirib Səfa və Mərvə arasında dünyasını dəyişən şəxsin əməlləri ona heç bir fayda verməyəcək. Bu hədis doğrudurmu? Buyurdu: Bəli, Allaha and olsun, fayda verməyəcək. Sonra ondan qohumlarımın biri haqda soruşdum. O da Əli (ə)-ın dost və tərəfdarlarındandırmı? Buyurdu: Bəli, o və səninlə əlaqədə olan hər bir şəxs Əli (ə)-ın dost və tərəfdarlarındandır. Dedim: Başqa bir sualım da var. Buyurdu: Soruş. Dedim: İmam Hüseyn (ə)-ın rövzəxanları oxuyurlar ki, Süleyman Ə`məş bir nəfərdən İmam Hüseyn (ə)-ın ziyarəti haqda soruşduqda, o bu işin bid`ət olduğunu bildirib. Süleyman Ə`məş yatıb yuxuda yerlə göy arasında bir kəcavə görür. Ətrafdakılardan onun içində kimin olduğunu soruşur. Ona cavab verirlər ki, kəcavənin içindəkilər Həzrət Fatimə ilə Həzrət Xədicədir. Soruşur: Onlar hara gedirlər. Cavabında deyirlər: Bu gün cümə axşamı olduğundan onlar İmam Hüseyn (ə)-ın ziyarətinə gedirlər. Görür ki, kəcavədən üzərində "Cümə axşamı İmam Hüseyn (ə)-ı ziyarət edən zəvvarlara cəhənnəm odundan verilən amannamə, qiyamətdə verilən amannamə!" – yazılmış vərəqlər tökülür. Bu hədis doğrudurmu? Buyurdu: Bəli, olduğu kimidir. Dedim: Bə`zilərinin "kim cümə axşamı İmam Hüseyn (ə)-ı ziyarət etsə, cəhənnəm əzamından amanda qalar" – deməsi doğrudurmu? Buyurdu: Bəli, and olsun Allaha! Bunu deyib ağladı. Dedim: Bir sualım da var. Buyurdu: Soruş. Dedim: 1269-cu hicri qəməri ilində İmam Əli ibn Musa Rza (ə)-ın ziyarətinə getmişdim. Nişapurun Dərrud kəndində, Nəcəf-Əşrəfin şərq tərəfində yerləşən Şüruqiyyə məntəqəsindən gələn bədəvi bir ərəblə görüşdüm. Onu özümə qonaq etdim və bir dəfə söhbət əsnasında ondan soruşdum. Hərzət Əli ibn Musa Rza (ə)-ın rəhbərliyini necə başa düşürsən? Dedi: Cənnətdir, bu gün on beşinci gündür ki, mən mövlam Əli ibn Musa Rza (ə)-ın malından yeyirəm. Bütün vücudum o həzrətin verdiyi yeməklə cana gəldiyi halda qəbir evində nəkir və münkirin nə haqqı vardır ki, məndən sorğu-sual etsinlər. Bu nə qədər doğrudur? Əli ibn Musa Rza (ə) özü gəlib onu nəkir-münkirin əlindən xilas edəcəkmi? Buyurdu: Bəli, Allaha and

olsun ki, cəddim buna zamindir. Dedim: Yenə başqa bir kiçik sualım da var. Buyurdu: Soruş. Dedim: Ziyarətim həzrət Rza (ə) tərəfindən qəbuldurmu? Buyurdu: İnşaallah qəbul olar. Dedim: Onda bir sual da verim. Buyurdu: Soruş. Dedim: Hacı Əhməd Bəzzazbaşının da ziyarəti qəbuldur, ya yox? (O, Məşhəd yolunda mənimlə yoldaş və xərcliklərdə mənimlə ortaq olmuşdur. Buyurdu: Əməlisaleh bəndənin ziyarəti qəbuldur. Dedim: Bir sualım da var. Buyurdu: Soruş. Dedim: Bağdadlı filan kəs də bizimlə yol yoldaşı idi, onun da ziyarəti qəbuldurmu? Bir söz demədi. Dedim: Sualımı eşitdiniz, ya yox? Onun ziyarəti qəbuldurmu? Yenə bir şey demədi (həmin şəxs Bağdadın varlı tacirlərindən idi və səfər boyu vaxtını bihudə işlər və lağlağı ilə keçirirdi və üstəlik ağır cinayətə də əl atıb anasını qətlə yetirmişdi).

Yolumuza davam edərək gəlib enli və hər iki tərəfdən bağlarla əhatə olunan hissəsinə çatdıq. Artıq Kazimeyn şəhəri qarşıdan görünürdü. Yolun bir hissəsi dövlətin qəsb etdiyi seyyid yetimlərə məxsus idi. Dövlətin onlardan zor gücünə aldığı həmin ərazi yola əlavə olunmuşdu. Bunun üçün də bu işdən xəbərdar olanlar oradan keçməzdilər. Gördüm ki, seyyid həmin əraziyə daxil olur. Dedim: Bu ərazi bir neçə yetim seyyidə məxsusdur və oradan istifadə etmək düzgün deyil. Buyurdu: Bu ərazi cəddim əmirəlmö`minin Əlinin (ə), onun nəslinin və bizim övladlarımızındır. Bizim davamçıların ordan istifadə etməsi isə halaldır.

Həmin məhəlləyə yaxın hacı Mirzə Hadiyə məxsus bir bağ da var idi. O, Bağdadda sakin olan tanınmış İran varlılarından idi. Dedim: Ağa, deyirlər ki, Hacı Mirzə Hadinin ərazisi həzrət Musa ibn Cə`fərə məxsusdur. Bu doğrudan da belədir, ya yox? Buyurdu: Bunlarla sənin nə işin var!

Elə bu vaxt Dəclədən əkin yerlərinə çəkilən arxa çatdıq. Ondan sonra yol iki yerə ayrılırdı və onların hər ikisi Kazimeynə yetişirdi. Onlardan biri soltan, digəri isə seyidlər yolu adlanırdı. Mən ona soltan yolu ilə getməyi təklif etdim. Buyurdu: Yox, öz yolumuzla gedəcəyik. Bir neçə addım irəliləmişdik ki, birdən, özümü İmam Kazim (ə)-ın müqəddəs qəbrinin qapısı qarşısında gördüm. Artıq nə bağ var idi, nə də ki, dükan-bazar. Ziyarətgaha daxil olub şərq tərəfdən “babül-murad” (murad

qapısı) qapısından içəri keçdik. Bura qəbirin ayaq tərəfi idi. O, qapı qarşısında dayanmadan (adətən, hamı ehtiram üçün bir an dayanıb salam verər) ziyarətgaha daxil olub buyurdu: Ziyarət söylə! Dedim: Savadım yoxdur. Buyurdu: Sənin yerinə ziyarətnamə oxuyummu? Dedim: Bəli. Bundan sonra ziyarətnaməni oxumağa başladı:

*"Əədxulu ya Allahu? Əssəlamu ələykə ya Rəsuləllah, Əssəlamu ələykə ya Əmirəlmö`minin!" (İlahi, daxil ola bilərəmmi? Salam olsun sənə ey Allah peyğəmbəri! Salam olsun sənə ey mö`minlərin Əmiri!)* Beləliklə, bütün imamlara, nəhayət, İmam Həsən Əskəri (ə)-a da *"Əssəlamu ələykə ya Əba Muhəmmədinil-Həsənil-Əskəri!" (Salam olsun sənə ey Məhəmmədin atası Həsən Əskəri!)* – salam verib buyurdu: Zamanının imamını tanıyırsanmı? Dedim: Necə tanımıram. Dedi: Elə isə ona salam ver! Dedim: *"Əssəlamu ələykə ya Huccətəllah! Ya sahibəzzaman! Yəbnəl Həsən!" (Salam olsun sənə ey Allahın höccət və dəlili! Salam olsun sənə ey Sahibəzzaman! Salam olsun sənə ey Həsənin oğlu!)*

Sonra birgə ziyarətgaha daxil olduq və ikiəlli qəbiri əhatə edən zərihdən yapışıb onu öpməyə başladıq. Bir qədər sonra buyurdu: Ziyarətnamə oxu. Dedim: Axı, savadım yoxdur. Buyurdu: İstəyirsən mən sənin üçün ziyarətnamə oxuyum? Dedim: Bəli. Buyurdu: Hansı ziyarətnaməni oxuyum? Dedim: Hansı ziyarətnamə daha fəzilətlidir, onu oxu. Buyurdu: "Əminəllah" ziyarətnaməsi daha fəzilətlidir. Sonra başladı həmin ziyarətnaməni oxumağa və onu bu qayda ilə oxudu: *"Əssəlamu ələykuma ya əminəyillahi fi ərzihi və huccətəyhi əla ibadih. Əşhədu ənnəkuma cahəttuma fillahi həqqə cihadihi və əməltuma bikitabihi vəttəbə`tuma sunənə nəbiyyihi (Səlləllahu ələyhi və alihi), hətta dəakuməllahu ila cəvarihi, fə qəbəzukuma iləyhi bixtiyarihi və əlzəmə ə`daakuməl-huccətə, məə ma ləkuma minəl huccəcil-baliğəti əla cəmii xəlqih... (Salam olsun sizə ey Allahın yer üzündəki əmin bəndələri və bəndələr üzərinə tə`yin*

*etdiyi höccət və dəlilləri! Şəhadət verirəm ki, siz ikiniz də haqq yolunda çalışdınız və Allahın kitabına əməl etdiniz və peyğəmbərinin sünnəsinə tabe oldunuz. Və nəhayət, Pərvərdigar sizi özünə tərəf çəkdi və ruhunuzu istədiyi vaxt aldı. Bir halda ki, bütün məxluqata açıq-aşkar höccət və dəlil olduğunuz ikən düşmənlərinizə də bunu qəti e`lan etdi...)*

Ziyarətnamə başa çatdıqda, ziyarətgahdakı şamlar yandırıldı və mən baxıb gördüm ki, burada qeyri-adi başqa bir işıq vardır. O işıq ziyarətgaha günəş tək parlaq nur saçır və həmin nurun müqabilində orada yandırılan şamlar gün işığında yanan çırağa bənzəyir. O, məni o qədər özünə cəzb etmişdi ki, baş verən aşkar əlamətləri tamam unutmuşdum. Sonra qəbirin ayaq tərəfindən baş tərəfinə yə`ni ziyarətgahın qərb tərəfinə gəldik. Seyyid mənə dedi: Cəddim Hüseyn ibn Əli (ə)-ı ziyarət etmək istəyirsənmi? Dedim: Bəli, cümə axşamıdır, ziyarət etsəm yaxşı olar. O, mənim yerimə "varis" (Əli ibn Hüseyn (ə)-a məxsus olan) duasını da oxudu və elə bu vaxt müəzzin[1] də azan verib qurtardı. O, üzünü mənə tutub dedi: Camaata qoşulub camaat namazı qıl. Birlikdə qəbirin başı arxasındakı məscidə keçdik. Artıq, camaat namazı qılınmalı idi. Onun özü imam camaatın bərabərində sağ tərəfdə tək namaz qılmağa başladı. Mən də birinci cərgədə dayanıb namaza qaşuldum.

Namazı qılıb qurtardıqdan sonra daha onu görmədim. Tez məsciddən çıxıb onu axtarmağa başladım. Amma heç bir yerdə gözümə dəymədi. Əlbəttə, çox istəyirdim ki, onu tapıb bir az xərclik verəm, həm də gecəni yanımda qonaq saxlayam. Birdən, sanki qəflət yuxusundan oyandım və öz-özümə dedim: Axı, bu seyyid kim idi? Mən ondan bu qədər mö`cüzə və kəramət gödüm, dediyi hər bir sözə itaət etdim, bir sözü ilə yolumdan geri qayıtdım, bir halda ki, heç vaxt bu işi görməzdim. Onu heç vaxt görmədiyim halda məni adımla çağırması, ürəyimdə arzuladığıma şəhadət verməsi, yol boyu ətrafımızda gördüyüm ayrı-ayrı fəsillərdə bar verən ağacların bir vaxtda bar verməsi, İmam Zaman (ə)-a salam verdiyim

---

[1] Azan deyən.

zaman salamımı alması və s. bütün bunlar nə demək idi? Nəhayət, ümidim hər yerdən kəsildi və ayaqqabı verilən yerə gəlib soruşdum: Mənimlə gələn yoldaşımı görmədinizmi? Dedilər: Elə indicə çölə çıxdı. O sizin dostunuz idi? Dedim: Bəli. Bir sözlə onu tapa bilmədim.

Gecəni qonaq evində qaldım. Səhər açıldıqda, Şeyx Məhəmməd Həsənin yanına getdim və başıma gələnləri ona danışdım. O, əlini ağzına qoyub bununla məni başa salmaq istədi ki, bu əhvalatı kimsəyə danışmayım. Sonra buyurdu: Allah səni həmişə müvəffəq etsin.

Mən daha bu əhvalatı heç kimə danışmadım. Beləcə, bir ay keçdi. Bir gün İmam Kazim (ə)-ın ziyarətgahında bir yaraşıqlı seyyid mənə yaxınlaşıb soruşdu: Nə görmüsən? Dedim: Bir şey görməmişəm. Sualını bir də təkrar etdi və mən də ona sərt cavab verdim ki, bir şey görməmişəm. Elə bu vaxt birdən, o gözdən itib bir daha görünmədi."

Çox güman ki, bu görüş hacı Əli Bağdadinin o əhvalatı camaata nəql etməsi üçün baş vermişdir.

## *«On səkkizinci Görüş»*

Mərhum Hacı Nuri "Nəcmus-Saqib"də daha çox "Ali-Talib" kimi tanınan böyük alim Şeyx Baqir Kaziminin dilindən belə bir əhvalat nəql edir:

"Ali-Rəhim" sülaləsindən olan Şeyx Hüseyn Rəhim adlı mö`min bir şəxs (eləcə də bu əhvalatı Hindlilər məscidinin imamı, son dərəcə təqvalı və hamının e`timadını qazanan Şeyx Taha da) nəql edir ki, Şeyx Hüsey Rəhim son dərəcə mö`min, təqvalı və gözəl təbiətli bir şəxs idi. Ağ ciyər xəstəliyinə tutulduğundan çox əziyyət çəkir, hətta bə`zi hallarda qanlı öskürürdü də.

Amma onun dərdi bununla bitmirdi. Yoxsulluqdan əziyyət çəkən Şeyx Rəhim hətta özünün gündəlik ehtiyaclarını belə ödəyə bilmirdi. Bu səbəbdən də bir çox hallarda Nəcəf-Əşrəfin ətrafında məskunlaşmış ərəblərin yanına gedib

onlardan yemək-içmək alardı. Belə bir ağır şəraitdə qonşuluğunda yaşayan qıza aşiq olmuşdu.

Amma yoxsul və xəstə olduğundan qızı ona vermirdilər. Bu səbəbdən də son dərəcə mə`yus və kədərli idi. Yoxsulluq və xəstəlik ona o qədər güc gəlir ki, belə qərara gəlir Nəcəf-Əşrəfdə ehtiyacların aradan qaldırılması üçün tövsiyə edilmiş əməlləri o da yerinə yetirsin. Həmin əməl isə qırx çərşənbə axşamı Kufə məscidinə gedib, fədası olduğumuz İmam Zamanla (ə) görüşüb istəklərin ondan istənilməsindən ibarət idi.

Nəhayət, o qırx çərşənbə axşamı Kufə məscidinə gedib, İmam Zaman (ə)-dan kömək diləyir.

Mərhum Şeyx Baqir Kazimi deyir:

Şeyx Hüseynin özü deyir ki, mən qırx çərşənbə axşamı Kufə məscidinə getdim və çalışdım ki, bir dəfə də olsun fasilə verməyim. Sonuncu çərşənbə axşamı yenə Kufə məscidinə getdim. Qış fəsli olduğu üçün hava bir qədər soyuq və buludlu idi, az-az yağış da yağırdı.

Sinəmdən qan gəldiyindən və onun qarşısını almaq üçün heç bir vasitəm olmadığından məscidin həyətindəki oturacaqda oturmuşdum. Mənim geyinmək üçün isti paltarım da yox idi. Özümlə yalnız bir az qəhvə gətirib kiçik ocaq qalamışdım ki, bir-iki fincan içib özümə gəlim. Ətrafda kimsə yox idi, bunun üçün də çox darıxırdım. Dərdim-qəmim çoxalır, dünya gözlərim önündə zülmət bir yerə çevrilirdi: İlahi! Qırx çərşənbə axşamıdır ki, bura gəlirəm, bu vaxta qədər nə bir adam görmüşəm, nə birisi mənə özünü göstərib, nə də ki, istəyim yerinə yetmişdir. Axı bu qədər əzab-əziyyət çəkmişəm... Neçə-neçə axşamlar ümid bağlayaraq qorxu-hürkü ilə buraya gəlmişəm, amma bir xəbər yoxdur.

Bu fikirdə bir fincan qəhvə süzüb içmək istəyirdim ki, bir də gördüm bir nəfər ərəb birinci qapıdan məni görüb yanıma gəlməyə başladı. Uzaqdan onu görcək, narahat oldum və öz-özümə dedim ki, yəqin o da məscidin ətrafında yaşayan çöl ərəblərindəndir. Gəlib az olan qəhvəmi də içəcək və məni bu soyuq havada qəhvəsiz qoyacaqdır. Bu səbəbdən daha çox narahat olmağa başladım. Nəhayət, həmin şəxs mənə yaxınlaşıb adımı çəkərək salam verdi və qarşımda əyləşdi.

Adımı haradan bildiyindən təəcübləndim. Çünki o vaxta qədər məni hələ bir dəfə də olsun görməmişdi. Sonra öz-özümə belə fikirləşdim ki, bəlkə də o Nəcəf-Əşrəfin kənarında yaşayır və mən bir gün onların yanına gedib qonaqları olmuşam. Bunun üçün də ondan hansı tayfadan olduğunu soruşdum. Dedi: Mən onların bə`zilərindənəm. Bundan sonra mən ondan həmin məntəqədə yaşayan hər bir tayfa barədə sual verib soruşdum: Siz o qəbilədənsiniz? Dedi: Xeyr, onlardan deyiləm.

Dəqiq cavab vermədiyindən əsəbiləşib məsqara edərək dedim: Sən "Tər-təri" qəbiləsindən deyilsən ki? Amma o əsla narahat olmayıb gülümsəyərək dedi: Eybi yoxdur, ürəyin necə istəyir, məni oralı hesab et. Amma sən de görüm, nə üçün bura gəlmisən? Dedim: Sənin buraya nə üçün gəldiyimi bilməyinin heç bir faydası yoxdur. Dedi: Axı bura nə üçün gəldiyini mənə deməyinin nə zərəri var? Onun gözəl əxlaq və danışıq tərzindən xoşum gəldi və onunla söhbət etdikcə, ona qarşı yaranan məhəbbətim daha da artmağa başladı. Cibimdən tütün çıxarıb çubuğumu doldurub ona təklif etdim. O isə istəməyib dedi: Özün çək, mən istəmirəm.

Sonra bir fincan qəhvə süzüb ona verdim. Fincanı əlimdən alıb dodaqlarına vurub sonra mənə verib dedi: İç bunu.

Qəhvəni alıb içməyə başladım. Nədənsə ona məhəbbətim daha da artırdı. Qəhvəmi içib qurtardıqdan sonra dedim: Ey qardaş! Allah-təala bu gecə səni göndərib ki, mənimlə həmsöhbət olasan. Mənimlə birgə həzrət Müslimin qəbri üstə getmək istəyirsənmi? Dedi: Bəli, gedərəm, amma gərək sən öz şərhi-halını mənə danışasan. Dedim: Yaxşı, danışaram. Mən yoxsul bir adamam, özümü tanıdığım gündən də elə bu vəziyyətdə olmuşam. Neçə ildir ki, sinəmdən qan gəlir və necə müalicə olunacağımı da bilmirəm. Özüm də cavan oğlan və subayam. Qonşuluğumuzda bir qız var ki, onu sevirəm, amma onu mənə vermirlər. Ruhanilər mənə dedilər ki, əgər istəyinə nail olmaq istəyirsənsə, həzrət Sahibəzzaman (ə)-dan kömək dilə və qırx çərşənbə axşamı Kufə məscidinə gedib orada gecələ. Orada Həzrəti görüb ondan öz hacətini dilə. Bu gecə isə qırxıncı gecədir. Bu qədər zəhmət çəksəm də hələ bu günə qədər onu görməmişəm. Bu da mənim istəyim.

Dedi: Sinən bu gündən yaxşılaşacaq və o qızı da sənə verəcəklər. Amma necə yoxsulsansa, ömrünün sonunadək eləcə yoxsul qalacaqsan.

Mən onun nə üçün belə danışdığını başa düşə bilmədim və bir daha ondan soruşdum: Həzrət Müslimin qəbri üstə getmirik? Dedi: Qalx gedək.

Özü qabağa düşüb məscidə tərəf getdi və məscidə çatdıqda mənə dedi: İki rükət məscid namazı (təhiyyət namazı) qılaqmı? Dedim: Niyə ki, qılaq.

O qarşıda durdu, mən də bir qədər arxada durub namaz qılmağa başladım. Həmd surəsini oxuduğu zaman onun qeyri-adi halda qiraət etdiyini və namaz qıldığını hiss etdim. Belə fikirləşdim ki, bəlkə də o, İmam Zaman (ə)-ın özüdür. Namaz qıldığı vaxt onu böyük bir nur əhatə etmişdi və mən heç cür onu görə bilmirdim. Amma namazın sözlərini qiraət etdiyini eşidirdim. Namazı kəsmək istədim, amma həzrətin qorxusundan kəsmədim və bir təhər namazımı qılıb qurtardım. Amma namazdan sonra gördüm ki, onu hər tərəfdən əhatə edən nur yuxarı qalxdı. Mən ağlaya-ağlaya çöldə ona qarşı hörmətsizlik etdiyim üçün üzrxahlıq istəyib dedim: Ağa! Mənə həzrət Müslimin qəbri üstə getməyi və`d vermişdiniz. Elə sözümü başa vurmamış gördüm ki, nur qəbirə tərəf hərəkət etdi. Mən də onun dalınca düşdüm. Gördüm ki, həmin nur həzrət Müslimin günbəzi altında dayandı. Gördüm o da oradadır. Mən isə elə hey göz yaşları axıdırdım. Səhər açıldıqda, nur göylərə ucaldı.

Bu əhvalatdan sonra sinəm tamamilə sağaldı və bir neçə gündən sonra o qızı mənə verdilər. Amma yoxsulluq isə eləcə davam etdi.

## *«On Doqquzuncu Görüş»*

Mərhum Ayətullah Seyyid Hüseyn Qazi Təbrizi Qumun böyük alimlərindən olmuşdur. Əksər alimlər onu təqva və kəramət sahibi kimi tanıyırlar. Onun dəfələrlə fədası olduğumuz İmam Zamanla görüşməsi də kimsədən gizli

deyildir. Qazi Təbrizi ilə yaxından tanış və onun bir çox sirlərini bilən tələbələrindən biri deyir:

Ayətullah Seyyid Hüseyn Qazi deyirdi ki, bir gün neçə nəfərlə birgə İmam Zaman (ə)-ın hüzuruna nail olduq. Həzrət bizə nəzər salıb hamıdan bir-bir sorğu-sual etdi. Mənə çatdıqda, soruşdu: Ürəyiniz nə istəyir sizə verim? Dedim: İstəyirəm bu məclisdə sizə hamıdan yaxın olam. Bundan sonra Həzrət yanında boş yer düzəldib məni orada oturtdu.

## *«İyirminci Görüş»*

Hacı Cavad Rəhimi nəql edir ki, mərhum Qazi deyirmiş: İmam Zaman (ə)-ın hüzurunda olduğum zaman aşiqlərinin onun mədhinə həsr etdiyi şe`rlərdən birini oxudum. Şair orada İmam Zaman (ə)-a qarşı olan eşq və sədaqətini çox gözəl tərzdə izhar etmişdi. Şe`ri oxuduğum zaman şairin ürək sözlərini özümə aid etməklə İmama olan məhəbbətimi bəyan etmək istəyirdim. Amma bir də baxıb gördüm ki, İmam Zaman (ə) artıq yoxdur və başa düşdüm ki, onun bundan xoşu gəlməmişdir.

## *«İyirmi Birinci Görüş»*

Hacı Cavad Rəhimi başqa bir əhvalatda deyir:

Ayətullah Seyyid Hüseyn Qazi deyirdi ki, bir dəfə Həzrət Zəhranın (ə) təvəllüdü gecələrindən birində (20 Cəmadiüs-sani, 1348 hicri qəməri) Cəmkəran məscidində idim. Birdən gördüm ki, göydən yerə, xüsusilə də Cəmkəran məscidinin üzərinə qeyri-adi bir nur enir. (Hacı Cavad Rəhimi deyir:) Həmin gecə təsadüfən, mən də Cəmkəran məscidində idim. O nuru, demək olar, orada olan camaat da gördü. Sonradan həmin gecə haqda Hüseyn Qazinin e`timad etdiyi bir şəxs ona

belə deyir: O gecə Tehranın Məsgərabad adlı məntəqəsində idim ki, ilahi övliyalardan biri məni təyyül-ərz ilə (bir göz qırpımında bir yerdən başqa yerə gediş) Cəmkəran Məscidinə gətirdi və onunla birlikdə orada təşkil olunan əza məclisinə getdik. Məclisin əvvəlindən fədası olduğumuz İmam Zaman (ə) da orada iştirak edirdi. Rövzəxan şe`rləri mərhum Seyyid Əli Rzainin "Ali Taha gülzarı" adlı kitabından oxuyurdu. İmam Zaman (ə) özü də ona qulaq asır və ağlayırdı. Məclis qurtardıqdan sonra İmam Zaman (ə) dua edib məclisdən getdi. Orada iştirak edən bir neçə nəfər İmam Zaman (ə)-a hamıdan yaxın olan şəxsə yaşınlaşaraq onun da dua etməsini israr etdilər. O isə boyun qaçıraraq dedi: Axı İmam Zaman (ə) dua etdi. Nəhayət, çox israr etdikdən sonra o da İmam Zaman (ə)-ın qiyamına dair dua edib məclisi tərk etdi.

Çox güman ki, dua edən şəxs mərhum Qazinin özü olmuş, amma adının çəkilməsini istəməmişdir.

## «İyirmi İkinci Görüş»

Mərhum Ayətullah Mirzə Mehdi İsfahani buyurur:

Nəcəf-Əşrəfdə təhsil aldığım dövrlərdə əxlaq və mə`nəvi saflıq dərsini tanınmış alim və ariflərdən olan seyyid Əhməd Kərbəlayidən alırdım. Nəhayət, onun dediyinə görə mə`nəvi paklıq və ariflərin "qürb" və "fəna fillah" adlandırdıqları məqama çatdım. O, məni başqalarına əl tutmaq və "işraq" fəlsəfəsini tədris etmək üçün müəllim tə`yin etdi. O, məni "qütb" və "fəna fillah"a (ən yüksək mə`nəvi və ruhani məqam) çatmış arif hesab edirdi. Lakin, mən özüm özümü bu məqama layiq bilmədiyim və həqiqi maarifdən bir şey bilmədiyim üçün özümü

aldada bilməzdim. Ürəyim sakitləşmir və özümü kamillik baxımından çox naqis hesab edirdim.

Bir gün belə qərara gəldim ki, çərşənbə gecələri Səhlə məscidinə gedib orada İmam Zaman (ə)-dan bu işdə mənə kömək etməsini diləyim. Bəlkə, Allahın bizim üçün sığınacaq və pənah yeri qərar verdiyi o cənab bizə diqət yetirib düz yolu göstərə. Bu səbəbdən də Səhlə məscidinə gedib o vaxta qədər öyrəndiyimiz və boş-boş mübahisələrə səbəb olan süfilik irfanını və bə`zi fəlsəfi bəhsləri başımızdan çıxarıb əsl ixlas və tövbə ilə İmam Zaman (ə)-ın hüzuruna nail olmaq qərarına gəldim. Elə bu vaxt onun nurani surəti qarşımızda zahir olub böyük məhəbbət göstərdi və əlimizdə müəyyən me`yar olub həmişə onunla hərəkət etməyimiz üçün də buyurdu: *"Biz Əhli-beytin yolundan qeyri yolla həqiqət ardınca düşmək bizi inkar etmək deməkdir."*

Mərhum Mirzə İsfahani bu sözləri İmam Zaman (ə)-dan eşitdikdə, başa düşür ki, həqiqətə çatmaq yalnız və yalnız Qur`an ayələrinin məzmunundan və Əhli-beytin (ə) rəvayətlərindən əldə olunmalıdır. Beləliklə, o, müqəddəs Məşhəd şəhərinə yola düşür və özünü Qur`an və Əhli-beyt (ə) maarifini elm əhlinə tə`lim verməyə həsr edir.

## «İyirmi Üçüncü Görüş»

Seyyid Həsən Əbtəhi deyir:

Bir dəfə çərşənbə günü səhər mərhum Molla Ağacanla birlikdə Nəcəfdəki ziyarətgahlara getmişdik. O bizə belə dedi: İndi ki, namaz qılıb nahar etmişik, gərək Kufədəki həzrət Müslimin, həzrət Haninin, həzrət Zəkəriyyanın ziyarətgahlarına və Kufə, Zeyd və Sə`səə məscidlərinə də gedək. Gecəni isə olduqca bərəkətli olan Səhlə məscidində keçirib Allahın izni ilə İmam Zaman (ə)-ın görüşünə nail olarıq. Sonra öz-özünə yalnız mənim eşidə bildiyim bu sözləri dedi: “Əgər hirslənməsən.” Sonra başını bulaya-bulaya dedi: Axı nə üçün hirslənməliyəm? Yox, hirslənməyəcəyəm. Məgər Allah məni öz başıma buraxmışdırmı?! Bunu dedikdən sonra bu ayəni tilavət

etdi: *"Mən özümü təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs [insana] pis işlər görməyi əmr edər."*[1]

Nəhayət, günorta namazını qılıb nahar etdikdən sonra maşınla Kufəyə getdik və yolda Kumeyl ibn Ziyadın, Məysəm Təmmarın qəbirləri və Hənnanə məscidini ziyarət etdik.

Günorta saat üçdə Kufə məscidinə çatdıq. Məscidin əməllərini yerinə yetirdiyimiz zaman Kərbəlada ayaqqabıçı işləyən və neçə gün Kufə məscidində ibadətə qapılaraq riyazət çəkən bir cavan öz otağından çıxıb bizə qoşuldu. Onu görcək soruşdum: Sən burda nə edirsən? Dedi: Riyazət çəkmək qərarına gəlmişəm və gərək iyirmi bir gün oruc tutub heç kimlə danışmayam. Dedim: Tərki dünyalığın sona çatdımı? Dedi: Xeyr, amma indi otaqda oturub "həmd" surəsini oxuduğum zaman birdən kimsə mənə dedi: Oxuduğun şey bu kişinin (Hacı Molla Ağaxan) yanındadır. Bunun üçün də istəyimi yerinə yetirməyincə ondan əl çəkən deyiləm.

Dedim: İstəyin nədir? Amma o bir şey deməyib susdu. Sonralar mə`lum oldu ki, onun istəyi İmam Zamanla (ə) görüşmək olmuşdur.

Nəhayət, Kufə məscidinin əməllərini birlikdə yerinə yetirib qurtardıq və sonra həzrəti Müslimin qəbrini ziyarət etməyə getdik. Qəbiri ziyarət etdiyimiz zaman o dedi: Bir fatihə də Muxtar Səqəfi üçün oxuyaq. Biz başa düşdük ki, o Muxtar Səqəfinin qəbiridir. Mən ondan soruşdum: Muxtar necə adam olmuşdur? Buyurdu: Qəlbində həzrət Fatimə (ə)-ın düşmənlərinin bə`zilərinə məhəbbət olduğu üçün qiyamət günü onu cəhənnəmə apararlar, amma şəhidlər ağası İmam Hüseyn (ə) göstərdiyi xidmətlərinə görə ona şəfaət edər.

Sonra həzrət Hani ibn Urvənin ziyarətinə getdik. Hacı Molla Ağacan bizi bir kənarda oturdub mərsiyə oxumağa başladı. Beləcə, yaxşı təvəssül edə bildik. Sonra bizə dedi: Bu hal və diqqət bizə həzrəti Haninin həqiqət və mə`nəviyyatından gəlib çatmışdır. Onlara təşəkkür edin.

Ziyarətimizi başa vurub Səhlə məscidinə getdik. Cavan yolda bir an da olsun mərhum Hacı Molla Ağacanı rahat

---

[1] "Yusuf", 53.

buraxmır, ondan elə hey mə`nəvi kamillik barədə soruşurdu. Səhlə məscidinin yaxınlığında Sə`səə və Zeyd adına başqa iki məscid də var idi. Günün batmasına az qaldığı üçün oranın da əməllərini yerinə yetirdik. Amma Molla Ağacan Zeyd məscidində uca səslə qəribə bir dua oxudu və az qaldı özündən gedə.

İndi həmin gündən iyirmi iki ildi ki keçir. Amma onun siması indi də mənim gözlərim özündədir. O, fəryad edərək uca səslə bu duanı oxuyurdu:

*"İlahi, qəd məddə iləykəl-xatiul-muznibu yədəyhi bihusni zənnihi bikə.*

*İlahi, qəd cələsəl-musiu bəynə yədəykə muqirrən ləkə bisui əməlihi və raciyən minkəs-səfhə ən zələlihi.*

*İlahi, qəd rəfəə iləykəz-zalimu kəffəyhi raciyən lima yədəykə, fə la tuxəyyibhu birəhmətikə min fəzlikə.*

*İlahi, qəd cəssəl-aidu iləl-məasi bəynə yədəykə xaifən min yəumin təcəssu fihil-xəlaiqu bəynə yədəykə.*

*İlahi caəkəl-əbdul-xatiu fəziən muşfiqən və rəfəə iləykəl-tərfəhu həzərən raciyən və fazət əbərətuhu mustəğfirən nadimən."* Buna oxşar zikrlərdən dedikcə, gözlərindən sel kimi yaş axırdı. Axırda əllərini göyə qaldırdı və uca səslə ah-nalə edərək dedi:

*"Allahummə, bihəqqi Muhəmməd və Ali Muhəmməd, iğfirli vərhəmni, ya ərhəmər-rahiminə və xəyrəl-ğafirin."* Sonra üzünü torpağa qoyub bədəni lərzə içində Allahın qorxusundan o ki var ağladı:

*"İn kuntu bi`səl əbdu, fə əntə ni`mərrəbb."*

O qədər ağladı ki, qarşısındakı torpaq islandı və görən elə bilərdi ki, hansı əzizini itirmişdir. Elə hey ağlayıb deyirdi:

*"Əzuməz-zənbu min əbdikə, fəlyəhsunil-əfvu min indikə, ya Kərim!"* Bunu deyib yenə də səcdəyə düşdü və *"Əl-əfv"*

(Rəhm et!) deyərək yüz dəfə təkrar etdi. Sonra yenə o qədər ağladı ki, qəşş edib özündən getdi. Biz çox çətinliklə onu özünə gətirə bildik. Sonra onu özümüzlə aparıb şam namazının ilk vaxtında Səhlə məscidinə daxil olduq.

Bura İmam Zaman (ə)-ın evidir. Bura İmam Zaman (ə)-ın dayaq yeridir. Bura İmam Zaman (ə) aşiqlərinin görüş yeridir. Belə bir müqəddəs məkana ilk dəfə gəldiyimiz üçün hər şey bizim üçün son dərəcədə qeyri-adi idi. Özü də bu işi Hacı Molla Ağacan təşkil etmişdi.

Şam və işa namazlarını qılıb Səhlə məscidinin əməllərini yerinə yetirdikdən sonra mə`lum oldu ki, Molla Ağacanın qonağı var imiş. Buna görə də hamı məscidin kənarında yaşayan və məscidi idarə edən mərhum Hacı Şeyx Cavad Səhlavinin məscidin həyətindəki otağına cəm oldu. Bura toplaşanlar Molla Ağacandan xahiş etdilər ki, gecəni oyaq qalıb zikr-mə`nəviyyat məclisini aparsın və onlar da feyz alsınlar. O da bu də`vəti qəbul etdi. Çox qəribə bir gecə idi. Məclisdə bir çox tanınmış şəxsiyyətlər iştirak etdiyi üçün son dərəcə maraqlı və yadda qalımlı idi.

Məclis iştirakçılarından biri Məşhəddən olan tanınmış bir seyyid idi. O, imam Zamanla görüşmək ümidi ilə bura çərşənbə axşamı Kərbəladan Səhlə məscidinə gəlirdi və bu onun sonuncu gecəsi idi. O biri isə bizə sonradan qoşulan bir cavan idi. O, İmam Zamanla (ə) görüşmək ümidi ilə uzun müddət riyazət çəkmiş və belə güman edirdi ki, bununla öz məqsədinə çatacaqdır. Başqa birisi isə o qədər pak insan idi ki, İmam Zamanla (ə) görüşəcəyinə əsla şübhə etmirdi.

Məclisdə şeyx Cavad Səhlavi özü də ev sahibi kimi iştirak edirdi. O özü İmam Zamanla (ə) görüş üçün o qədər səbirsiz idi və onda mə`nəvi vüsal hissi elə yüksək baş qaldırmışdı ki, bütün məclis əhlini həyəcana gətirmişdi. Hacı molla Ağacanın eşq və yanğısı isə məclisə tamam başqa rövnəq vermişdi. Mən isə o vaxtlar yeniyetmə bir cavan idim və bir küncdə oturub baş verənlərə tamaşa edirdim. Hamı İmamın ayrılığından göz yaşı axıdırdı. “Ali-Yasin” və “Təvəssül” duaları oxundu, bir sözlə, nəzərdə tutulan mərasim səhərə kimi davam etdirildi. Sübh namazını məscidin ortasındakı İmam Zaman (ə) məqamında qıldıq. Lakin, sonuncu çərşənbəsi sona çatan

dostumuz çox narahat idi. Çünki, İmam Zaman eşqilə iki aydan daha çox vətənindən və ev-eşiyindən uzaq düşmüş və qürbətdə idi. Mən hamıdan çox onunla ünsiyyətdə idim. Çünki, bilirdim ki, heç vaxt İmam Zaman (ə) bu zəhməti nəticəsiz qoymaz, hətta bu müddət ərzində ondan İmam Zaman (ə)-ın hüzuruna nail olub-olmadığını da soruşdum. Dedi: Bu iş bir neçə dəfə baş versə də onu tanımamışam. Amma bütün bu məşəqqətlər onun hüzuruna çatdığım zaman onu tanımağım üçündür. Bax bu səbəbdən də mən bütün gecəni onun yanında keçirmək istəyirdim.

Sübh namazını İmam Zaman (ə)-ın məqamında namaz qıldığımız zaman gördüm ki, o, əli bağlı namaz qılan bir sünni məzhəb şəxlə mübahisə edir. Ondan nə üçün əsəbləşdiyini soruşduqda dedi: Axı nə üçün o ağamın məqamında İslamın göstərişinə xilaf olaraq namaz qılır? Sonra dedi: Az qala dəli olam! Qırx cümə axşamıdır ki, vətənimdən və evimdən-eşiyimdən uzaq düşmüşəm. Amma heç bir faydası yoxdur. Bu iş mümkündürmü?! Siz mənim yerimdə olsaydınız, nə edərdiniz? Dedim: Sənin yerində deyiləm, amma cəmi bir gecə gözlədim daha taqətim çatmır. Haqqın var... Bundan sonra o yenə başını divara söykəyib zar-zar ağlamağa başladı. Onu bu vəziyyətdə görüb götürüb Şeyx Cavad Səhlavinin otağında toplananların yanına apardım.

Hacı molla Ağacan arxası divara tərəf oturub, sanki, kimisə gözləyirdi. Biz də otağın bir küncündə oturduq.

Bu vaxt otağa ruhani paltarı geyinmiş arıq qarabuğdayı tələbə daxil oldu. Gördüm ki, onun arxasında əbasını sol çiyninə atmış bir seyyid də vardır. O, bayırda dayanıb otağın içinə baxırdı.

Sonradan hindli olduğu mə`lum olan həmin tələbə otağa daxil olduqdan sonra Hacı molla Ağacan acıqla ona dedi: Nə üçün otağa daxil oldun?! O isə yarı fars, yarı hind ləhcəsində bildirdi ki İmam Zamanla (ə) görüşmək istəyir. Sonra dedi: Gecəni sübhədək məsciddə oyaq qalmışam indi isə gəldim ki, bir az istirahət edəm.

Hacı molla Ağacan ona dedi: Yalan deyirsən! Sən İmam Zaman (ə)-ı sevmirsən, heç onu tanımırsan da. O daha əsəbi halda onu dediklərini təkzib edərək bunu bir neçə dəfə təkrar

etdi. Bu isə bizi çox təəccübləndirdi. Çünki, hələ o vaxta qədər Molla Ağacandan kimsəyə qarşı belə sərt davranış görməmişdik. Hətta bə`ziləri ona e`tiraz edərək dedilər: Nə üçün o biçarə tələbəni bu qədər təhqir etdin?

Bundan sonra Hacı Molla Ağacan yerindən qalxıb gözlənilmədən həmin tələbəni zorla otaqdan bayıra çıxartdı. Bu müddət ərzində bayırda dayanan seyyid elə hey içəri baxır və hərdən gülümsəyirdi də. Sanki, o baş verənlərin nə ilə nəticələnəcəyini və əgər dava olarsa otağa daxil olmağı gözləyirdi.

Belə güman etdim ki, seyyid hindli şeyxin dostudur. Çünki, onun getməsi ilə o da oranı tərk edib getdi. Hacı Molla Ağacana dedim: Siz o hindli şeyxə nə dedinizsə, onun çöldə gözləyən seyyid dostu da eşitdi. Hələ yaxşı oldu o dostunu müdafiə etmədi. Hacı molla Ağacan təəccüblə soruşdu: Məgər onun yoldaşı da var idimi?

Dedim: Bəli, onu bayırda çox görkəmli və alicənab bir seyyid gözləyir və mübahisənizə tamaşa edirdi. Məclis iştirakçılarından bir neçəsi dedi ki, biz də onu gördük. Amma Molla Ağacan və ondan başqa iki-üç nəfər şəxs o seyyidi görməmişdi. Amma heç də belə deyildi ki, kimsə onu görməmiş olsun! Çünki, o seyyid qapının lap kandarında dayanmışdı. Qırx cümə axşamı Səhlə məscidinə gələn seyyid isə elə hey ağlayırdı. Ondan soruşdum: Sən də o seyyidi görmədin? Dedi: Gördüm, amma elə fikirləşirəm ki, o İmam Zaman (ə) idi. Hacı molla Ağacan dedi: Yaxşı fikirləşirsən. Çünki, İmam Zaman (ə) mənə bu vaxt bizimlə görüşə gələcəyinə və`də vermişdi.

Mən qırx cümə axşamı Səhlə məscidinə gələn cavan oğlandan soruşdum: Siz haradan bilirsiniz ki, o İmam Zaman (ə) idi? Dedi: Əvvəl onun İmam Zaman (ə) olduğunu sanki mənə ilham oldu, sonra yerimdən qalxmaq istədim, amma buna taqətim olmadı, hətta ağzımı açıb salam belə verə bilmədim. Sonradan Kufə məscidində bizə qoşulan cavan dedi ki, o vaxt onu mən də gördüm. Bunu eşitcək, fürsət olmadığı üçün hamılıqla o iki nəfəri axtarmağa başladıq. Səhlə məscidi çox xəlvət idi, hətta deyə bilərəm ki, orada bizdən başqa yalnız bir neçə adam var idi. Məscidin ətrafı da boş çöllük idi və iki kilometirlik məsafə rahat görünürdü. Birdən, həmin hindli

cavanı gördüm və ondan onunla gələn seyyid dostunun hara getdiyini soruşdum. O isə dedi: Mənim heç bir yoldaşım yox idi. O, bizim tələm-tələsik ona tərəf gəldiyimizi görüb uzaqlaşmağa başladı. Nə qədər baxdıqsa, ondan başqa kimsəni görmədik və əgər kimsə bizim yerimizə olsaydı, sözsüz ki, deyəcəkdi həmin şəxs ya "təyyül-ərz" etmiş, ya da haradasa gizlənmişdir. Bəli, bundan başqa bir şey fikirləşə bilməzdik. Sonradan qapıları açıq olan otaqlara bir-bir baxmağa başladıq və belə bir qənaətə gəldik ki, həmin şəxs təyyül-ərz etmişdir.

Hacı Molla Ağacan ilə qırx cümə axşamı Səhlə məscidinə gələn cavan əmin idilər ki, o, İmam Zaman (ə) idi. Qalanları isə onu ya görməmiş, ya da Şeyxin və hacı Molla Ağacanın hindli ilə rəftarı onların başlarını qarışdırmış və bu səbəbdən də o şəxsin İmam Zaman (ə) olduğuna diqqət yetirməmişdilər. Molla Ağacan isə o qədər narahat idi ki, onunla danışmaq belə olmurdu.

Bizim bu məclismiz narahatçılıqla başa çatdı və molla Ağacanın rəftarı isə onu yaxşı tanımayanların heç xoşuna gəlmədi. Amma onun necə insan olduğu və necə gözəl əxlaq sahibi olduğu bizə bəlli idi və bildik ki, bu işin bir fəlsəfəsi vardır. Bunun üçün də bir şey soruşmayıb səbr etmək qərarına gəldik.

Nəcəf-Əşrəfə qayıtdığımız zaman yol kənarı müsafirxanaların birində oturmalı olduq. O, birdən dərindən ah çəkərək dedi: Gördünüz necə zərər çəkdim? Axı, mənə demişdilər ki, hirslənməyim. Dedik: Nə oldu ki, hirsləndiniz? Bu rəftarınız həm dostlarınızın sizə e`tiraz etmələrinə, həm də ağamız İmam Zaman (ə)-ın görüşündən məhrum olmağınıza səbəb oldu. Buyurdu: Elə bir şey baş verdi ki, dərk etmək olsa da, vəsf etmək olmur. Axı, o vaxt intizarda qaldığımı necə vəsf edə bilərəm? Axı, o hindlinin otağa girərkən fəzanın necə zülmətə qərq olduğunu və öz gəlişi ilə İmam Zaman (ə)-ın daxil olmağa mane olduğunu necə vəsf edim? Mən İmam Zaman (ə)-ı görməsəm də, başa düşdüm ki, onun gəlişinə mane olan həmin hindlidir. Bu səbəbdən də İmam Zaman (ə)-ın otağa daxil olması üçün onun otağı tərk etməsini israr etdim. Amma sonradan mə`lum oldu ki, o gəlib eşikdə gözləyir, biz isə içəridə biri-birimizlə çəkişirik.

Bütün bunlardan sonra Hacı Molla Ağacandan soruşdum: İmam Zaman (ə)-ın gələcəyini bildiyiniz və onu gözlədiyiniz bir halda onu görə bilməməyinizin fəlsəfəsi nə imiş? Buyurdu: Əgər mən İmam Zaman (ə)-ı qapının kandarında görsəydim və hindli onun daxil olmasına mane olsaydı, onunla daha sərt rəftar edərdim. O, hələ bu qədər yox, bəlkə də bundan artıq cəzalandırılmalıydı. Sonra sözlərinə əlavə edərək buyurdu: Belə fikirləşməyin ki, o hindlinin cəzası bu qədər idi, xeyr, hətta onun haqqı ölüm idi. Sözsüz ki, siz mənim bu sözümdən narahat ola bilərsiniz, çünki fəlsəfəsini bilmirsiniz. Elə bundan artığını da bilməyiniz məsləhət deyil. Dedim: Bəs nə üçün İmam Zaman (ə) bir tərəfdən gələcəyinə və`d verir, sonra da bu hindli araya girir və o getdikdən sonra belə içəri gəlmir? Dedi: Həzrət Musa (ə) Tur dağından qayıtdığı zaman bütün tərəfdarlarının buzova pərəstiş etdiklərini görür və üzünü Allahın dərgahına tutub deyir:

*"Bu [baş verən işlər] Sənin sınağından başqa bir şey deyildir. Sən onunla istədiyini [haqq yoldan] azdırır, istədiyini doğru yola yönəldirsən."*[1] İndi də məsləhət bu idi ki, onu yalnız ləyaqəti çatanlar görə bilsinlər. Yolları bizdən ayrı olanlar və bizə təsadüfi qoşulanlar isə getdilər və bizim əxlaqımızı bəyənmədilər. Qırx çərşənbə Səhlə məscidinə gələn bu seyyid də o vaxt yerindən hərəkət edə bilməsə də, İmam Zamanla (ə) görüşə bildi və həmin an onu tanıyaraq istəyinə nail oldu. Əgər İmam Zaman (ə) otağa daxil olsaydı, yenə də həmin şey baş verəcəkdi və sən yenə də onu tanıyacaqdın. Burada yalnız bir iş baş verdi ki, gözlərim onun mübarək camalının nuru ilə işıqlanmadı. Bu isə məni sınağa çəkmək üçün idi. Bununla mənim nə qədər müt`i olduğumu yoxlamaq istəyirdilər. Axı, mənə deyilmişdi ki, hirslənməyim. Amma haradan biləydim ki, maneələri aradan qaldırmaq üçün də əsəbləşməməliyəm. Mən hər şeydən qafil oldum. İnsan Allaha itaətdə özünü o qədər islah edib əxlaqını münəzzəm etməlidir ki, gördüyü işləri İslam göstərişlərinə əsasən, səhmana düşüb əsl müsəlmanı tərənnüm etsin.

---

[1] "Ə`raf", 155.

Bir sözlə, biz o gün başa düşmədik ki, nə üçün hindli cavan otağı elə zülmətə qərq etdi. Lakin, növbəti il təhsil almaq üçün Nəcəf-Əşrəfə getdim və həmin şeyxi orada gördüm. Yavaş-yavaş onunla tanış oldum. Bir gün o mənə dedi: Əvvəllər sünni məzhəbli vəhhabi idim, tələbələr arasında özümü şiə kimi qələmə verib onların arasında casusluq edirdim. Lakin, artıq şiə məzhəbinin həqiqətindən agah olmuşam və əvvəlki əqidə və əməllərimə görə tövbə etmişəm. Amma bir neçə aydan sonra yenə mə`lum oldu ki, o öz əqidə və gördüyü işlərdən əl çəkməmişdir. Nəhayət, o birdəfəlik İraq ərazisindən çıxarıldı. Deməli, o həm məni aldatmış, həm də özünü başqalarının nəzərində tövbəkar kimi göstərmək istəmişdir.

Beləliklə, bir daha əmin olduq ki, Seyyid Ağacan heç də mə`nasız söz deməmiş və gördüyü iş də tamamilə düzgün olmuşdur.

## *«İyirmi Dördüncü Görüş»*

Fəridətül-İslam təxəllüslü mərhum Şeyx Əli Kaşani deyir:

Günlərin bir günü axşam çağı "dağlıq" adlı məntəqədə mərhum Ayətullah Kuhistaninin qəbul otağında şam namazını qılmaqla məşğul idim. Bir də gördüm ki, fədası olduğum İmam Zaman (ə) otağa daxil olub arxası qibləyə və üzü mənə tərəf dayandı. Təşəhhüddə oturaq halda öz-özümə fikirləşdim ki, əgər namazımı kəsib onunla salamlaşsam, bəlkə bu ona xoş gəlməz və mənimlə təmasda olmadan çıxıb gedər. Elə isə qoy namazımı kəsməyib bir qədər səbr edim. Əgər mənimlə danışmaq istəsə, namazdan sonra da danışar. Namazımı qılıb qurtardım, lakin namaz əsnasında Həzrət namazın bə`zi sözlərini mənimlə birgə təkrar edirdi. Xüsusilə də sonuncu səcdədə daha yüksək əhval-ruhiyyə ilə oxuduğum bu zikri – *«Ya mən ləhud-dunya vəl-axirə, irhəm mən ləysə ləhud-dunya vəl axirə!» (Ey o kəs ki, dünya da, axirrət də ona məxsusdur, rəhm et o kəsə ki, nə dünya və nə axirət onundur!)* İmam

Zaman (ə) da daha yüksək əhval-ruhiyyə ilə dəfələrlə onu təkrar etdi. Amma elə ki, namazın salamını deməyə başladım, İmam Zaman (ə) dərhal getdi.

## *«İyirmi Beşinci Görüş»*

Seyyid Həsən Əbtəhi deyir ki, cavan vaxtlarımda bir dəfə mərhum Hacı Molla Ağacandan soruşdum: Nə üçün İmam Zaman (ə)-ı görə bilmirəm? Buyurdu: Çünki, yaşın azdır. Dedim: Əgər ləyaqətdən söz getsə, onda heç kim belə onunla görüşməyə layiq deyil. Əgər o özü lütf etsə, hətta az yaşlı uşaq olsaq belə bu səadəti bizlərə nəsib edər.

Bu sözüm ona çox xoş gəldi və dedi: Düz deyirsən. Siz sabah axşam İmam Rza (ə)-ın ziyarətgahında axşam namazı vaxtı hazır olun ki, intizarın sona çatacaq.

Həmin gecə ziyarətgahda oldum. Əhval-ruhiyyəm də çox yaxşı idi və mən İmam Zaman (ə)-ın görüşünə nail olacağıma ümid bəsləyirdim. Amma buna müvəffəq ola bilmədim və bundan olduqca təsirlənərək şam yeməyi üçün evə gəldim. Evin yolu dar və qaranlıq küçələrdən keçirdi. Birdən, uzaqdan bədənindəki bütün paltarları, hətta başında yaşıl əmmaməli bir alicənab seyyidin gəldiyini gördüm. Mənə yaxınlaşıb salam verdi, mən də salamının cavabını verdim, amma belə bir qeyri-adi görüşdən dərin fikirə daldım. Fikirləşdim ki, görəsən bu şəxs kim idi? Bu fikirlə müsafirxanaya çatdım. Molla Ağacan məni görcək, bir söz demədən bu misra ilə başlanan bir qəzəli söyləməyə başladı:

*Sirlər xəzinəsinin gövhəri o idi ki, keçdi...*

Onu dinlədikdən sonra halım tamamilə dəyişildi və başa düşdüm ki, yolda qarşılaşdığım həmin alicənab şəxs İmam Zaman (ə) imiş.

## *«İyirmi Altıncı Görüş»*

Seyyid Həsən Əbtəhi deyir ki, ilahi övliyalardan biri mənə istəklərin yerinə yetməsi üçün «Səlamullahil-kamilut-tamm» duasını oxumağı tövsiyə etmişdi. Mənim isə o vaxtlar fədası olduğumuz İmam Zamanla (ə) görüşməkdən artıq heç bir istəyim yox idi. Bunun üçün də gecələr, xüsusilə də gecə yarısından sonra açıq səma altında bu duanı bütün qaydaları ilə oxuyurdum. Duanın sonundakı *«Ya Mövlayə! Ya Sahibəzzəman! Yəbnə Rəsulillah! Hacəti kəza və kəza.» (Ey sərvərim! Ey Sahiəzzəman! Ey Peyğəmbər övladı!)* ibarətində qeyd olunan "kəza və kəza" kəlmələrinin yerinə istək və hacətimi deyirdim: *«Hacəti ru`yətukə və suhbətukə.» (İstəyim səni görmək, səninlə söhbət etməkdir.)* Duanın sonunda bir daha hacətin dilənməsi göstərilir ki, mən yenə həmin bu hacəti istəyirdim.

Bir gün cümə axşamı gecə saat 12 radələrində Məşhəddə Gövhərşad məscidinin həyətində, açıq səma altında bu duanı oxumaqla məşğul idim. Deyə bilərəm ki, həmin vaxt məsciddə məndən savay kimsə yox idi və məscidin həyətini yalnız bir neçə çıraq işıqlandırırdı. O vaxtlar mən İmama "istiğasə" (köməyə çağırma) namazından sonra həmin ziyarəti oxuyurdum. Duadakı *«Ya mövlayə! Ya Sahibəzzəman, yəbnə Rəsulillah! Hacəti ru`yətukə və suhbətukə.» "Ey sərvərim! Ey Sahibəzzaman! Ey Peyğəmbər övladı! İstəyim səni görmək və səninlə söhbət etməkdir."* – ibarəsinə çatdıqda, birdən gördüm ki, günbəzin kənarındakı "qiblə" qapısından məscidə elm əhlinə bənzər nurani və yaraşıqlı bir seyyid daxil oldu. Onu görcək, fədası olduğumuz İmam Zaman (ə) olduğuna yəqin etdim. Bunun üçün də tam yəqinliklə ziyarətimi kəsib ona tərəf yaxınlaşdım. O da sanki, məni görmürmüş kimi, başını aşağı salıb ziyarətgaha tərəf gedirdi. Heybət və alicənablığı mənə onunla kəlmə kəsməyə mane olurdu. Mən də onun ardınca ziyarətgaha daxil oldum və öz-özümə dedim: Hardan bilim ki, o fədası olduğumuz İmam Zaman (ə)-ın özüdür? Nəhayət, qarşısında dayanıb ziyarətnaməni oxumağa başladım. Lakin, bir anlıq fikrim ondan yayındı və gördüm ki, artıq o yoxdur.

## «İyirmi Yeddinci Görüş»

Ayətullah Şeyx Məhəmməd Əli Əraki Qum elmi hövzəsinin tanınmış alimlərindən biri olmuşdur. Kimsə onun yüksək elmi məqam və təqvaya malik olduğuna şübhə etmir. "Alimlərin xəzinəsi" kitabının müəllifi onun ikinci cildinin 64-cü səhifəsində yazır: "Bu əhvalat müəllifə 1393-cü ilin Rəbius-sani ayının 26-da çərşənbə axşamı nəql olunub.

Hacı Ərakidə ərdə olan qızım Məkkəyə həcc ziyarətinə getmək istəyirdi, amma oradakı izdihamdan təvafını rahat və kamil yerinə yetirə bilməyəcəyindən narahat idi. Bir gün ona dedim: Əgər ziyarət zamanı *«Ya Hafizu! Ya Əlim!» (Ey [hər şeyi] qoruyan! Ey [ hər şeyi] bilən!)* – zikrini ardıcıl olaraq təkrar etsən, Allah-təala sənə kömək edər. Nəhayət, həcc ziyarətinə gedib qayıdandan sonra orada başına gələni mənə nəql etdi: Ziyarət zamanı mənə tövsiyə etdiyiniz zikri ardıcıl olaraq təkrar etməklə, şükür Allaha, ziyarəti çox rahat yerinə yetirdim. Ziyarət günlərinin birində sudanlılar böyük bir izdiham yaratdılar. Təvaf etməzdən əvvəl öz-özümə fikirləşdim ki, görəsən bu qədər insanın içində necə təvaf edəcəyəm? Heyf ki, burada məni qoruya biləcək məhrəm olan bir şəxs yoxdur. Birdən qulağıma belə bir səs gəldi: İmam Zamandan kömək istə ki, rahat təvaf edə biləsən. Dedim: İmam Zaman (ə) haradadır? Cavab verdi: Qarşında gedən həmin bu şəxsdir.

Baxıb gördüm ki, qarşımda alicənab bir şəxs gedir və təxminən, özündən kənara bir metr ətrafı tamamilə boşdur. Həmin səs bir daha mənə dedi: O dairəyə daxil ol və həmin şəxsin ardınca təvaf et! Mən də dərhal həmin dairəyə daxil olub İmam Zaman (ə)-ın ardınca hərəkət etməyə başladım. Mən ona o qədər yaxın idim ki, əlimi uzatsaydım ona toxuna bilərdim!

Sakitcə əlimi onun əbasına sürtüb sonra üzümə çəkdim. Elə hey öz-özümə deyirdim: Qurbanın olum ey İmam! Canım sənə fəda olsun ey İmam! O qədər sevinirdim ki, hətta ona salam verməyi belə unutdum. Bir sözlə, kimsə mənə

toxunmadan yeddi dəfə Kə`bəni təvaf etdim və gördüyüm həmin izdiham məni əsla narahat etmədi. Təəccüb edirdim ki, bu qədər insandan biri də olsun həmin dairəyə daxil olub mənə toxunmurdu.

Onun yeganə istəyi elə bu olduğundan daha Həzrətdən başqa bir şey istəməmişdi.”

## «İyirmi Səkkizinci Görüş»

Mərhum şeyx Məhəmməd Təqi Bafiqi, Rza şah Pəhləvinin zülmkar rejiminə baş əyməyən mübariz alimlərdən biri olmuşdur. Zalım şah dəfələrlə onu zindana salmış və ucqar məntəqələrə sürgün etmişdir. “Alimlərin xəzinəsi” kitabının müəllüfi yazır: “Şeyx Məhəmməd Təqi Bafiqi “ədilləyi-ərbəə”yə (şəriətdə əhkamların istixracı üçün dödr əsas dəlil) əsasən, İmam Zamanı (ə) görməyi tam mümkün məsələ hesab edirmiş. Hər hansı bir şeyin mümkünlüyünə ən yaxşı dəlil isə onun həyatda baş verməsidir. Bir halda ki, minlərlə insan İmam Zaman (ə)-ı görmüş, onu tanıyaraq söhbət etmişlər!”[1] Müəllif qeyd olunanları ətraflı şərh etdikdən sonra Mərhum Bafiqidən onunla əlaqəli olan bir neçə başqa əhvalat da nəql edir ki, onlardan birini şeyx Məhəmməd Təqi Bafiqinin qardaşı, alim, zahid höccətül-İslam Molla Əsədullahın dilindən nəql edir. Deyir ki, o bu əhvalatı 1369-cu ilin səfər ayında mənə dadışdı:

Qardaşım dəfələrlə İmam Zamanla (ə) görüşmüş və onunla söhbətlərini mənə nəql etmişdir. Amma tapşırmışdı ki, nə qədər ki,mən sağam onları kimsəyə danışmayam. Lakin indi o, dünyasını diyişdiyi üçün sizə həmin görüşlərdən bir neçəsini nəql etmək istəyirəm. Onlardan biri budur:

Bir vaxtlar qərara gəlmişdim ki, Nəcəf-Əşrəfdən piyada Məşhədə İmam Rza (ə)-ın ziyarətinə gedəm. Yola düşdüyüm

---

[1] “Alimlər xəzinəsi”, 3-cü cild, səh. 6

vaxt qış fəsli idi. İran ərazisinə daxil oldum. Hər tərəf böyük dağ və dərələrlə əhatə olunurdu. Hava isə olduqca soyuq və ardı kəsilmədən qar yağırdı. Bir gün qürub vaxtı qarlı-boranlı bir havada yol kənarında bir qəhvəxanaya çatdım. Öz-özümə dedim: Axşam burada qalıb səhər yenə yoluma davam edərəm. Qəhvəxanaya daxil oldum, orada bir neçə "yezidi kürdü" oturub qumar oynayırdı. Öz-özümə dedim: İlahi nə edim? Axı, bunları pis işlərdən çəkindirmək mümkün deyil və mən də onlarla birlikdə burada otura bilmərəm. Hava isə çöldə olduqca soyuqdur. Beləcə, qəhvəxanadan eşikdə dayanıb götür-qoy edirdim. Hava da get-gedə qaralırdı. Birdən, belə bir səs eşitdim: Məhəmməd Təqi! Bura gəl. Səs gələn tərəfə getdim, gördüm ki, yaraşıqlı və alicənab bir şəxs yaşıl ağacın altında oturub məni özünə tərəf çağırır. Ona yaxınlaşıb salam verdim. Salamımı alıb buyurdu: Məhəmməd Təqi, ora sənin yerin deyil! Ağacın altına girdikdə hiss etdim ki, oranın havası olduqca mülayimdir, orada həm istirahət etmək olar, həm də qalmaq. Ətraf soyuq və qarla örtülsə də ağacın altı olduqca mülayim və tamamilə quru idi. Beləcə, gecəni İmam Zaman (ə)-ın yanında qaldım və bacardığım qədər onun hüzurundan istifadə etdim.

Səhər sübh namazını onunla birgə qıldım və mənə dedi: Artıq hava işıqlanır, gedək. Dedim: İcazə verin hər zaman sizinlə olum və sizə xidmət göstərim. Buyurdu: Mənimlə gələ bilməzsən. Dedim: Bəs, bundan sonra sizin xidmətinizə harada çatım? Buyurdu: Bu səfərdə iki dəfə sənin yanına gələcəyəm və sən məni görəcəksən. Görüşümüzün biri Qumda, ikincisi isə Səbzivarın yaxınlığında olacaq. Bunu deyib qeyb oldu.

İmam Zamanla (ə) görüşə can atdığımdan şövqlə yoluma davam edib bir neçə gündən sonra Quma çatdım və həm Həzrəti Mə`sumə (ə)-ı ziyarət etmək, həmdə İmam Zaman (ə)-ın görüşünə nail olmaq üçün üç gün orada qaldım. Amma o həzrətlə görüşə bilmədim.

İmam Zamanla (ə) görüşə bilmədiyimdən bərk narahat idim. Beləcə, yoluma davam edib bir aydan sonra Səbzivara yaxın bir məntəqəyə yetişdim. Uzaqdan Səbzivarı görüb dedim: Nə üçün və`dəyə əməl olunmadı? Qumda İmam Zaman (ə)-ı görmədim, bu da Səbzivar! Bu fikirdə idim ki, birdən, at

ayaqlarının səsini eşitdim. Arxaya baxıb gördüm ki, İmam Zaman (ə) mənə tərəf gəlir. Mənə yaxınlaşıb dayandı və salam verdi. Mən də salamının cavabını verib ona olan məhəbbətimi bildirərək dedim: Ağa, Qumda mənimlə görüşəcəyinizə söz vermişdiniz, amma müvəffəq olmadım. Buyurdu: Məhəmməd Təqi, biz (filan gün filan saatda) sənin yanına gəldik, sən isə bibim Həzrət Mə`sumə (ə)-ın ziyarətgahından çıxırdın. Tehranlı bir qadın səndən şər`i məsələ soruşurdu və sən də başını aşağı salıb sualına cavab verirdin. Mən də sənin yanında dayanmışdım, amma fikir vermədiyindən çıxıb getdim.

## «İyirmi Doqquzuncu Görüş»

Mərhum Məhəmməd Təqi Bafiqi (Allah ona rəhmət etsin) İmam Zamanla (ə) əlaqə yaratmaqda o qədər güclü və o qədər təqvalı bir şəxsiyyət idi ki, nə zaman bir istəyi olsaydı, dərhal Cəmkəran məscidinə gedər və hacətini İmam Zaman (ə)-dan alardı. “Alimlər xəzinəsi” kitabının müəllifi bu əhvalatı Qumun elmi hövzəsinin böyük alimlərindən birindən nəql edir:

Ayətullah hacı seyyid Məhəmməd Rza Gülpayeqani buyurardı ki, Ayətullah Əbdülkərim Hairinin dövründə dörd yüz tələbə Qum hövzəsinə cəm olub onun tələbələr üçün təqaüd üzrə nümayəndəsi mərhum hacı şeyx Məhəmməd Təqidən qış əbası istəyirlər. Şeyx Bafiqi tələbələrin istəyini mərhum Əbdülkərim Hairiyə çatdırır. Əbdülkərim Hairi deyir: Dörd yüz ədəd əbanı haradan tapaq? Şeyx Bafiqi deyir: Fədası olduğumuz İmam Zaman (ə)-dan alarıq. Hacı şeyx Əbdülkərim Hairi deyir: Bu qədər şeyi o həzrətdən almaq üçün mənim heç bir yolum yoxdur. Şeyx Bafiqi deyir: İnşaallah, mən İmam Zaman (ə)-dan alaram.

O, cümə günü axşam Cəmkəran məscidinə gedib orada İmam Zamanla (ə) görüşür. Səhəri gün Şeyx Əbdülkərim Hairinin yanına gəlib deyir: İmam Zaman (ə) buyurdu ki, sabah sizə dörd yüz əba verəcəkdir.

Cümə günü səhər tacirlərdən bir nəfər dörd yüz əba gətirib hövzəyə təhvil verdi.

## «Otuzuncu Görüş»

Şeyx Mehdi Muəzzi buyurur: Mərhum Şeyx Mürtəza Tehranın zahid və təqvalı alimlərindən olmuşdur. O, belə bir əhvalat nəql edir:

Mərhum seyyid Əbdülkərim Mahmudi cümə axşamları İmam Zamanla (ə) görüşərdi. O, deyir: Bir cümə axşamı Reydə həzrət Əbdüləzimin ziyarətgahında fədası olduğum İmam Zamanla (ə) görüşdüm. Mənə dedi: Seyyid, gəl birlikdə cəddim Əli ibn Musa Rza (ə)-ın ziyarətinə gedək. Dedim: İxtiyarınızdayam, hara istəyirsinizsə gedək. Birlikdə bir neçə addım atdıqdan sonra gördüm ki, artıq İmam Zaman (ə)-ın ziyarətgahına çatmışıq. Birlikdə ziyarət edib yenidən həmin qaydada geri qayıdıb, bir anın içində Tehranda olduq. Yenə İmam Zaman (ə) buyurdu: İndi də gəl, hacı seyyid Əli Müfəssirin ziyarətinə gedək (onun qəbri imamzadə Abdullanın ziyarətgahının içindədir). İmam Zamanla (ə) qəbirə yaxınlaşdıqda, gördüm ki, mərhumun ruhu qəbirin kənarında dayanıb həzrətə öz ehtiramını bildirir. Sonra Seyyid Əli mənə dedi: Seyyid! Hacı şeyx Mürtəzaya mənim salamımı çatdır və de ki, nə üçün dostluğa riayət etmir və bizi görməyə gəlmir? Niyə bizi unudub?

İmam Zaman (ə), Seyyid Əliyə dedi: Hacı şeyx Mürtəzanı üzürlü hesab et, başı bərk qarışıqdı. Onun yerinə özüm gələcəyəm.

## «Otuz Birinci Görüş»

Böyük alim və müctəhid Ayətullah-üzma Seyyid Əbül-Həsən İsfahani dövrünün tanınmış fəqih və ustadlarından biri olmuşdur. Onun vasitəsiz olaraq İmam Zamanla (ə) görüşü, verdiyi hökmlərinin "böyük qeyb dövrü"ndə İmam (ə) tərəfindən təsdiq olunması şübhəsizdir. Ümumiyyətlə, böyük qeyb dövründə çox az müctəhidə rast gəlinir ki, İmam Zamanın (ə) xass ikram və ehtiramı ona nəsib olsun.

İmam Zaman (ə)-ın bu böyük şəxsiyyətə və ümmətin rəhbərinə bəxş etdiyi kəramətlərdən biri də ona yazdığı məktublarıdır. Bu isə İmamın ona olan rəğbətini göstərir. Məktublardan biri "Əməlisaleh alimlərin zinəti" ləqəbini almış Şeyx Məhəmməd Kufi Şüştərinin vasitəsilə göndərilir. Məktubda deyilir:

*"Xalqın qulluğunda dur və hamının səninlə əlaqə saxlamasına şərait yarat. Evinin dəhlizini görüş üçün tə`yin et ki, onlar səninlə rahat ünsiyyətdə ola bilsinlər. Hər zaman camaatın xahiş və istəklərini yerinə yetirməyə çalış və bil ki, biz də sənə köməyimizi edəcəyik."*

## «Otuz İkinci Görüş»

Seyyid Həsən Əbtəhi deyir ki, 1332-ci hicri şəmsi ilində Kufəyə getmişdim. Orada fədası olduğumuz İmam Zamanla (ə) görüşən hacı Şeyx Məhəmməd Kufi adlı bir şəxslə görüşdüm. O, bizə belə bir əhvalat nəql etdi:

İraqla Hicaz arasında maşın işləmədiyi vaxt bir dəfə Məkkəyə getdim. Qayıdarkən dəstədən geri qalıb yolu itirdim. Yoluma davam edib bir bataqlığa düşdüm. Dəvəmin ayağları palçığa batdığından hərəkət edə bilmirdi. Mən də dəvənin üstündən düşə bilmirdim və dəvəni ölüm ayağında görüb uca səslə fəryad edərək İmam Zaman (ə)-ı köməyə çağırdım. *«Ya Əba Salihil-Məhdi, ədrikni!» (Ey Əbu-Saleh Mehdi, dadıma çat!)* Bunu bir neçə dəfə təkrar etdim və bir də gördüm ki, uzaqdan mənə tərəf bir süvari gəlir. Amma bataqlığa batmayıb onun üzəri ilə hərəkət edirdi. Süvari mənə yaxınlaşıb dəvənin

qulağına dedi: Qapıya qədər. Dəvə dərhal ayaqlarını çıxarıb Kufəyə tərəf sür`ətlə hərəkət etməyə başladı. Üzümü ona tutub soruşdum: Sən kimsən? Buyurdu: Mən Mehdiyəm. Dedim: Daha sizi necə görə bilərəm? Buyurdu: Nə vaxt istəsən.

Dəvə Kufə şəhərinin qapısına çatdıqda yerə oturdu. Mən də həmin kəlməni dəvənin qulağına təkrar etdim. Dedim: Sənə deyiblər qapıya qədər. O da dərhal yerindən qalxıb məni evimin qapısına qədər apardı, amma bu dəfə oturan kimi öldü.

Hacı Şeyx Məhəmməd Kafi o qədər pak və təqvalı bir şəxsiyyət idi ki, insan onun həqiqətdən uzaq, hətta bircə kəlmə deməsinə ehtimal vermirdi. Sonra o sözlərinə davam edərək dedi: Bu əhvalatdan sonra iyirmi beş dəfə İmam Zamanla (ə) görüşə nail oldum.

Mən bu görüşlərdən bə`zilərini mərhum hacı molla Ağacana nəql etdiyim zaman mənə dedi: Onlardan bə`ziləri mükaşifə halında olub. O, olduqca pak və təqvalı bir şəxs olduğu üçün elə bilmişdir ki, İmam Zamanla (ə) aşkarda görüşmüşdür.

## *«Otuz Üçüncü Görüş»*

Mərhum şeyx Vərram “Tənbihul-xatir və Nüzhətun-nazir”də yazır: Əli ibn Cə`fər Mədaini Ələvi nəql edir ki, Kufədə təqvalı və zahidliyi ilə tanınan qısaboy bir qoca vardı. Bir gün atamın təşkil etdiyi məclisdə həmin qoca da iştirak edirdi və o, atama belə bir əhvalat nəql etdi:

Bir dəfə Kufənin arxa nahiyəsində yerləşən Cö`fi adlanan qədim məsciddə idim. Gecə yarısı ibadətlə məşğul olduğum zaman üç nəfər içəri daxil oldu. Onlardan biri məscidin ortasına gəlib yerə oturdu və sonra əlini yerə çəkdi. Birdən, yerdən çeşmə tək su qaynamağa başladı. O, əvvəl dəstəmaz alıb, o biri iki nəfərə də dəstəmaz almağı əmr etdi. Onlar da dəstəmaz aldılar. Həmin şəxs qarşıda durub namaz qılmağa başladı, o iki nəfər də ona iqtida edərək namaza başladılar. Mən də ayağa qalxıb həmin şəxsə iqtida edərək namaz qılmağa başladım. Namazın salamını verib qurtardıqdan sonra quru torpaqdan su

çıxdığından təəccüblənib sağ tərəfimdə oturan şəxsdən soruşdum: Bu şəxs kimdir? Dedi: O, İmam Həsən Əskəri (ə)-ın övladı İmam Zaman (ə) dır. Bunu eşitcək yerimdən qalxıb həmin şəxsə yaxınlaşdım və salam verib əlindən öpdüm. Sonra ondan soruşdum: Ey Peyğəmbər övladı! Seyyid şərif Ömər ibn Həmzə barədə nə deyə bilərsiniz? O, haqq yoldadırmı? Buyurdu: O, indi haqq yolda deyildir, amma haqqa hidayət olacaq və ömrünü dəyişməzdən əvvəl məni görəcəkdir.

Əli ibn Cə`fər Mədaini deyir: Bu əhvalatı kimsəyə danışmadım və onun baş verməsindən uzun müddət keçdi. Beləliklə, Şərif Ömər ibn Həmzə vəfat etdi və mən onun İmam Zamanla (ə) görüşüb-görüşmədiyini bilmədim.

Bir gün o zahid şəxs bu əhvalatı atama nəql edirdi, elə bu vaxt onlara yaxınlaşıb hər şeyi inkar edən şəxs kimi dedim: Məgər siz demədinizmi ki, o dünyasını dəyişməzdən əvvəl İmam Zaman (ə)-ı görəcək? Dedi: Sən hardan bilirsən ki, o İmam Zamanla (ə) görüşməmişdir?

Bir müddət sonra məclislərdən birində Şərif Ömər ibn Həmzənin, Şərif Əbulmənaqib ləqəbi ilə tanınan oğlu ilə görüşdüm. O mənə dedi: Bir gün atam xəstə olduğu vaxt yanında oturmuşdum. Onun taqəti tamamilə qurtarmış rəngi də qaçmışdı. Gecənin sonuna yaxın evin bütün qapılarını bağlamağıma baxmayaraq, birdən gördüm ki, evə bir şəxs daxil olub. Lakin üzünün heybətindən onun haradan girdiyini soruşmağa cür`ət etmədim. O, atamın yanında oturub onunla yavaş-yavaş söhbət etməyə başladı. Atam isə onu dinləyə-dinləyə elə hey göz yaşları axıdırdı. Sonra isə o, qalxıb getdi. Gözümüzdən itdikdən sonra atam dedi: Məni oturdun. Biz də onu oturtduq. Atam gözlərini açıb dedi: Yanımda oturan həmin şəxs hara getdi? Dedim: Haradan gəlmişdisə oradanda çıxıb getdi. Dedi: Ardınca gedin və onu geri qaytarın. Baxıb gördük ki, qapılar yenə də bağlıdır və ondan heç bir əsər-əlamət yoxdur. Qayıdıb atama dedik ki, qapılar həmişəki kimi bağlıdır və ondan heç bir əsər-əlamət yoxdur. Dedi: O şəxs İmam Zaman (ə) idi. Bunu dedikdən sonra vəziyyəti daha da ağırlaşdı və bir neçə gündən sonra vəfat etdi.

## *«Otuz Dördüncü Görüş»*

Seyyid Həsən Əbtəhi deyir ki, bu əhvalatı Məşhəd sakini hacı Heydəri adlı e`tibarlı bir şəxsdən eşitmişəm. Bu əhvalat Şeyx Məhəmməd Razinin "Asarül-Höccə" kitabında da (səh. 80) qeyd olunub. Hacı Əli Heydəri buyurur:

Mən bu əhvalatı Tehranda mərhum Ayətullah Həbibullah Rəştinin oğlu Şeyx İshaq Rəştidən eşitmişəm. Sonra Dəməşqə həzrət Zeynəb (ə)-ın ziyarətinə getdiyim vaxt bu əhvalatı Seyyid Möhsün Cəbəl Amulidən də eşitdim. O deyirdi ki, Şərif Əli Hicazda hakimiyyətdə olduğu dövrdə Məkkəyə getmişdim. Məndə belə bir hiss yaranmışdı ki, ziyarət vaxtı İmam Zamanla (ə) görüşəcəyəm. Bunun üçün də həccin əməllərini yerinə yetirdiyim zaman İmam Zaman (ə) barədə xeyli fikirə daldım. Amma həmin il mən bu şərrəfə nail ola bilmədim. Ziyarəti qurtardıqdan sonra vətənə qayıtmaq qərarına gəldim. Amma baxıb gördüm ki, Məkkə ilə Livanın arasında xeyli məsafə var. Bunun üçün də mən ən yaxşı yolu Məkkədə qalmaqda gördüm. Ümid edirdim ki, bəlkə növbəti Həcc mərasimində İmam Zaman (ə)-ı görə biləcəyəm. Beləliklə, həmin il Məkkədə qaldım. Lakin sonrakı, ondan sonrakı və beləcə, orada qaldığım beş və ya yeddi il ərzində İmam Zaman (ə)-ı görə bilmədim.

Bu müddət ərzində Məkkə hakimi Şərif Əli ilə də tanış oldum və vaxtaşırı bir-birimizə get-gəl də edirdik. Şərif Əli Məkkə seyyidlərindən olub, yalnız dörd mə`sum imamı qəbul etdiyi üçün Zeydi məzhəbinə mənsub idi. Son illərdə aramızdakı səmimiyyət daha da güclənmişdi. Sonuncu ziyarət zamanı hiss etdim ki, deyəsən, bu il də İmam Zamanla (ə) görüşməyə müvəffəq olmayacağam. Narahatlığımı aradan qaldırmaq üçün Məkkənin ətrafındakı dağlardan birinə qalxdım. Dağın başına çatdıqda baxıb gördüm ki, dağın o biri tərəfi yaşıl çəmənlikdir. Öz-özümə dedim: Axı, nə üçün neçə il Məkkədə olsam da, bir dəfə də olsun bura gəzməyə gəlməmişəm? Çəmənliyin ortasına çatdıqda gördüm ki, orada bir çadır qurulmuş, onun içində də bir neçə nəfər oturmuşdur. Aralarında alim və alicənab şəxs kimi görünən birisi çadırın

ortasında oturub, sanki yanındakılara dərs deyirdi. Ondan bu sözləri eşitdim: "Cəddəmiz Həzrət Zəhra (ə.s)-ın övladı və nəsilindən olanlar dünyalarını dəyişdikləri zaman onlara imamət və vilayət təlqin olunur və onların hər biri dünyalarını həqiqi və kamil imanla dəyişir."

Elə bu vaxt bir nəfər tələm-tələsik gəlib dedi: Şərif Əli ölüm ayağındadır, tez özünüzü çatdırın! Bu xəbəri eşitcək, dərhal Məkkəyə tərəf yola düşdüm və birbaşa Şərif Əlinin qəsrinə getdim. İçəri daxil olduqda, onu doğrudan da ölüm ayağında gördüm. Əhli-sünnə alim və qaziləri onun ətrafında oturub ona sünni məzhəbinə uyğun təlqin edirdilər. Amma o, bir kəlmə də olsun təkrar etmirdi. Oğlu da kənarda oturub bundan narahat idi. Birdən, gördüm ki, çadırın ortasında oturub dərs deyən həmin şəxs qəsrə daxil oldu və Şərifin yanına gəlib başı üzərində orturdu. Amma mə`lum idi ki, onu yalnız mən görürdüm. Çünki, yalnız mən ona nəzər salır, başqaları isə bundan tamamilə xəbərsiz idilər. Amma nədənsə, mən də ona nə salam verə bildim, nə də yerimdən tərpənə bildim.

O, üzünü Şərifə tutub buyurdu: *«Qul, əşhədu ən la ilahə illəllah.»* "De ki, Allahdan başqa mə`bud yoxdur." Şərif dedi: *«Əşhədu ən la ilahə illəlalh.»* "Şəhadət verirəm ki, Allahdan başqa mə`bud yoxdur." Buyurdu: *«Qul, əşhədu ənnə Muhəmmədən rəsulullah.»* "De ki, şəhadət verirəm Məhəmməd Allahın peyğəmbəridir." Şərif dedi: *«Əşhədu ənnə Muhəmmədən rəsulullah.»* "Şəhadət verirəm ki, Məhəmməd Allahın peyğəmbəridir." Buyurdu: *«Qul, əşhədu ənnə Əliyyən huccətullah.»* "De ki, şəhadət verirəm Əli Allahın yer üzərindəki höccət və dəlilidir." Şərif dedi: *«Əşhədu ənnə Əliyyən huccətullah.»* "Şəhadət verirəm ki, Əli Allahın yer üzərindəki höccət və dəlilidir." O, bu minvalla mə`sum imamların adını çəkir, Şərif də onun ardınca bir-bir təkrar edirdi. Beləcə, fədası olduğumuz İmam Zaman (ə)-ın adına çatdıqda, buyurdu: *«Ya Şərif, qul, əşhədu ənnəkə huccətullah.»* "Ey şərif! De ki, şəhadət verirəm sən Allahın yer üzərindəki höccət və dəlilisən." Şərif də dedi: "Şəhadət verirəm ki, sən Allahın yer üzərindəki höccət və dəlilisən."

Bu vaxt başa düşdüm ki, artıq ikinci dəfədir mən İmam Zaman (ə)-ı görməyə nail oluram. Amma təəssüflər olsun ki, mən o qədər gücümü itirmişdim ki, ona nə salam verə bildim, nə də ki, dil açıb məhəbbətimi izhar etməyə taqətim oldu.

Mərhum Ayətullah Seyyid Möhsin Cəbəl Amuli 1371-ci hicri qəməri ilində Şamda (indiki Suriya) vəfat edir və vəsiyyətinə əsasən, Həzrət Zeynəb (ə)-ın ziyarətgahına gedən yol üstə dəfn olunur.

## «Otuz Beşinci Görüş»

Böyük şiə alimi Seyyid Həsən ibn Həmzə şəhidlər ağası İmam Hüseyn (ə)-ın altıncı kötücəsi olmuşdur. O, belə bir əhvalat nəql edir:

Əməlisaleh şiələrdən biri deyir ki, bir dəfə Allahın evini ziyarət etmək və həccin əməllərini yerinə yetirmək üçün səfərə çıxdım. Həmin il olduqca isti keçdiyindən bir çox namə`lum xəstəliklər yayılmışdı. Yolda karvandan ayrı düşüb geri qaldım. Aclıq və susuzluq məni taqətdən saldı və artıq yolumu davam etməyə gücüm də qalmadı. Halsızlıqdan üzü üstə yerə yıxılıb az qaldı ki, həlak olam. Birdən, qulağıma at kişnəməsinin səsi gəldi. Gözümü açdıqda qarşımda gözəl bir cavan gördüm. O, başım üzərində dayanıb əlində su ilə dolu bir qab tutmuşdu. Atdan düşüb suyu mənə verdi. Su o qədər soyuq və şirin idi ki, mən hələ o vaxta qədər eləsini içməmişdim. Ondan soruşdum: Sən kimsən ki, mənə belə bir qayğı göstərirsən? Dedi: Allahın bəndələri üzərinə tə`yin etdiyi höccət və dəlili; Mən o kəsəm ki, yer üzü zülm və haqsızlıqla dolduqdan sonra yenidən orada haqq-ədaləti bərqərar edəcəyəm. Mən Höccət ibn Həsən ibn Əli ibn Məhəmməd ibn Əli ibn Musa ibn Cə`fər ibn Məhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talibəm. Onu tanıdıqda mənə dedi: İndi aç gözlərini. Gözümü açdıqda, özümü karvanla

birlikdə gördüm və elə həmin an İmam Zaman (ə) gözlərim ödündən qeybə çəkildi.

Hacı Nuri "Nəcmus-Saqib" kitabında bu əhvalatı nəql etdikdən sonra deyir: Həsən ibn Həmzə görkəmli şiə alimlərindən olmuş və onun tə`lif etdiyi əsərlərdən biri də "Qeybət" kitabıdır.

Şeyx Tusi deyir: Seyyid Həsən ibn Həmzə böyük yazıçı, agah fiqh alimi, zirək zahid və bir çox gözəl səciyyələrə malik bir şəxsiyyətdir.

## «Otuz Altıncı Görüş»

Əli ibn İsa Ərbili ( o, Hüseyni seyyidlərindən olub Baqi ibn Ətvə Ələvi tərəfindən e`tibarlı sayılır) belə bir əhvalat nəql edir:

Atam "zeydi" məzhəbinə itaət edirdi. Bir dəfə o, həkimlərin heç cür əlac edə bilmədikdəri ağır xəstəliyə düçar oldu. O, on iki imamçı şiə məzhəbində olan mənim və digər oğullarının şiə məzhəbli olmamasından çox narahat idi. Biz ona şiəliyin haqq olduğuna dair müxtəlif dəlillər gətirib İmam Zaman (ə)-ın sağ olduğunu isbat etsək də, deyərdi: Əgər düz deyirsinizsə, onda deyin gəlib mənə şəfa versin və mən də sizin məzhəbinizi qəbul edim. O, elə hey bu sözləri təkrar edərdi: Həzrət Mehdi adlandırdığınız İmam Zaman gəlib mənə şəfa verməyincə mən sizin məzhəbinizin haqq olduğuna iman gətirməyəcəyəm.

Günlərin bir günü işa (xiftən) namazından sonra qardaşlarımla birlikdə oturmuşduq ki, birdən atamız bizi səsləyib dedi: Tez olun gəlin, ağanız İmam Zaman (ə) buradadır. Biz tez otağa daxil olduq, amma orada kimsəni görmədik. Atam əli ilə otağın qapısına tərəf işarə edərək dedi: Onun ardınca qaçın və ağanızın hüzuruna yetişin. Çünki, o, elə indicə burada mənim yanımda idi. Biz də otaqdan bayıra çıxıb nə qədər o tərəf bu tərəfi axtardıqsa, kimsəni görmədik. Çarəsiz, atamın yanına qayıdıb ondan nə baş verdiyini soruşduq. Atam isə ağlaya-ağlaya dedi: Bir şəxs mənim yanıma gəlib dedi: Ey Ətvə! Mən də ondan kim olduğunu

soruşdum. Buyurdu: Mən oğullarının sahibi, onların İmam Zamanıyam, gəlmişəm sənə şəfa verəm. Sonra əlini bədənimin ağrıyan yerinə qoydu və bədənimdəki ağrı birdəfəlik aradan getdi. Bədənimin tam sağaldığını görüb başa düşdüm ki, o, İmam Zaman, həzrət Höccət ibn Həsən (ə)-dır. Tez sizi çağırdım ki, onu ziyarət edə biləsiniz. Amma təəssüflər olsun ki, siz gəlməzdən əvvəl o otaqdan çıxıb getdi.

Mərhum Hacı Nuri "Nəcmus-Saqib" kitabında yazır: Əli ibn Hüseyn Ərbili deyir: Mən bu əhvalatı Ətvənin oğullarından başqa, digər şəxslərdən də eşitmişəm. Onlar deyirdilər ki, biz Ətvəni həm zeydi məzhəbinə qulluq edərkən xəstə halda, həm də on iki imamçı şiəliyi qəbul etdiyi sağlam vaxtda da görmüşük. Sonra Əli ibn İsa Ərbili əlavə edərək deyir: Ümumiyyətlə, camaat dəfələrlə Məkkə ilə Mədinə arasındakı yolda İmam Zamanla (ə) görüşə nail olmuşlar.

## *«Otuz Yeddinci Görüş»*

Seyyid Həsən Əbtəhi deyir ki, bir dəfə Məşhəddəki "Sahibəzzəman" məscidində əsr (ikindi) namazını qılıb qurtardıqdan sonra gördüm ki, təqva və imanına söz olmayan bir şəxs yanımda oturub dedi: Hacı ağa, bizim evimiz şəhərdən aralıdır. Beş nəfər bir otaqda qalırıq və özüm də ailəliyəm. İşığımız olmadığından axşamlar neft lampasını da söndürüb, şüşəsiz taxta qapımızı da bağlayırıq. Ona görə də gecələr qaranlıqdan göz-gözü görmür. Dünən hava çox soyuq idi və çarəsizlikdən hamımız bir yerə yığılıb yatmışdıq. Gecə yarısı yuxudan ayılıb gördüm ki, yaman susuzam. Fikirləşdim ki, əgər yerimdən dursam uşaqları taptalayacağam və hələ mə`lum deyil içməyə su tapacağam, ya yox.

Amma mən belə əqidədəyəm ki, hər bir çətinlik gərək İmam Zamanla (ə) bölüşdürülsün. Bu səbəbdən də ilk öncə ona salam verib dedim: Ağa! Əgər bizim də işığımız olsaydı, biz də barmağımızı elektrik düyməsinin üstünə qoyub otağımızı işıqlandırar, gecənin bu vaxtı qaranlığında uşaqları ayaqlamazdıq. Əgər evimiz işıqlı olsaydı, rahat su tapıb

susuzluğumu dəf edərdim. Nə qədər yaxşı olardı! Bir də gördüm fədası olduğumuz İmam Zaman (ə) qarşımda dayanıb mənə buyurdular: Al bu pulu, get “Sahibəzzəman” məscidinə və orada Seyyid Həsən Əbtəhiyə verib de ki, bu pulla evinə işıq çəksinlər. Elə bu vaxt yeddi yaşlı oğlum yuxudan oyanıb İmam Zaman (ə)-ın mənə pul verdiyini gördü. O, öz baxışı ilə gözləyirdi ki, ona da pul versin. İmam Zaman (ə) ona da otuz beş tümən pul verdi.

O, bu əhvalatı o qədər inamla danışırdı ki, mən onun hətta bir kəlməsinə belə şübhə etmədim. Ona dedim: Hələ ki bu pullar sənə məxsusdur, icazə verirsənmi cibimə bərəkət üçün ondan on tümən götürüm və onun yerinə iyirmi beş tümən qoyub hələ üstəlik evinin işığını da çəkim? Dedi: Hacı ağa, ixtiyar sahibisiniz. Mən də puldan on tümən götürüb yerinə iyirmi beş tümən qoydum. O vaxtlar onun yaşadığı məhəlləyə işıq çəkdirmək çox çətin idi. Amma işıq idarəsinə müraciət edib bir az xahişdən sonra, tezliklə onun evinə işıq çəkdirə bildim. İşin xərcini hesabladıqda baxıb gördük ki, on tümən artıq qalmışdır. Mə`lum oldu ki, bu on tümən mənim əlavə olaraq verdiyim pul imiş.

## *«Otuz Səkkizinci Görüş»*

Fədası olduğumuz İmam Zamanla (ə) görüşə nail olub, elmi suallarına cavab alan şəxslərdən biri də böyük alim Müqəddəs Ərdəbili (vəfatı 993-cü hicri qəməri ili) olmuşdur. Bu böyük şəxsiyyət təqva və ibadətdə elə yüksək məqama çatmışdır ki, hər kəsi iman və təqvada misal çəkmək istəsələr, ona oxşadırlar. Mə`lum olduğu üzrə Müqəddəs Ərdəbili bə`zi məsələlərin həllində aciz qaldığı zaman mö`minlərin əmiri Əli (ə)-ın qəbri üstə gedər, suallarını ona verər və dərhal onlara cavab alardı. Doğrudan, heyrətlənməmək olmaz! İnsan din və imamətə inam və əqidədə bu qədər yüksələ bilsin. Zəmanəsinin tanınmış alimlərindən və Müqəddəs Ərdəbilinin həyat sirlərindən agah olan tələbələrindən biri öz xatirələrində deyir:

Bir gün gecə yarısı mö`minlərin əmiri Əli (ə)-ın ziyarətgahında gəzişirdim ki, birdən nurlu bir fəzada ziyarətgaha tərəf gələn cazibəli çöhrə gördüm. Ziyarətgahın bütün qapıları bağlı olsa da maraqla onu tə`qib etməyə başladım. Gördüm ki, ziyarətgahın qapılarına yaxınlaşdıqda, birdən qıfılları öz-özünə açıldı. Beləcə, o hansı qapıya yaxınlaşıb ona əl vururdusa, dərhal açılırdı. Nəhayət, vüqarla qəbirə yaxınlaşıb Əli (ə)-a salam verdi və salamının cavabını aldı. Sonra da adi halda söhbət etməyə başladı. Bir azdan sonra hərəmdən çıxıb, şəhərdən aralanaraq Kufə məscidinə üz tutdu. Mən isə daha maraqla onu tə`qib etməyə davam etdim. O, məscidə daxil olub sonra yenə şəhərə qayıtdı. Nəcəfin şəhər qapılarına çatdıqda, artıq səhər açılırdı və camaat yavaş-yavaş yuxudan oyanıb münacata hazırlaşırdılar. Birdən, məni asqırma tutdu və heç cür özümü saxlaya bilmədim. O şəxs tə`qib olunduğunu başa düşüb geri döndü və gördüm ki, o, ustadım Ayətullah Müqəddəs Ərdəbilidir.

Salamlaşıb hal-əhval tutduqdan sonra dedim: Bütün gecəni – ziyarətgaha daxil olduğunuz andan bu vaxta qədər sizi izləyirdim. Xahiş edirəm deyin ki, ziyarətgahda və Kufə məscidinin mehrabında kiminlə söhbət edirdiniz? O, əvvəlcə mənimlə qəti söz kəsdi ki, özü dünyadan getməmiş bu sirri kimsəyə açmayacağam. Sonra buyurdu: Övladım! Bə`zən elə olur ki, qarşıma çıxan məsələlərin həlli mənim üçün olduqca çətin və mən onların qarşısında aciz qalıram. Belə vaxtlarda həzrət Əli ibn Əbu Talibin hüzuruna gəlib suallarımın cavabını ondan alıram. Lakin, dünən gecə həzrət Əli (ə) məni İmam Zaman (ə)-ın yanına göndərdi. Dedi ki, bu gecə nəvəm Kufə məscidində olacaq. O, sənin imamın Sahibəzzamandır. Onun yanına get və bu məsələni ondan öyrən. Mən də onun dediyi kimi, Kufə məscidinə gedib mehrabda İmam Zaman (ə)-dan sualımın cavabını aldım.

## *«Otuz Doqquzuncu Görüş»*

Mərhum Əllamə Məclisi və Əllamə Nuri belə bir əhvalat nəql edirlər:

Seyyid ibn Tavus deyir ki, bir səhər çağı İmam Zaman (ə)-ın müqəddəs sərdabəsində Həzrətin dilindən belə bir münacat eşitdim: *«Allahummə, innə şiətəna xuliqət min şuai ənvarina və bəqiyyəti tinətina və qəd fəəlu zunubən kəsirən ittikalən əla hubbina və vilayətina. Fə in kanət zunubuhum bəynəkə və bəynəhum, fəsfəh ənhum, fə qəd rəziyna. Və ma kanə minha fi ma bəynəhum fə əslih bəynəhum və qassi biha ən xumsina və ədxilhumul-cənnətə və zəhzihhum ənin-nari və la təcmə` bəynəhum və bəynə ə`daina fi səxətik.» (İlahi! Bizim şiələrimiz bizim nurumuzdan və bizim torpağımızın qalığından yaranmışlar. Onlar bizə və bizim rəhbərliyimizə olan məhəbbətlərinə arxayın olaraq bir çox günahlara düçar olmuşlar. Əgər onların günahları Sənə qarşı olubsa, onları bağışla ki, bununla bizi razı salmış olarsan. Yox, əgər düçar olduqları günahları ilə özlərinə zülm ediblərsə, onda onları islah et və əvəzini bizim payımız olan xümsdən çıx (beləliklə, Həzrət xümsdən olan öz şəxsi payını şiələrinə görə fəda etmişdir), onları cəhənnəm əzabından saxla və düşmənlərimizlə birgə əzab və qəzəbinə düçar etmə!)*

## *«Qırxıncı Görüş»*

Mərhum Əllamə Bəhrul-Ülum (Allah ondan razı olsun) dəfələrlə fədası olduğumuz İmam Zamanla görüşə nail olanlardandır. Onun heyrətamiz kəramətlərindən alimlər söz açır və böyük həvəslə nəql edirlər. Mühəddis Qumi "Rical" kitabında onun səkkiz kəraməti və İmam Zamanla görüşü haqda söz açır. Onlardan birində deyilir ki, İmam Zaman (ə) onu çox istədiyindən hətta, sinəsinə basaraq qucaqlamışdır.

Doğrudan da İmam Zaman aşiqlərinin belə məqamlara yüksəlib, ali dərəcələri qət etmələri insanı heyrətə gətirir! Görün, onlar batinlərini necə mə`nəvi zinətləndirirlər ki, hətta Allahın yer üzündə tə`yin etdiyi "höccət" və "dəlil"inin sinəsində özlərinə yer edirlər.

Deyirlər ki, bir dəfə həmişəkindən fərqli olaraq Əllamə Bəhrul-Ülum mö`minlərin əmiri Əli (ə)-ın qəbri kənarında yox, çöldə dayanıb yanıqlı-yanıqlı ağlayaraq bu misranı zümzümə edir:

*"Qur`anı qəlbləri ovsulayan dilindən eşitmək nə qədər xoşdur mənə..."*

Ondan bunun səbəbini soruşduqda, buyurur: Ziyarətgaha daxil olmaq istəyirdim ki, bir də gördüm ki, İmam Zaman (ə) qəbirin baş tərəfində əyləşib avazla Qur`an oxuyur. Onun səsini eşitcək, dilimə bu misra gəldi. Amma ziyarətgaha daxil olduqda isə İmam Zaman (ə) qalxıb getdi.

## «Qırx Birinci Görüş»

Əllamə Bəhrul-Ülum Məkkədə yaşadığı illərdə qohum-əqrəbadan, dost-tanışdan uzaq olsa da, tələbələrin və yoxsulların ehtiyaclarını ödəməkdə heç vaxt biganə deyildi. Bəhrul-Ülumun maliyyə üzrə mühasibi bir gün ona deyir: Büdcədə artıq bir dirhəm də olsun pul qalmamış və bir şey fikirləşmək lazımdır. O isə bu xəbərdarlığa bir cavab vermir. Məkkədə olduğu illərdə adəti üzrə, hər səhər Kə`bəni təvaf edər, sonra da istirahət etmək üçün mənzilə qayıdardı. İstirahət vaxı isə qabaqcadan hazırladığım qəlyanı çəkəndən sonra, o biri otağa keçib tədrisə başlayardı. Həmin gün yenə səhər

Kə`bənin təvafından qayıtdıqdan sonra həmişəki kimi, qəlyanını hazırlayıb qarşısına qoymuşdum. Birdən, qapının döyültüsü eşidildi və bunu eşitcək, çox həyəcanlı halda mənə dedi: Götür qəlyanı ortalıqdan. Özü də tez yerindən qalxıb, xidmətçilərdən qabaq qapıya tərəf yüyürüb qapını açdı.

Ərəb qiyafəsində çox yaraşıqlı, alicənab bir seyyid içəri daxil oldu və hər ikisi Bəhrul-Ülumun şəxsi otağına keçdilər. Bəhrul-Ülum böyük hörmət və ehtiramla qapı qabağında əyləşdi.

Onlar iki saata qədər təklikdə söhbət etdilər. Seyyid getmək istəyərkən, Bəhrul-Ülum tez ayağa qalxıb qapını açdı və sonra onun əlindən öpüb həyətdəki dəvəyə mindirdi. Nəhayət, qonaq getdi və özü də otağa qayıtdı. Amma onun rəngi-ruhu tamamilə dəyişilmişdi. Sonra əlindəki qətfəni mənə verib dedi: Apar bunu Səfa dağının ətəyindəki dükanda filan sərrafa[1] ver və nə qədər pul versə, al gətir. Mən də qətfəni götürüb dediyi şəxsin yanına getdim. Həmin şəxs qətfəni görcək, öpüb gözləri üstə qoyaraq dedi: Bir neçə nəfər fəhlə gətir. Elə də etdim. Sonra sərraf onların gücləri çatdığı qədər kisələrə pul doldurub mənə təhvil verdi.

Bir gün qərara gəldim ki, həmin sərrafın yanına gedib həm hal-əhval tutum, həm də ondan qətfə sahibi haqda soruşum. Amma ora çatdıqda, belə bir dükan gözümə dəymədi. Qonşu dükanların birindən onun kim və harada olduğunu soruşdum. Dedi ki, hələ bu vaxta qədər burada belə bir sərraf görməmişdir. Başa düşdüm ki, bu da ilahi sirlərdən və İmam Zaman (ə)-ın bizə lütf etdiyi bəxşişlərdən biri imiş.

## *«Qırx İkinci Görüş»*

Bütün İslam dünyasında özünün fövqəladə iste`dad, bilik və zəkası ilə şöhrət tapmış, bə`zi alimlər tərəfindən "fəqih və müctəhidlər simvolu" ləqəbi verilmiş dahi şiə alimi, məşhur səhabə Cabir ibn Abdullahın nəslinə mənsub mərhum Şeyx

[1] Pul dəyişən.

Mürtəza Ənsari haqda (Allah ondan razı olsun) Əllamə Nuri yazır: “Allah-təala Cabirə böyük fəzilət bəxş etmiş və onun nəslindən elə bir alim yetirmişdir ki, özünün dərin elmi, yüksək iste`dad və bacarığı ilə din və ümmətə misilsiz xidmət göstərmişdir...”

O, fəaliyyət göstərdiyi dövrdə müsəlmanların mərcə` müctəhidi və İmam Zamanın (ə) naib və xadimi olmuşdur. Mürtəza Ənsari, fədası olduğumuz İmam Zaman (ə)-ın həqiqi aşiqi olmaqla yanaşı, daim onun hüzurunda olduğunu hiss etmiş və bir an da olsun Həzrətin məqamından qafil olmamışdır. Şagirdlərindən biri onunla əlaqədar başına gələn bir əhvalatda deyir:

Bir gün gecə yarısı Kərbəlada küçə ilə gedirdim. Küçələr qaranlıq və palçıq olduğundan özümlə neft lampası da götürmüşdüm. Birdən, uzaqdan bir şəxs gördüm və yaxınlaşdıqda bildim ki, ustadım Şeyx Ənsaridir. Öz-özümə dedim: Görəsən, gecənin bu vaxtı gözləri də zəif gördüyü halda palçıq küçələrlə hara gedir? Kimsə tə`qib etməsin deyə onu qorumaq üçün arxasınca düşdüm. Şeyx yavaş-yavaş gedib bir evin qapısına çatdı və elə dayandığı yerdə səlis “Came`” ziyarətnaməsini oxumağa başladı. Sonra evə daxil oldu və daha nə baş verdiyini bilmədim. Amma diqqətlə qulaq asarkən Şeyxin orada kiminləsə danışdığı eşidilirdi. Bir saatdan sonra İmam Hüseyn (ə)-ın ziyarətgahına getdim və Şeyxi orada gödüm.

Sonralar Şeyx Ənsaridən həmin gecə nə baş verdiyini soruşdum və çox isrardan sonra buyurdu: Bə`zən İmam Zamanın (Allah zühurunu yetirsin) hüzuruna yetişmək üçün icazə alıram və bundan sonra sənin heç vaxt tapa bilməyəcəyin həmin evin yanına gedib, orada “Came`” ziyarətnaməsini oxuyuram. İkinci icazə verildikdə isə Həzrətin hüzuruna daxil olub, ondan məni maraqlandıran sualların cavabını soruşuram.

Sonra Şeyx (Allah ona rəhmət etsin) mənə tapşırdı ki, özü dünyadan köçməmiş heç kəsə bu əhvalatı danışmayım.

## «Qırx Üçüncü Görüş»

Bəhreyn Avropa və hegemon dövlətlərin istismarı altında olduğu dövrlərdə müsəlmanları razı salmaq üçün, bir sünni məzhəbli nasibini[1] ora hakim tə`yin etmişdilər. Onun şiələrə qatı düşmən olan bir vəziri var idi. Bəhreyn əhalisinin əksəriyyəti şiə və Əhli-beyt aşiqi olduğu üçün onlara qarşı düşmənçilik edərdi. O, daim şiələrə əzab-əziyyət verər, onların məhv olub aradan getməsi üçün müxtəlif hiylələrə əl atardı.

Günlərin bir günü vəzir hakimin yanına gəlib ona üzərində *«La İlahə illəllah Muhəmmədun Rəsullullah və Əbu Bəkru və Uməru və Usmanu və Əliyyu xuləfai rəsulullah.»* (Allahdan başqa Allah yoxdur. Məhəmməd onun rəsuludur. Və Əbu Bəkr, Ömər, Osman və Əli Allah peyğəmbərinin xəlifələridir.) yazılmış təbii işarələri olan bir nar təqdim edir. Hakim diqqətlə nara baxdıqdan sonra tam yəqinliklə belə qənaətə gəlir ki, narın üzərindəkilər şiələrin Əlinin Peyğəmbər (s)-dən sonra xəlifə olmasına dair iddialarını batil edəcək qəti dəlil ola bilər. Üzünü vəzirə tutub deyir: İndi nə fikirləşirsən? Biz onlarla nə edək? Vəzir deyir: Şiələr təəssübkeş bir camaatdır. Onlar hətta, əsaslı dəlilləri belə qəbul etmirlər. Bunun üçün də gərək onların ən böyük alimlərini çağırıb bu narı göstərək və onlara dörd yol təklif edək; ya əsassız məzhəblərindən əl çəkməli, ya zillətlə cizyə[2] verməli, ya kişiləri öldürülüb qadınları əsir olmalı, ya da bu narın müqabilində əsaslı dəlil gətirməlidirlər!

Hakim xəbis vəzirin təklifini qəbul edir. O, vaxt tə`yin edib şiə alimlərini saraya çağırtdıraraq onlara xəbər göndərir ki, mühüm bir məsələ barədə söhbət etmək istəyir. Alimlər yığıncaqda hazır olduqdan sonra hakim narı onlara göstərib vəzirin təklifini söyləyir və tələb edir ki, tez bir vaxta dürüst cavab versinlər. Əks təqdirdə, onların özlərini öldürəcək, qadınlarını əsir götürəcək və var-dövlətlərini isə qarət edəcəkdir. Sonra bildirir ki, onlara edəcəyi ən böyük güzəşt

---

[1] Nasibi – Əliyə (ə) düşmən olanlara verilən ad.

[2] Vergi.

onlardan zillətlə cizyə alması olacaqdır. Bir sözlə, şiələrlə eynilə İslam dövlətinə tabe olan qeyri-müsəlmanlarla necə rəftar olunursa, elə rəftar olunacaqdır.

Şiə alimləri narı görüb hakimin sözlərindən bədənləri lərzəyə düşür və özlərini itirirlər. Onlar nə edəcəklərini və nə cavab verəcəklərini bilmirlər. Alimlərdən bir neçəsi hakimə deyir: Əgər mümkündürsə, bizə üç gecə möhlət ver, sənə cavab verə bilək. Yox, əgər verə bilməsək, hər nə istəsən bizə qarşı həyata keçirə bilərsən. Hakim onlara üç gecə möhlət verir.

Alimlər qorxu və hürkü içində bir yerə toplaşıb, birgə məşvərət edirlər. Nəhayət, hamılıqla belə bir qərara gəlirlər ki, təqva əhlindən olan on nəfər zahid alim seçsinlər və onların da arasından üç nəfər üstününü tə`yin edib, hər gecə biri səhraya getsin və İmam Zaman (ə)-a təvəssül etməklə məsələnin həlli yolunu tapsınlar. Onlar belə də edirlər. Birinci gecə onlardan birinə deyirlər: Bu gün səhraya gedib orada ibadətlə məşğul ol və dua, münacat edərək Allahın qapısını döy. Sonra isə İmam Zaman (ə)-a təvəssül edib ondan kömək dilə. Bəlkə, Həzrətdən bu müəmmanın cavabını öyrənə bildin.

Qəlbi iman və təqva ilə dolu həmin alim ixlas və sədaqətlə səhraya uz tutur və səhərə qədər Allahla münacat etdikdən sonra, İmam Zaman (ə)-a təvəssül edir. Lakin, təəssüflər olsun ki, bir şey görmir və cavabsız qayıdır. İkinci axşam o biri təqvalı alim səhraya üz tutur. O da birinci alim kimi səhərə qədər münacat və dua edib, İmam Zaman (ə)-a andlar versə də cavabsız gəlir. O da mə`yus halda camaatın yanına qayıdıb bir nəticə vermədiyini bildirir.

Vəziyyəti belə görən şiələr sonuncu gecəni iztirab içində keçirirlər. Daha onların cavab üçün yalnız bir gecələri qalırdı. Əgər bu gecə də cavab əldə edə bilməsələr, çarələri kəsiləcəkdi. Hamı bir nəfər kimi əllərini duaya qaldırır və seçilən üçüncü alim və təqvalı şəxs Məhəmməd ibn İsa səhraya göndərilir. O da ayaqyalın, başı açıq səhraya tərəf üz tutur. O gecə həmişəkindən çox qaranlıq olur. O, bir guşəyə çəkilib dua və münacatla məşğul olmağa başlayır. Allahın dərgahına üz tutaraq düçar olduqları bəlanı İmam Zaman (ə)-ın vasitəsilə aradan qaldırmasını istəyir. O gecə xeyli ağlayır və

çalışır ki, özündə qeyri-adi ixlas əldə etsin. Səbirsizliklə İmam Zamanın intizarını çəkir. Gecənin sonunda birdən, qulağına bir səs gəlir. Diqqətlə qulaq asdıqda, mə`lum olur ki, kimsə onu adı ilə çağırıb deyir: Ey Məhəmməd ibn İsa! İxtiyar sahibindən nə istəyin var? Cavab verir: Əgər sən doğrudan da ixtiyar sahibimsənsə, mənim nə istədiyimi bilməlisən və mənim deməyimə heç bir ehtiyac yoxdur! Deyir: Elədir, düz deyirsən. Sən şiələrin düçar olduqları bəlaya – hakimin üzərində yazı olan narla əlaqəli olan məsələyə cavab tapmaq və onun hədə-qorxusundan yaxa qurtarmaq üçün bu səhraya gəlmisən.

Məhəmməd ibn İsa deyir: Ağamdan mö`cüzəli sözləri eşitcək, üzümü ona tutub dedim: Bəli, siz bizim başımıza gələnlərdən agahsınız. Siz bizim imamımız, həm də bu bəlanı bizdən dəf etməyə qadirsiniz. Həzrət buyurdu: Ey Məhəmməd ibn İsa! Allahın lə`nətinə gəlmiş vəzirin evində bir nar ağacı vardır. Onun meyvələri böyüməyə başladıqda, vəzir onlara gildən hazırlatdığı məxsus qəliblər keçirir. Qəliblərdə həmin yazılar vardır ki, narlar böyüdükcə onların üzərinə həkk olur. Səhər açıldıqda hakimin yanına get və ona cavab verməyə hazır olduğunu bildir. Sonra de ki, şəxsən vəzirin evinə getməyincə kimsəyə bir söz deməyəcəyəm. Evə daxil olduqda, hakimə de ki, bunun cavabını sağ tərəfdəki otaqda deyəcəyəm. Vəzir bunu eşitdikdə, sizi həmin otağa daxil olmağa qoymayacaq. Lakin, sən israr et və qoyma ki, vəzir otağa tək daxil olsun. Çalış, otağa birinci sən özün girəsən. Otaqda taxçanın üzərində bir kisə var və qəliblər də onun içindədir. Onu götürüb hakimin yanına apar. Sonra narı həmin qəlibə qoy və bununla da o, həqiqətdən agah olsun. Sizə başqa bir sirr də açıram. O da budur ki, hakimə deyərsən İmamın bir mö`cüzəsi də var. O deyir ki, əgər narı iki yerə bölsəniz, onun içində gilələr yerinə kül görəcəksiniz. Camaatın gözləri önündə vəzirdən narların birini bölməyi tələb edin, qoy hamı bu həqiqətin şahidi olsun. Vəzir bu işi gördükdə, narın içindən çıxan kül onun saç-saqqalına yapışacaqdır.

Məhəmməd ibn İsa bu sözləri fədası olduğumuz İmam Zaman (ə)-dan eşitdikcə, qol-qanad açır və sevindiyindən Həzrətin ayaqları altındakı torpağı öpməyə başlayır. Sonra o, böyük fərəhlə camaatın yanına qayıdır. Səhər tezdən yerli

şiələrlə birlikdə hakimin yanına gedir və İmam Zaman (ə)-ın ona dediklərini yerinə yetirir. Hakim soruşur: Sizin İmamınız kimdir? Məhəmməd ibn İsa İmam Zaman (ə)-a qədər bütün mə`sum imamların adlarını çəkməyə başlayır. Hakim ona deyir: Əlini ver, səninlə bey`ət edim! Mən bu andan şiə məzhəbini qəbul edirəm.

Beləliklə, hakim özü də aşkar mö`cüzəni müşahidə etdikdən sonra şiə məzhəbini qəbul və vəzirini isə edam edir. Özü də bir daha şiələrdən üzrxahlıq istəyib, həqiqi müsəlman olur.

"Nəcmus-Saqib"də nəql olunan bu əhvalat Bəhreyndə çox məşhurdur. Hamı bu əhvalatı danışır və indinin özündə də Məhəmməd ibn İsanın qəbrini böyük ehtiramla ziyarət edirlər.

## *«Qırx Dördüncü Görüş»*

Seyyid Həsən Əbtəhi deyir ki, rəhmətlik atam seyyid Rza Əbtəhi dəfələrlə bu əhvalatı müxtəlif vaxtlarda söyləmişdir. Deyirdi ki, təxminən on altı yaşım olardı. Atam da vəfat etmişdi. Özümdən böyük bacım Məşhədin "Yuxarı Mayun" adlı ətraf yaylaqlarından birində ərdə idi. Məşhəddə havalar qızdığından biz də "Yuxarı Mayun"a getmək istəyirdik. O vaxtlar həmin məntəqələrə maşın getmirdi. Bunun üçün də bir neçə uzunqulaq kirayə edib birinə anamı, birinə özümdən kiçik olan bacımı mindirib, o birinə də şəxsi əşyalarımızı yükləyib yola düşdük. Uzunqulaqların ədəbsiz sahibi cavan oğlan da bizimlə birgə gəlirdi. Mayun çayına təxminən üç kilometr qalmış o, bizdən aralı bir nəfərlə söhbətə başladı. Biz isə qaya tərəflə hərəkət edirdik. O, uzaqdan bizi səsləyib dedi ki, çayın alt tərəfi ilə gedin. Biz isə onun sözlərinə e`tina etməyib yolumuza davam etdik. Çünki, əvvəlcədən demişdik ki, biz Yuxarı Mayuna tərəf gedəcəyik.

Yuxarı Mayun çayına üç kilometr qalmış Aşağı Mayun çayının başlanğıcında, sıx ağaclıqlar altında özünü bizə çatdırıb dedi: Uzunqulaqların kirayəsini verin və yolun qalan hissəsini isə piyada gedin. Anam ondan çox xahiş etdi ki, bizi

Yuxarı Mayun çayına çatdır və nə qədər istəyirsən, əlavə pul al. Amma o, bunu qəbul etmədi. Anam isə havanın qaralmasıyla onun fürsətdən istifadə edərək bizimlə olan qadın və cavan qıza qarşı cinayətə əl atacağı ehtimalını fikirləşdikcə, bərk nigarançılıq keçirirdi.

Hava artıq tam qaralmış və sıx ağaclar altında isə göz-gözü görmürdü. Anam o qədər nigarançılıq hissi keçirirdi ki, bilmirdi nə etsin. Birdən, ayağa qalxıb mənimlə bacımı kötəkləyə-kötəkləyə dedi: Məgər siz seyyid deyilsiniz, nə üçün cəddinizi köməyə çağırmırsınız? Biz də ağlaya-ağlaya "Ya Cədda!" (Ey cəddimiz!) – deyərək fəryad etməyə başladıq. Bir də gördük ki, çayın aşağı tərəfindən əyinində zolaqlı əba, başında yaşıl əmmaməli uca boylu, yaraşıqlı bir seyyid gəlir. Bizə yaxınlaşandan sonra bir şey soruşmadan həmin cavana tərəf gedib dedi: Ay nanəcib! Peyğəmbər övladını bu qaranlıq havada, çayın ortasında iztirab içində qoyursan? O, bu sözləri deyərkən nə bizi tanıyır, nə də ki, bizdə seyyidliyimizi bildirən bir əlamət var idi. Cavan isə bir söz demədən tez aradan çıxdı. Sonradan bizə mə`lum oldu ki, o, olduqca bədəxlaq, hamını incidən bir mərdimazar imiş. Seyid ardınca düşüb, onu tutub gətirdi və dedi: Get uzunqulaqları gətir və onları istədikləri yerə çatdır. O da bir söz deməyib itaət etdi və yol boyu bir kəlmə də olsun danışmadı. Sonra seyyid buyurdu: Məqsədə çatana qədər sizinlə birgə olacağam. Biz isə havanın qaraldığını tam unutmuşduq. Çünki, gündüz tək hər tərəfi görür və yolumuza çox asanlıqla davam edirdik. Bacımgilin evi elə bir yerdə idi ki, ətrafında nə bir ev, nə də ki ağaclıq var idi. O, bizi çatdırıb soruşdu: Çatdınızmı? Dedik: Bəli və dərin minnətdarlığımızı bildirdik. Anam tam əmin idi ki, o, İmam Zaman (ə)-dır. Mənə dedi: Ağanı evə də`vət elə, bir az istirahət etsin. Bir də baxıb gördüm ki, artıq yoxdur və hava da qaralmışdır. Nə qədər onu səslədimsə, kimsə səsimə cavab vermədi. Sonra yadıma düşdü ki, çayın kənarında hava qaranlıq olsa da, biz onun əynindəki paltarın rəngini, üzünün bütün cizgilərini belə görə bilirdik.

Atamın bu əhvalatı nəql etməsində əsas məqsədi seyyidliyimizi sübuta yetirmək olmuşdur. Çünki, Həzrət həmin cavanı tənbih edərək demişdi: Ay nanəcib! Peyğəmbər övladını

bu qaranlıq havada, çayın ortasında iztirab içində qoyursan? Atam və nənəm əmindirlər ki, həmin şəxs İmam Zaman (ə) olmuşdur.

## «Qırx Beşinci Görüş»

Seyyid Həsən Əbtəhi deyir: Bir vaxtlar Tehranda Əbdülkərim adlı pinəçi bir seyyid var idi ki, bir çox alimlərin dediyinə görə, bə`zən İmam Zaman (ə) onun kiçik dükanına gələr, yanında əyləşərək onunla söhbət edərmiş. Bunun üçün də bə`zən onlar da İmam Zaman (ə)-ı görmək ümidi ilə saatlarla onun dükanında oturardılar ki, bəlkə Həzrətlə görüşmək səadəti onlara da nəsib ola. Seyyid Əbdülkərim isə dünyaya bağlı adam olmamış, hətta şəxsi evi belə yox imiş və yeganə gəlir mənbəyi də köhnə ayaqqabılara pinə vurmaq olmuşdur. Tehran bazarının hörmətli və bir çox böyük alimlərin e`timad etdiyi tacirlərindən biri belə bir əhvalat nəql edir:

Seyyid Əbdülkərim Tehranda kirayə evdə yaşayırdı. Ev sahibi onun gəlirinin aşağı olduğundan daha mənzili başqa birisinə vermək qərarına gəlib, ona evdən çıxmaq üçün on gün möhlət verir. Müddət başa çatdıqda Seyyid Əbdülkərim münasib ev tapa bilmədiyi üçün söz verdiyi kimi, ev əşyalarını götürüb küçənin bir küncünə yığır. O, nə edəcəyini və harada qalacağını belə bilmir. Elə bu vaxt İmam Zaman (ə) onun yanına gəlib deyir: Heç narahat olma, əcdadlarımız da çox müsibətlər çəkiblər. Seyyid Əbdülkərim deyir: Düzdür, amma onlardan heç biri kirayə müsibətinə düçar olmayıb. Fədası olduğumuz İmam Zaman (ə) gülümsəyərək buyurur: Düzdür, amma biz bütün işləri yoluna qoymuşuq. Mən gedirəm, bir neçə dəqiqədən sonra işin həll olacaq.

Tacir əhvalatın davamında deyir ki, bir gecə fədası olduğum İmam Zaman (ə)-ı yuxuda gördüm və mənə dedi: Filan evi alıb açarlarını apar ver filan küçədə oturan Seyyid Əbdülkərimə.

Səhər yuxudan durub saat səkkizdə həmin mənzilə getdim. Ev sahibi nə üçün gəldiyimi biləndə, təəccüblə mənə

dedi: Borcum var idi, axşam İmam Zaman (ə)-dan kömək dilədim və gecə yatıb yuxuda onu gördüm. Mənə evimi satıb borcumu ödəməyi əmr etdi.

Mən də həmin evi alıb, açarlarını aparıb Seyyid Əbdülkərimə verdim. Ora çatdıqda, İmam Zaman (ə) təzəcə oradan getmişdi.

Allah-təala o səxavətli tacir və Seyyid Əbdülkərimə rəhmət etsin.

## «Qırx Altıncı Görüş»

"Riyazül-Üləma" kitabında İbn Cünö`mani barədə deyilir: İmam Zamanla (ə) görüşən şəxslərdən biri də İbn Cünö`manidir. O deyir: Bir dəfə İmam Zamanla (ə) görüşümdə Həzrətdən soruşdum: Ey mənim sərvərim! Sizin həm Nö`maniyyədə yeriniz var, həm də Hillədə. Nə zaman Nö`maniyyədə və nə zaman Hillədə olursunuz? Buyurdu: Çərşənbə axşamı axşamlar və çərşənbə günləri Nö`maniyyədə, cümə axşamı axşamlar və cümə günləri isə Hillədə oluram. Amma Hillə camaatı mənim ziyarət məqamıma xass olan əməlləri yerinə yetirmirlər. Əgər hər kəs bu məqama xass əməlləri yerinə yetirsə, yə`ni mənə və mə`sum imamlara on iki dəfə salavat göndərib salam versə və iki rükət namaz qılıb Allah-təala ilə münacat etsə, Allah-təala onun hər diləyini qəbul edər.

Dedim: Ey mənim sərvərim, namazda Allah-təala ilə necə münacat etməliyəm? Buyurdu: Namazda bu duanı söylə:

*«Allahummə, qəd uxizət-tə`dibu minni hətta məssəniyəz-zurru və əntə ərhəmur-rahimin. Və in kanə maqtərəftuhu minəz-zunubi, əstəhiqqu bihi əz`afə əz`afə ma əddəbtəni bihi və əntə həlimun zu ənat. Tə`fu ən kəsirin, yəsbiqu əfvukə və rəhmətukə əzabək.»*

İmam Zaman (ə) üç dəfə bu duanı təkrar etdi və mən də onu əzbərlədim.

Mərhum Hacı Nuri deyir: Nö`maniyyə, İraqın Bağdadla Vasit arasında yerləşən şəhərlərindən biridir. Çox güman ki, “Qeybət” kitabının müəllifi Şeyx Nö`mani elə həmin şəhərdən olmuşdur.

## *«Qırx Yeddinci Görüş»*

Mərhum Əllamə Məclisi (Allah ondan razı olsun) “Biharül-Ənvar” və mərhum Nuri “Nəcmus-Saqib” kitabında Hillədə Əbu Racih Həmmami ilə bağlı məşhur və bir çox inanılmış şəxslərdən nəql olunmuş bir əhvalat qeyd etmişlər. Əhvalatı zöhd və ibadətdə şöhrət qazanmış tədqiqatçı alim Şəmsəddin Məhəmməd ibn Qarun belə nəql edir:

Bir vaxtlar Hilləyə şiələrlə müxalif olan nasibi Mərcan Səfir adlı şəxs hakim tə`yin olunmuşdu. Bir gün şiələrə kin bəsləyən bir qrup adam ona deyir ki, Əbu Racih adlı bir şiə səhabələrdən bə`zilərinə lə`nət deyir. Mərcan dərhal onu yanına çağırtdırır və əmr edir ki, onu tez şallaqlasınlar. Mə`murlar onu o qədər vururlar ki, az qalır həlak olsun. Çubuq və qamçı ilə bütün bədənini yaralayır və dişlərindən bir neçəsini də sındırırlar. Dilini bayıra çıxarıb simlə bağlayır, burnunu isə deşib ip keçirir və ipin ucundan tutub çəkə-çəkə Hillənin küçələrində onu dolandırırlar. Bir sözlə, ona o qədər əzab-əziyyət verirlər ki, verilən işkəncələrə dözə bilməyib özündən gedir. Mə`murlar onun vəziyyətini hakim Mərcana xəbər verdikdə, o qəddar insan Əbu Racihin öldürülməsini əmr edir. Camaat hakimə müraciət edərək deyirlər: Əbu Racih qoca və əldən düşmüş bir insandır. O, elə ağır vəziyyətdədir ki, siz onu öldürməsəniz də özü bu gecə dünyasını dəyişəcəkdir.

Əbu Racihin övladları atalarının yarımcan bədənini evə aparırlar və sağ qalacağına əsla ümid etmirlər. Lakin həmin günün səhəri camaat onu yoluxmağa getdikdə ayaq üstə namaz qıldığının şahidi olurlar. Onun bədənində nə bir yara yeri var idi, nə də ağızında bir sınıq dişi. Camaat heyrətə gəlib ondan nə baş verdiyini soruşurlar. Əbu Racih deyir: Gecə yarısı ölümcül hala düşmüşdüm və ölüm mənim bir

addımlığımda idi. Qəlbimdə Allahdan dadıma çatmasını və ağam İmam Zaman (ə)-dan mənə kömək etməsini dilədim. Otaq qaranlıq idi, bir də gördüm hər yer nura qərq oldu və İmam Zaman (ə) gözlərim önündə təcəlli etdi. O, mübarək əlini bədənimə çəkib buyurdu: *«Get ailənin ehtiyaclarını tə`min etmək üçün işə başla. Və bil ki, Allah-təala sənə şəfa vermişdir.»* İndi də gördüyünüz kimi tam sağlamam.

Əhvalatı nəql edən Şeyx Şəmsəddin Məhəmməd ibn Qarun deyir: And olsun Allaha, daim Əbu Racihlə sıx əlaqədə olurdum və hər zaman onun hamamından istifadə edirdim. O arıq, sarışın, qozbel və zahirən yaraşıqsız bir şəxs idi. Camaat onun evinə getdiyi gün mən də onlarla birliklə idim. Amma həmin gündən e`tibarən o olduqca yaraşıqlı qiyafə almış, sağlam, gümrah və cüssəli bir şəxsə çevrilmişdi. Hətta ilk baxışda onu tanımadıq və sanki qarşımızdakı iyirmi yaşlı yaraşıqlı bir cavan idi. Ən təəccüblüsü isə bu ki, o, ömrünün sonunadək bu görünüşdə qalıb əsla dəyişilmədi.

Bu əhvalat camaat arasında yayıldıqda, hakim onu öz yanına çağırır. O, Əbu Racihi dünən qanına qəltan, bu gün isə sağlam və iyirmi yaşlı yaraşıqlı cavan qiyafəsində gördükdə, çox qorxur və həmin gündən e`tibarən öz sarayında İmam Zaman (ə)-ın Hillədəki məqamına tərəf arxasını belə çevirməkdən çəkinir. Bu hadisədən sonra Hillə şiələrinə yaxşılıq edib məhəbbət göstərməyə çalışsa da, lakin çox keçməmiş Allahın qəzəbinə gələrək cəhənnəmə vasil olur.

## *«Qırx Səkkizinci Görüş»*

Mərhum Hacı Nuri “Nəcmus-Saqib” kitabında Mühyəddin Ərbilidən belə bir əhvalat nəql edir:

Bir gün atamla birgə bir yerdə əyləşmişdik və yanımızda oturan başqa bir şəxs isə divara söykənib mürgüləyirdi. Birdən onun başındakı əmmamə sürüşüb düşdükdə, başında bir neçə qılınc yarasının izlərini gördüm. Atam ondan təəccüblə soruşdu: Bunlar nədir belə? Dedi: Siffeyn döyüşündə başıma dəyən zərbələrdir. Atam daha da təəccüblənərək dedi: Siffeyn

döyüşü Əli (ə)-ın zamanında baş vermişdir, sən isə o zaman yox idin! Dedi: Bir neçə il bundan qabaq Misirə gedirdim. Yolda “Qərrə” qəbiləsindən bir nəfərlə tanış oldum və yol boyu biri-birimizlə müxtəlif mövzular barədə söhbətimiz düşdü. Söhbət əsnasında Siffeyn döyüşünə də toxunduq. O dedi: Əgər Siffeyn döyüşündə olsaydım, qılıncımı Əli və tərəfdarlarının qanı ilə sirab edərdim. Dedim: Əgər mən də o zaman olsaydım, qılıncımı Müaviyə və tərəfdarlarının qanı ilə sirab edərdim. Belə isə mən Əli (ə)-mın, sən isə Müaviyənin səhabələrindənsən. Haydı, gəl döyüşək!

Bir sözlə, qılınclarımızı siyirib biri-birimizə zərbələr endirdik. Nəhayət, aldığım yaralardan huşumu itirib yerə yıxıldım. Bir azdan əlində nizə tutan bir şəxs məni silkələyib oyatdı. Gözümü açıb başım üzərində bir süvari gördüm. O, atdan düşüb mübarək əllərini bədənimdəki yaralara çəkdi və onlar dərhal sağaldı. Sonra buyurdu: Burda gözlə. Bunu deyib, dərhal gözdən itdi. Bir azdan sonra bir əlində həmin şəxsin başı, o biri əlində isə atının yüyəni ilə qayıtdı. Mənə buyurdu: Bu da düşməninin başı. Sən bizə kömək etdin, biz də sənə. Kim Allaha yardımçı olsa, Allah da ona yardım edər.

Onun kim olduğunu soruşduqda, buyurdu: Mən Höccət ibn Həsən, İmam Zamanam. Bundan sonra kim səndən başındakı yaralar barədə soruşsa, ona de ki, Siffeyn döyüşündən qalıb.

## *«Qırx Doqquzuncu Görüş»*

Seyyid Həsən Əbtəhi deyir ki, o vaxtlar Qumda tələbələrindən biri ailə qurmaq istədikdə, oxuduğu mədrəsədə artıq ona otaq verilmirdi. O da təbii olaraq qalmaq üçün özünə bir ev kirayə etməli idi. Biz də o vaxt imkanımız olmadığından bizimlə qohumluğu olan yoldaşlarımdan biri ilə üç otaqlı bir mənzil kirayə etdik. Otaqlardan birini mütaliə, kitabxana və dostlarla görüş yeri, o biri iki otağı isə yataq və istirahət üçün ayırdıq.

Bir gün kitabxana otağında oturub mütaliə edirdim. Birdən, ev sahibəsi qapını döyüb evə daxil oldu və həyat yoldaşıma bəhanə ilə yersiz iradlar tutdu və şikayətləndiyini bildirdi. Bu sözləri eşitcək, qəlbim qırıldı və elə həmin an dostumla birgə fədası olduğumuz İmam Zaman (ə)-a təvəssül etmək üçün Cəmkəran məscidinə yola düşdük. Gün batana yaxın idi və orada dua və münacatla məşğul idik. Birdən, özümdə vəsf edə bilmədiyim qeyri-adi bir halın yarandığını hiss etməyə başladım. Elə həmin an İmam Zaman (ə) mənə buyurdu: Evə qayıtdıqda, görəcəksən ki, sizin üçün ev alacağı şəxs qonaq otağında oturub sizi gözləyir.

Mən eşitdiklərimi dostuma dedim və birbaşa evə qayıtdıq. Qapını açdıqda, gördük ki, qəbul otağının işığı yanır. Həyat yoldaşımdan soruşdum: Qonağımız var? Dedi: Bəli, filankəsdir (Tehranda al-verlə məşğul olan dostlarımdan birinin adını çəkdi. O, Quma gələrkən bizə də baş çəkərdi. Amma bizə ev alası qədər də dövlətli deyildi).

Nə isə, görüşüb biri-birimizlə hal-əhval tutduq. Sonra şam süfrəsi açıldı. Şam yeməyini yeyib qurtardıqdan sonra qonağımız dedi: Eşitmişəm Qumda hazır qəbir yerləri satırlar. Mən gəlmişəm ki, qohumlardan birinə qəbir yeri alım. Dedim: Eybi yoxdur, düzələr. Bundan sonra aramıza bir müddət sükut çökdü.

Mən həmin gecə İmam Zaman (ə)-a təvəssül edib dedim: Mə`lum olur ki, ömrümüzün sonudur və dostumuz da bizim üçün qəbir yeri almaq istəyir. Biz onunla dost-yoldaş olduğumuz üçün sözsüz ki, bizi özü dəfn edəcəkdir. Amma səhər yeməyi vaxtı gördük ki, onun fikri tamamilə dəyişilib. Yeməyini yeyib qurtardıqdan sonra dedi: İnsan harada dəfn olursa-olsun, fərqi yoxdur. Əsas odur ki, insanın əməli xeyirli olsun ki, bərzəx aləmində də narahatlıq keçirməsin. İndi istər qəbri üzərində tikili olsun, ya olmasın.

Biz isə bir söz demədən onu dinləyirdik. Sonra dedi: Məncə, bu mənzil sizin üçün darısqaldır. Belə fikirləşdim ki, sizə Qumda heç olmasa dörd otaqlı bir ev alım. Onun iki otağı sizin, iki otağı isə Quma gəldiyimiz zaman mən və dostlarım qalmağı üçün. Mən dedim: Siz ev alın, amma biz orada qalmayacağıq.

Belə bir cavabın əsas səbəbi isə bu idi ki, adətən Tehran əhalisindən bə`ziləri Qumda ev aldıqları zaman onu bir tələbəyə verərdilər ki, özləri və ya dostları gecə-gündüz Quma gəldikləri zaman onlara qulluq etsin. Bu isə demək olar ki, hər həftə təkrar olunurdu.

Qonağımız dedi: Elə isə mənim üçün Qumda bir ev alın, nə vaxt daha yaxşısını tapsanız mənə xəbər verin. Sonra o, Tehrana qayıtdı.

Bu əhvalatdan sonra mən neçə gün idi ki, özümü çox narahat hiss edirdim. Çünki, mənə ev və`d verilmişdi. İndi də ki, əvvəl qəbirdən danışılır, sonra isə ev əvəzinə bizi evə qulluqçu götürürlər. Bütün bunlara görə İmam Zaman (ə)-dan bərk gileyləndim. Bir gün yuxuda gördüm ki, başında araqçın, çiyininə əba atmış bir tacir bizimlə görüşüb deyir: Gəlin mənzilə baxın, əgər xoşunuza gəlsə sizin üçün alaq. Biz onunla altı otağı olan bir mənzilə getdik. Evin sütunlarından birində çat olsa da, mən onu bəyəndim və həmin şəxs evi qonağımızdan pulla alıb bizə verdi.

Yuxadan ayılıb yuxuda gördüklərimi dostuma danışdım. O da belə yozdu ki, Allahın istəyi ilə ev-eşik sahibi olacağıq. Lakin həmin gün həmin Tehranlı qonağımızdan belə bir məktub aldıq. Filan ünvanda ev satılır, xahiş edirəm gedib baxasınız, əgər xoşunuza gəlsə ev sahibinə deyin mənə xəbər etsin və mən də gəlim evi alım.

Biz də onun dediyi ünvana getdik və orada bizi dünən gecə yuxuda gördüyümüz şəxs qarşıladı. Hətta onun başında həmin araxçın çiyinində də həmin əba var idi. Dostuma dedim: Əgər bu ev mənim yuxuda gördüyüm həmin ev olarsa, onda deməli ev bizim üçün alınır.

Həmin şəxs bizi evə də`vət etdi, baxıb gördüm ki, o mənim yuxuda gördüyüm altı otaqlı və sütunlarından birində çat olan həmin evdir. Amma ev sahibi evin qiymətini olduqca çox deyib bizimlə razılaşmadı. Bizi gətirən dəllal dedi: Bu ev onun dediyi qiymətə dəymir, gedək sizin üçün başqa bir ev tapaq. Dostuma yavaşca dedim: Bu evi biz alacağıq və o elə bizə də məxsus olacaqdır. Amma bunun necə olacağını bir Allah bilir.

Həmin günün səhəri ev sahibi məni həzrət Mə`sumənin ziyarətgahının həyətində görüb dedi: Səhər açılandan sizi axtarıram. Həyat yoldaşım dünən gecə yuxuda görmüşdür ki, bir şəxs ona deyir: “Nə üçün onlarla razılaşmamısınız? Niyə onları qapıdan geri qaytarmısınız?” Xülasə, əgər evi almaq istəyirsinizsə, hər qiymətə sizinlə razılaşarıq.

Bundan sonra mən Tehranlı dostumun sifariş göndərdiyi həmin şəxsin evinə gedib hər şeyi ona danışdım. O da dedi: Elə deyil, Tehranlı dostumuz evi sizin üçün almaq istəyir. Bunu deyib dəhal ona bir məktub göndərdi və o da bir neçə gündən sonra Quma gəlib həmin evi bizim üçün aldı. Amma əxlaqım buna yol vermədiyi üçün pulu ondan almaq istəmirdim. O, israr etdiyimi görüb dedi: Bunu bil ki, evin pulunu mən vermirəm. Onu verən şəxs nə sizi tanıyır, nə də ki, siz onu. Bunun üçün də kimsənin minnətini çəkməyəcəksiniz. Siz yalnız və yalnız İmam Zaman (ə)-a təşəkkür edin.

Sonradan Cəmkəran məscidinə getdiyim zaman yenə də özümdə qeyri-adi hal hiss etməyə başladım. Həmin halda İmam Zamana (ə) üzümü tutub dedim: Bəs nə üçün elə birinci gecədə ev həmin şəxsin vasitəsilə alınmadı, əvvəl qəbir yerindən söz açıldı, bundan sonra başqa birisi üçün ev alınmaq qərarına gəlindi. Və nəhayət, iki aydan sonra verdiyiniz və`dəyə əməl edib bizə ev verdiniz?!

Buyurdu: Əgər elə birinci gün verilsəydi qədrini bilməyəcək və bundan çox sevinəcəkdiniz.

## «Əllinci Görüş»

Bu əhvalatı “Məfatihul-cinan” kitabından nəql edirik. Hacı Nuri deyir ki, bu əhvalatı mənə Rəşt sakini olan təqvalı, xeyirxah və əməlisaleh tacir seyyid Əhməd ibn seyyid Haşim ibn seyyid Həsən Musəvi Rəşti mənə nəql etmişdir. O, deyir:

1280-ci hicri şəmsi ilində həcc ziyarəti məqsədilə Rəştdən Təbrizə gedib, məşhur Təbriz taciri Hacı Səfər Əlinin evində qonaq oldum. Orada mə`lum oldu ki, hələ ziyarət karvanı hazır deyil. Mən bundan çox narahat oldum və nə

edəcəyimi fikirləşirdim. Bir də eşitdim ki, hacı Cabbar Cəludar Sədəhi İsfahani Trabzona getməyə hazırlaşır. Mən də ondan bir az mal kirayə edib onunla birlikdə yola düşdüm. Yolda axşamladığımız birinci gecədə hacı Molla Məhəmməd Baqir Təbrizi, (Təbrizli tacir) seyyid Hüseyn Təbrizi və hacı Əli adlı başqa üç nəfər şəxs də mənə qoşuldu. Səhər açıldıqda hamılıqla yola düşdük və nəhayət, Rum ərazilərinə gəlib çatdıq. Sonra oradan da Trabzona yola düşdük.

Yolda istirahət etdiyimiz yerlərdən birində hacı Cabbar Cəludar bizə dedi: Qarşıda gecələməli olacağımız yer çox qorxuludur, xahiş edirəm ləngiməyin, tez hərəkət edib dəstəyə qoşulun (bundan əvvəlki yerlərdə də bə`zən biz dəstədən aralı düşürdük). Səhərə iki saat yarım və ya üç saat qalmış olardı. Biz də tez hərəkət edib dəstəyə qoşulduq. Təxminən, üç kilometr getmişdik ki, yolda güclü qar yağmağa başladı və hava qaraldı. Yoldaşlarım başlarını örtüb sür`ətlə hərəkət etməyə başladılar. Özümü onlara çatdırmağa çalışsam da bu mümkün olmadı. Beləliklə, onlar yollarına davam edib getdilər, mən isə tək qaldım. Son dərəcə narahat və iztirab içində yolun kənarında atdan düşüb yerə əyləşdim. Özümlə cəmi altı yüz tümən xərclik pulum var idi. Fikirləşib belə qərara gəldim ki, səhərə qədər elə burada qalaram. Çünki, qaldığım yerə yaxın idim, ən pis halda geri qayıdıb özüm ilə bir neçə bələdçi və cangüdən götürüb onların köməyi ilə dəstəyə çata bilərdim. Bu fikirdə idim ki, bir də gördüm yolun kənarındakı bağda bağbana oxşar bir şəxs əlindəki bel ilə ağaclara vurub onların qarını tökür. Məni görcək, yaxınlaşıb fars dilində dedi: Kimsən? Dedim: Yoldaşlarım gedib, mən isə burada tək qalmışam və üstəlik yolu da itirmişəm. Dedi: Yolu tapmaq istəyirsənsə, nafilə namazlarını qıl.

Mən şam namazının nafiləsini qılmağa başladım. Namazları qılıb dua etdikdən sonra yenə yanıma gəlib dedi: Hələ getməmisən? Dedim: And olsun Allaha ki, yolu tanımıram. Dedi: “Camiə” ziyarətnaməsini oxu! Mən əsla “Camiə” ziyarətnaməsini əzbər bilmədiyim halda, birdən, onu səhvsiz əzbər oxumağa başladım. O, yenə də yanıma gəlib dedi: Sən hələ getməmisən? Qeyri-ixtiyari olaraq məni ağlamaq tutdu, bir təhər özümü saxlayıb dedim: Bəli

burdayam, axı yolu tanımıram, necə gedim. Dedi: Onda “Aşura” ziyarətnaməsini oxu. “Aşura” ziyarətnaməsini də əzbər bilmədiyim halda yenə onu da əvvəldən axıra qədər həzin səslə əzbərdən oxumağa başladım. Ziyarətnaməni oxuyub qurtardıqdan sonra Peyğəmbər Əhli-beytinə zülm edənlərə yüz dəfə lə`nət, onların özlərinə isə yüz dəfə salam dedim. Bundan sonra “Əlqəmə” ziyarətnaməsini də oxudum. Mən duanı qurtarmışdım ki, yenə o gəlib dedi: Hələ də getməmisən?! Darıxma, mən indi səni dəstəyə çatdıraram. O, uzunqulağına oturdu və belini də çiyininə qoyub dedi: Sən də mənim tərkimə əyləş. Mən də onun arxasında əyləşib atın yüyənini çəkməyə başladım. Amma nə qədər çəkdimsə, at yerindən tərpənmədi. Buyurdu: Atının yüyənini mənə ver! Mən atın yüyənini ona verdim. O, beli sol çiyininə qoyub sağ əli ilə atımın yüyənindən yapışdı. Bundan sonra at dərhal yoluna davam etdi. Yolda əlini dizimin üstünə qoyub buyurdu: Siz nə üçün gecə nafilələrini qılmırsınız? Nafilə, nafilə, nafilə... (tə`kid üçün onu neçə dəfə təkrar etdi) Sonra buyurdu. Siz nə üçün Aşura ziyarətnaməsini oxumursunuz? Aşura, Aşura, Aşura... Sonra buyurdu: Bəs nə üçün Camiə ziyarətnaməsini oxumursunuz? Camiə, Camiə, Camiə... Bununla da hər üçünün son dərəcə əhəmiyyətli olduğuna tə`kid etdi. O, yolu dairəvi gedirdi və birdən mənə buyurdu: Onlar sənin yoldaşlarındır. Baxıb gördüm ki, onlar doğrudan da mənim yoldaşlarım idi. Dəstəmaz almaq üçün yolun kənarındakı çaya tərəf enmişdilər. Onların yanına getmək üçün tez uzunqulaqdan düşüb ata minmək istəsəm də, ata minə bilmədim. O, uzunqulaqdan düşüb mənə ata minməyə də kömək etdi. Atımın başını yoldaşlarıma tərəf yönəltmək istəyərkən, birdən öz-özümə dedim: Bu qədər yolu gəlib mənə kömək edən bu şəxs, görəsən, kim idi? Onun mənimlə fars dilində danışmağı məndə başqa bir sual da yaratdı. Çünki həmin məntəqədə yalnız türklər yaşayır və yolüstü hərdən məsihilərlə də rastlaşmışdıq. Onun mənə nafilə namazlarını qılmağı, “Aşura” və “Camiə” ziyarətnamələrini oxumağı tapşırması və o qədər ləngidikdən sonra çox qısa müddətdə məni yoldaşlarıma çatdırması bir az da məni həyəcanlandırdı. Bunları götür-qoy edib başa düşdüm ki, o

şəxs İmam Zaman (ə) olmuşdur. Dönüb arxaya baxdıqda, artıq bir kimsədən əsər-əlamət yox idi.

## «Əlli Birinci Görüş»

Hacı Nuri (Allah ona rəhmət etsin) deyir: Son dərəcə əməli saleh və təqva sahibi olan Şeyx Məhəmməd Tahir Nəcəfi Kufə məscidinin xidmətçisi olmuş və uzun müddət ailəsi ilə birlikdə orada yaşamışdır. Mən özüm də onu uzun illər idi ki, təqvalı və dindar bir şəxs kimi tanıyırdım. Uzun müddət zöhd və Kufə məscidində ibadətlə məşğul olan təqvalı bir alim mənə şeyx Məhəmməd Tahirin təqva və dindarlığını tə`rifləyərək ondan belə bir əhvalat nəql etdi:

Keçən il Kufə məscidinə getmişdim. Onunla görüşüb hal-əhval tutdum. Mənə belə bir əhvalat danışdı: Neçə il əvvəl Nəcəf-Əşrəfin iki qəbiləsi arasında qarşıdurma yarandığından ziyarətçilər və elm adamlarının Kufə məscidinə gəlişi azaldı. Mənin evimin ehtiyacları da yalnız bu yolla tə`min olunduğu üçün maddi vəziyyətim həddindən artıq çətinləşdi. Neçə yetim uşağa da himayədarlıq etdiyimdən yaranmış şərait məni lap ağır vəziyyətə saldı.

Bir cümə axşamı idi. Mənim nə pulum qalmışdı, nə də ki, pul qazanmağa taqətim. Yetimlər acından nalə edir, mən isə dərd çəkirdim. Təndir adı ilə tanınan “səfinə” məhəlli ilə “dəkkətül-qəza” arasında üzü qibləyə oturub düşdüyüm vəziyyətdən Allah-təalaya gileyləndim. Axırda dedim: İlahi! Nə olar, mən bu vəziyyətimə razıyam, amma heç ağam İmam Zaman (ə)-ın mübarək camalını da görmək mənə nəsib olmur. Əgər bunu mənə nəsib etsən, Səndən bundan artıq bir şey istəməyəcəyəm və ömrümün sonunadək yoxsulluğuma səbir edəcəyəm. Birdən, qeyri-ixtiyari olaraq ayağa qalxdım və özümə gələndə gördüm ki, bir əlimdə ağ səccadə var, o biri əlimdən isə üzündən nur yağan alicənab, vüqarlı bir cavan tutmuşdur. Onun əynində qaraya çalan nəfis paltar var idi. Bunun üçün də mən onu şahzadələrə oxşatdım. Lakin, gördüm

ki, başında yaşıl əmmamə, yanında isə ağ paltarlı başqa bir şəxs vardır.

Nəhayət, biz üç nəfər “dəkkətül-qəza”ya tərəf gedib mehraba yaxınlaşdıq. Ora çatdıqda, mənə dedi: Ey Tahir, səccadəni sər! Mən də səccadəni sərdim. O, olduqca ağ və parlaq idi, amma onun nədən hazırlandığını bilmədim. Mən səccadəni qibləyə tərəf açdım və o şəxs onun üstündə dayandı və təkbir (Allahu Əkbər) deyib namaz qılmağa başladı. Ondan ətrafa nur yayılırdı. Mən onda əzəmət və nurun hər an artdığını hiss edirdim. Tədricən, onun nuru o qədər çoxaldı ki, artıq üzünü görə bilmədim. Onunla gələn şəxs də dörd qarış fasilə ilə arxada dayanıb namaza başladı.

Mən onlarla üzbəüz dayanıb fikirləşirdim ki, görəsən onlar kimdirlər? Namazı qılıb qurtardıqdan sonra birinci şəxsin arxasında namaz qılan şəxsi artıq görmədim. Amma birdən arxada namaz qılan şəxs görünməz oldu və gördüm ki, qarşıda namaz qılan şəxs isə hündürlüyü iki metir və yuxurısı taclı parlaq bir taxtın üzərində əyləşmiş və müqəddəs vücudu hər tərəfə işıq saçır. Vücudu o qədər parlaq idi ki, gözləri qamaşdırır və onu görmək olmurdu. Sonra üzünü mənə tutub dedi: Ey Tahir! Məni hansı hökmdara bənzətmişdin?! Dedim: Ey ağam! Siz hökmdarlar hökmdarı, bütün dünyanın ağasısınız. Siz onlardan deyilsiniz. Buyurdu: Ey Tahir! Öz arzuna çatdın. İndi de görüm, nə istəyirsən? Məgər biz hər gün sizin fikrinizdə deyilikmi? Bil ki, sizin gördüyünüz işlər və mövcud vəziyyətiniz barədə ardıcıl bizə xəbər verilir.

Bundan sonra mənə dedi ki, maddi vəziyyətim yaxşılaşaraq yoxsulluqdan yaxa qurtaracağam. Elə bu vaxt tanıdığım və adını bildiyim günahkar bir nəfər həzrət Müslim (ə)-ın ziyarətgahının həyətindən çıxıb Kufə məscidinə daxil oldu. Bu an həzrətin mübarək simasında qəzəb nişanələri gördüm. O, üzünü həmin günahkar şəxsə tərəf tutub dedi: Ey! Hara qaça bilərsən? Məgər yer üzü bizə məxsus deyilmi? Məgər göylər bizə məxsus deyilmi? Bil ki, göydə və yer üzündə bizim hökmlərimiz icra olunmalıdır və sənin onlara tabe olmaqdan başqa çarən yoxdur.

Sonra üzünü mənə tutub gülümsəyərək dedi: Ey Tahir! İstəyinə nail oldun. Bundan başqa nə istəyirsən? Onun heybəti

məni o qədər tutmuşdu ki, hətta danışa belə bilmirdim. O, bir daha dediklərini təkrar etdi. Mən yenə də ağzımı açıb nə bir kəlmə deyə bildim, nə də ondan bir şey soruşa bildim. Mən o qədər sevinc hissi keçirirdim ki, bunu dillə demək olmur. Elə bu vaxt bir anda özümü məsciddə gördüm. Ətrafımda nə bir kimsə var idi, nə də ondan bir əsər-əlamət qalmamışdı. Bu vaxt gördüm ki, artıq gün yavaş-yavaş üfüqdən baş qaldırır.

Şükür olsun Allaha, o vaxtdan bu günədək ruzim boldur və heç vaxt maddi çətinlik çəkmirəm.

## «Əlli İkinci Görüş»

“Vəsailüş-şiə"nin müəllifi böyük alim Şeyx Hürr Amuli “İsbatül-hüda” kitabında yazır:

On yaşım olardı. Çox ağır xəstəliyə düçar olmuşdum. Belə ki, həkimlər məni müalicə edə bilmədilər. Qohum-əqrabam öləcəyimi zənn edib başımın üstə dayanıb ağlayırdılar. Həmin gecə yuxuda gördüm ki, Peyğəmbər (s) və mə`sum imamlar ətrafıma toplaşıblar. Onlara salam verib hər biri ilə ayrı-ayrılıqda söhbət etdim. İmam Sadiq (ə)-la mənim aramda müzakirə oldu, amma nəyi müzakirə etdiyimiz dəqiq yadımda deyil. Yadımda qalan budur ki, o həzrət mənim üçün dua etdi. Fədası olduğumuz İmam Zamanla (ə) söhbət etdiyim zaman ağlayıb dedim: Ey mənim ağam! Ey mənim sərvərim! Qorxuram bu xəstəlik ömrümə son qoya və mən təhsil alıb xeyirxah işlər görə bilməyəm. Buyurdu: Qorxma, sən bu xəstəliklə ölməyəcək və Allahın yaxşı bir bəndəsinin vasitəsilə şəfa tapıb, uzun müddət yaşayacaqsan. Sonra mənə bir qab dolu su verdi və mən həmin sudan içən kimi sağaldım.

Xəstəliyim birdəfəlik məndən dəf oldu. Qohum-əqrabam və bizi tanıyanların hamısı heyrətə gəlmişdilər. Bir neçə gündən sonra onlar da nə baş verdiyindən agah oldular.

## «Əlli Üçüncü Görüş»

Mərhum hacı Nuri “Nəcmus-saqib” kitabında yazır: Bir çox elmlərə yiyələnən zahid və təqvalı alim, iti qələm sahibi Şeyx Əli Rəşti, böyük ustad Şeyx Mürtəza Ənsarinin (Allah onun məqamını uca etsin) fəal şagirdlərindən biri olmuşdur. Ümumiyyətlə, çox vaxt bir yerdə olardıq. Mən onun kimi gözəl əxlaqa və üstün xüsusiyyətlərə malik çox az adam görmüşəm. O, mənə belə bir əhvalat danışdı:

Neçə il əvvəl İmam Hüseyn (ə)-ın ziyarətindən su yolu ilə Nəcəfə qayıdırdım. Fəratın Kərbəla ilə Tuveyric arasında işləyən gəmilərindən birinə əyləşdim. Hillədən olan müsafirlər yol boyu bir-birləri ilə boş-boş zarafatlaşır, elə hey gülüb əylənirdilər. Onlardan yalnız biri vüqarlı və olduqca özünü ağır aprırdı. Bə`zən də məzhəbinə görə ona yersiz tə`nələr vurur və masqara edirdilər. O, öz yerliləri ilə nə deyib-gülür, nə də onların bihudə zarafatlarına qoşulurdu. Amma buna baxmayaraq, yemək-içmək və xərclərində onlarla şərik idi. Mən bundan çox təəccüblənsəm də, gəmidə ondan bir şey soruşa bilmədim. Bir qədər getdikdən sonra çayın dayaz yerinə gəlib çatdıq. Gəmi ağır olduğundan hər an gilə otura bilərdi. Gəmiçi bizi sahildə düşürdü və biz bu bir qədər yolu sahil boyu getməli olduq. Fürsətdən istifadə edib mən həmin şəxsdən soruşdum: Nə üçün siz onlarla belə rəftar edirsiniz, halbuki onlar sizə yaman əziyyət edirlər? Dedi: Onlar mənim həmyerlilərimdir və hamısı sünni məzhəbdirlər. Mənim atam sünni, anam isə şiə olub. Mən özüm də bir vaxtlar sünni məzhəbində idim. Lakin İmam Zaman (ə)-ın bərəkəti ilə şiə məzhəbini qəbul etdim. Dedim: Bəs, siz necə şiə oldunuz? Dedi: Mənim adım Yaqutdur. Hillə körpüsünün yanında yağ satardım. Bir neçə il bundan əvvəl yağ almaq üçün Hillə ətrafında olan kəndlərə getmişdim. Oradan istədiyim qədər yağ alıb Hillə əhalisindən olan neçə nəfərlə birgə geri qayıtmalı olduq. Yolda bir mənzil başında istirahət üçün oturaq saldıq və mən yuxuya qalıb onlardan ayrı düşdüm. Oyandıqda, gördüm ki, artıq yoldaşlarımın hamısı getmiş və mən isə tək-tənha səhranın ortasında qalmışam. Oradan Hilləyə qədər isə quraqlıq və ot-ələfsiz bir sahə idi. Yaxınlıqda nə bir abadlıq, nə də ki, yaşayış yeri gözə dəyirdi. Nə edəcəyimi bilmirdim. Naçar, yükümü atıma yükləyib onların ardınca hərəkət başladım. Doğrusu,

yolu itirmişdim. Həm susuzluq, həm də ətrafda hər an yırtıcı heyvanların peyda olma ehtimalı məni dəhşətə gətirirdi. O vaxtlar mö`təqid olduğum Əbu Bəkr, Ömər, Osman və Müaviyə kimi övliyalara təvəssül edib onlardan kömək istədim. Amma bir xəbər olmadı.

Birdən, anamın "Bizim İmam Zamanımız var və diridir. Nə vaxt işimiz çətinə düşsə və ya yolu itirsək, o bizim dadımıza çatır. Künyəsi isə "Əbu Salehdir!" – dediyi sözləri yadıma düşdü. Elə həmin an Allah-təala ilə əhd-peyman bağladım ki, əgər o mənə bu çətinlikdən nicat versə, anamın məzhəbini qəbul edəcəyəm. Nəhayət, İmam Zaman (ə)-dan kömək diləyib dadıma çatmasını istədim. Uca səslə fəryad etdim: *«Ya əba Salihil-Məhdi, ədrikni!»* (Ey Əbu Saleh Mehdi, dadıma çat!) Bir də gördüm, bir şəxs mənimlə birgə yol gedir, başında da yaşıl əmmaməsi var. O, yolu mənə göstərib dedi: Ananın məzhəbini qəbul et! İndi əhalisi şiə olan bir kəndə çatacaqsan. Dedim: Ey ağam! Birgə gəlib məni özünüz ora çatdıra bilərsinizmi? Buyurdu: Yox, çünki dünyanın müxtəlif yerlərində minlərlə insan məni yardıma çağırır. Mən də onların dadına çatıb nicat verməliyəm. Bunu deyib dərhal gözlərimdən itdi.

Bir az getdikdən sonra həmin kəndə çatdım. Qaldığım yerlə həmin kənd arasında xeyli məsafə olmasına baxmayaraq mən ora çox qısa müddətdə, yoldaşlarım isə səhəri gün ora çatdılar. Hilləyə çatdıqda, fəqihlər seyyidi Seyyid Mehdi Qəzvininin yanına getdim və başıma gələnləri ona danışıb, elə həmin gün şiəliyi qəbul etdim. Şiə məzhəbinin fiqh və əsaslarını da ondan öyrəndim. Bir gün ondan soruşdum: İndi mən nə edim ki, bir daha fədası olduğum İmam Zamanla (ə) görüşə bilim? Buyurdu: Qırx cümə axşamı Kərbəlaya gedib İmam Hüseyn (ə)-mı ziyarət et.

Mən hər cümə axşamı Hillədən Kərbəlaya İmam Hüseyn (ə)-ın ziyarətinə getdim. Sonuncu cümə axşamı gördüm ki, mə`murlar şəhərə girmək üçün icazə vəsiqəsi istəyirlər. Nədənsə, bu dəfə hamını çox ciddi sorğu-suala tuturdular. Mənim isə nə vəsiqəm var idi, nə də ki, icazə almaq üçün pulum. Şəhərə daxil olmaq üçün böyük izdiham yaranmışdı. Nə qədər çalışdımsa, şəhərə daxil olmaq üçün gizli bir yer

tapmadım. Elə bu vaxt uzaqdan İmam Zamanı (ə) başında ağ əmmamə iranlı elm adamlarına məxsus paltarda şəhərin darvazalarından içəridə gördüm. Mən tab gətirə bilməyib ondan kömək dilədim. O, həmin anda yanıma gəlib əlimdən tutaraq məni içəri keçirdi. Doğrusu, kimsə məni görmədi. Şəhərə daxil olduqda, onunla söhbət etmək istədim. Amma o, qeybə çəkilib gözdən itdi.

## «Əlli Dördüncü Görüş»

Hacı Nuri "Nəcmus-saqib" kitabında Molla Zeynəlabidin Səlmasidən belə bir əhvalat nəql edir:

Bir gün Nəcəf-Əşrəfdə Ayətullah Seyyid Sind və böyük alim Bəhrul-Ülumun dərsində iştirak edirdim. Təxminən, yüz nəfər tələbə dərsdə iştirak edirdi. Birdən, "Qəvanin" kitabının müəllifi Mirzə Qumi içəri daxil oldu. O, İrandan bura müqəddəs yerləri ziyarət etmək üçün gəlmişdi. Bundan sonra Məkkəyə həcc ziyarətinə getməli idi. Onun Bəhrul-Ülumla görüşünə hörmət əlaməti olaraq tələbələr durub dağılışdılar. Yalnız üç nəfər böyük alim və müctəhid birgə qaldı. Mən də onların bu görüşündə iştirak etdim.

Söhbət əsnasında Mirzə Qumi seyyid Bəhrul-Üluma dedi: Siz həm cismən, həm də ruhən Əhli-beytə mənsub olub yüksək mə`nəvi məqam sahibisiniz. Uzaq yoldan gəlirəm və xahiş edirəm əldə etdiyiniz tükənməz mə`nəvi ne`mətlərdən bizə də bəxş edin, biz də faydalanaq. Seyyid Bəhrul-Ülum sözü uzatmadan dedi: Elə dünən, gecə namazının nafiləsini qılmaq üçün Kufə məscidinə getmişdim. Qəti fikrim də var idi ki, səhər tezdən qayıdım və dərsləri tə`xirə salmayım. Sübh tezdən məsciddən çıxdıqda, yaman ürəyimdən keçdi ki, Səhlə məscidinə də bir baş çəkim. Lakin dərsə gecikməyim deyə fikrimdən daşındım. Amma ora getmək istəyi isə məndə hər an artırdı. Elə bu vaxt tozlu külək qalxıb məni Səhlə məscidinə tərəf istiqamətləndirdi. Çox keçmədən özümü Səhlə məscidinin qarşısında gördüm. Məscidə daxil olduqda, orada fədası olduğumuzdan başqa kimsə yox idi. O, elə münacat edirdi ki,

qəlblər lərzəyə gəlir, gözlər isə yaşla dolurdu. Onu bu halda görcək, əl-ayağım tutuldu, dizlərim əsdi. O vaxta qədər nə elə həzin səs eşitməmiş, nə də dua kitablarında elə duaya rast gəlmişdim. Başa düşdüm ki, Həzrət münacatı bədahətən deyir. Elə dayanıb münacatına qulaq asır və böyük həzz alırdım. Münacatını qurtardıqdan sonra üzünü mənə tutub fars dilində buyurdu: Mehdi, bura gəl! Mən bir neçə addım irəliləyib dayandım. Bir daha buyurdu: Yaxın gəl! Mən bir az da qabağa gedib dayandım. Mən o qədər irəlilədim ki, mənim əlim onun əlinə, onun əli də mənim əlimə çatırdı. Bu vaxt mənə bir söz dedi.

Seyyid Bəhrul-Ülum daha İmam Zaman (ə)-ın ona nə dediyini söyləməyib Mirzə Quminin ona əvvəl verdiyini suala cavab verməyə başladı və bir sıra başqa məsələlər haqda söhbətini davam etdirdi. Söhbətin axırında Mirzə Qumi soruşdu: İmam Zaman (ə)-ın buyurduğu o söz nə idi? Bəhrul-Ülum dedi: O daha bir sirdir.

## «Əlli Beşinci Görüş»

Seyyid Həsən Əbtəhi deyir: 1361-ci (h.ş.) ildə İranın inqilabçı alimlərinin terror olunması, bə`zi münafiq qrupların gəldikləri hədə-qorxular və nəhayət, əmniyyətin olmaması məndə qeyri-adi nigarançılıq və iztirab hissi yaratmışdı. Allaha təvəkkül etməklə bu nigarançılıqdan yaxa qurtarmaq üçün nə qədər çalışsam da, buna nail ola bilmirdim. Daha dəqiq desəm, cümə axşamı artıq nigarançılığım son həddə çatmış və tamam yuxum qaçmışdı. Bunun üçün telefonu da çıxarmışdım ki, kimsə mənə zəng edib hədə-qorxu gəlməsin. Amma bir yerə zəng etmək üçün telefonu qoşan kimi, birdən zəng çaldı. Dəstəyi götürdüm. Gördüm uzaq yerdən zəng edən tanış bir adamın səsi gəlir. Ondan kim olduğunu soruşduqda, dedi: Mən Xadimiyəm. Başa düşdüm ki, hacı Məhəmməd Xadimi Şirazidir. Dedim: Haradan zəng edirsiniz? Dedi: Qumdan, Cəmkəran məscidindən. Sonra dedi: Bu gecə sizi tanıyan bir şəxs İmam Zamanla (ə) görüşüb və Həzrət ona demişdir ki,

Məhşəddə Əbtəhi böyük nigarançılıq hissi keçirir. Xadimiyə de, yoldaşınıza xəbər etsin ki, nigaran olmasın, biz ona kömək edəcəyik. Biz onu qoruyacaq və bu bəlanı ondan dəf edəcəyik. Əgər xəbər göndərməklə nigarançığı aradan getməsə, Xadimi özü Məşhədə gedib onu nigarançılıqdan qurtarsın.

Bu sözləri eşitcək məni ağlamaq tutdu və öz-özümə dedim: Gör biz nə qədər İmam Zaman (ə)-dan qafilik, o isə bizi nə qədər fikirləşir. Özü də mənim kimi günah içində qərq olan səlahiyyətsiz bir şəxsi. Bir sözlə həmin gecə nigarançılığım birdəfəlik aradan qalxdı. Qalxmaya da bilməzdi. Çünki o gün mənim nigarançılığımdan Allah və İmam Zamandan başqa kimsənin xəbəri yox idi və Xadimi telefonda mənə elə sözlər dedi ki, nigarançılığa heç bir yer qalmadı. Əgər imanım güclü olsaydı, gərək bundan əvvəl də bu qədər nigarançılıq hissi keçirməyəydim. Dostuma dedim: Sizin bu zənginizlə nigarançılığım tamamilə aradan getdi. İndi ki, ağamız bu qədər bizim fikrimizi çəkir, lap şirin ağzına girməyə belə hazıram. Amma əgər siz Məşhədə İmam Əli ibn Musa Rza (ə)-ın ziyarətinə gəlsəydiniz, bizə də o vaxt çox sevinərdik. Buyurdu: Xeyr, mənim üzərimə düşən vəzifə elə bundan ibarət idi. Bu xəbərlə mənim özümün də İmam Zaman (ə)-a olan inam və bağlılığım daha da artdı.

## «Əlli Altıncı Görüş»

Əllamə Nuri “Nəcmus-saqib” kitabında yazır ki, bir çox kəramət sahibi olan Seyyid Baqir Qəzvininin oğlu seyyid Cə`fər deyir:

Bir vaxtlar atamla birlikdə Səhlə məscidinə get-gəl edirdik. Bir gün məscidə çatıb atamdan soruşdum: Camaat deyir ki, kim qırx cümə axşamı Səhlə məscidinə gedib orada ibadətlə məşğul olsa, İmam Zamanla (ə) görüşə bilər. Amma mə`lum deyil ki, bu sözlər nə qədər doğrudur! Atam qəzəblənərək dedi: Haradan deyirsən? Əgər sən bir şeyi görməmisənsə, deməli onun əsası yoxdur?! O, məni o qədər danladı ki, dediklərimə peşman oldum.

Bir azdan sonra məscidə daxil olduq və orada kimsə yox idi. Atam məscidin ortasında dayanıb "istiğasə" (imdad) namazını qılmaq istərkən, İmam Zaman (ə)-ın məqamı tərəfdən bir şəxs ona tərəf gəldi. Atam onunla salamlaşıb əl verərək görüşdü. Sonra mənə dedi: Bəs bu kimdir? Təəccüblə dedim: O, İmam Zamandırmı? Dedi: Bəs kimdir? Mən dərhal yerimdən qalxıb ona tərəf yüyürməyə başladım. Amma nə məscidin içində, nə də ki, çölündə kimsəni görmədim.

## *«Əlli Yeddinci Görüş»*

Mərhum Ayətullah seyyid Əbül-Həsən İsfahani zamanımızın məşhur mərcəi-təqlid alimlərindən biri olmuşdur. O, dəfələrlə fədası olduğumuz İmam Zamanla (ə) görüşə nail olmuşdur. "Alimlərin xəzinəsi" kitabında böyük alim Məhəmməd Həsən Mircahanidən belə bir əhvalat nəql olunur:

Yəməndə yaşayan zeydiyyə məzhəbli Bəhrul-Ülum adlı bir alim fədası olduğumuz İmam Zaman (ə)-ın müqəddəs vücudunu inkar edirdi. O, dövrünün alimlərinə məktub göndərib onlardan İmam Zaman (ə)-ın mövcudluğuna dair əsaslı dəlillər gətirmələrini istəyirdi. Alimlər ona cavab versələr də, qane olmurdu. O, məktublardan birini də seyyid Əbül-Həsəni İsfahaniyə göndərir və ondan bu məsələyə dair cavab istəyir. Seyyid Əbül-Həsən İsfahani ona belə bir cavab məktubu göndərir: "Əgər Nəcəf-Əşrəfə gəlsəniz, mən sizin sualınıza şifahi olaraq cavab verərəm."

Yəmənli Bəhrul-Ülum cavab məktubunu aldıqdan sonra oğlu seyyid İbrahim və bir neçə müridi ilə birlikdə Nəcəfə, Əbül-Həsən İsfahaninin yanına gəlir. Görüşüb hal-əhval tutduqdan sonra Bəhrul-Ülum deyir: Mən bura sizin də`vətinizlə gəlmişəm. Ümid edirik ki, və`d verdiyiniz cavabdan bəhrələnə biləcəyik. Əbül-Həsən İsfahani buyurur: Sabah axşam bizim evə gəlin, orada sizin cavabınızı verim.

Ertəsi gün axşam Bəhrul-Ülum oğlu ilə birlikdə Əbül-Həsən İsfahaninin evinə gedir. Şam yeməyini yeyib qurtardıqdan sonra İmam Zaman (ə)-ın mövcudluğu barədə

müzakirələr başlayır. Nəhayət, gecə başqa qonaqlar dağılışdıqdan sonra Ayətullah İsfahani xidmətçisi Məşhədi Hüseyndən çıraq gətirməsini istəyir. Sonra Bəhrul-Ülum və oğlu İbrahimə deyir: Gedək, siz özünüz o həzrəti görün.

Məhəmməd Həsən Mircahani deyir: Biz də orada idik. Onlarla birlikdə getmək istədikdə, Ayətullah İsfahani dedi: Siz gəlməyin, yalnız Bəhrul-Ülum və oğlu gəlsin.

Biz daha onların hara getdiklərini bilmədik. Amma həmin gün səhər mən Bəhrul-Ülum və oğlu İbrahimlə görüşə bildim və onlardan nə gördükləri haqda soruşdum. Bəhrul-Ülum yalnız bunu dedi: Şükür olsun Allaha ki, sizin məzhəbinizə keçdik və İmam Zamanın müqəddəs vücudunun hal-hazırda mövcud olduğuna iman gətirdik. Soruşdum: Necə? Buyurdu: Ayətullah İsfahani İmam Zamanı bizə göstərdi. Soruşdum: O, İmam Zamanı sizə necə göstərdi? Buyurdu: Evdən çıxdıqdan sonra hara getdiyimizi bilmədik. Nəhayət, "Vadiyus-salam" adlı yerə çatdıq. Vadiyus-salamın ortasında "İmam Zamanın məqamı" adlı bir yer var idi. Ayətullah İsfahani ora çatdıqda, çırağı Məşhədi Hüseyndən alıb tək məni özü ilə birlikdə məqama daxil etdi və orada dəstəmazını təzələdi. Oğlumun onun gördüyü işlərə gülməyi gəlirdi. Nəhayət, orada dörd rükət namaz qılıb başa düşmədiyimiz bir neçə kəlmə söz dedi. Bir də gördük ki, fəza işıqlandı.

Bu yerdə yəmənli alimin oğlu İbrahim dedi: Bu vaxt mən məqamdan kənarda dayanmışdım, atam isə Ayətullah İsfəhani ilə birlikdə məqamın içində idilər. Bir neçə dəqiqədən sonra atamın fəryad etdiyini eşitdim və sonra o, huşunu itirib özündən getdi. Yaxınlaşıb gördüm ki, Ayətullah İsfahani atamın çiyinlərini ovxalayır ki, özünə gəlsin. Oradan qayıtdığımız zaman atam dedi: Mən orada İmam Zaman (ə)-ı gördüm! O, məni on iki imamçı şiə məzhəbinə də`vət etdi.

O, bundan artıq orada gördükləri haqda bir söz demədi. Bir neçə gündən sonra Yəmənə qayıtdı və dörd min nəfər müridini şiə etdi.

## *«Əlli Səkkizinci Görüş»*

Hacı Nuri “Nəcmus-saqib” kitabında yazır: Ədalət və bir çox üstün xüsusiyyətləri ilə şöhrət tapmış böyük alim Hacı Molla Möhsün İsfahani Kərbəlanın yaxınlığında yaşayardı. Onun insanlığı, dindarlığı və əmanətə son dərəcə vəfalı olması hamının dillər əzbəri idi. O, böyük alim seyyid Məhəmməd Qətifidən belə bir əhvalat nəql edir:

Bir cümə axşamı tələbələrdən biri ilə Kufə məscidinə getmişdim. O zamanlar belə vaxtlarda məscidə gedib-gəlmək olduqca qorxulu idi. Çünki, yolkəsənlər ətrafa yayılıb soyğunçuluqla məşğul idilər. Bunun üçün də ziyarətə gələnlərin sayı nəzərə çarpacaq dərəcədə azalmışdı.

Biz məscidə daxil olduğumuz zaman orada dua oxuyan bir tələbədən savayı kimsə gözümüzə dəymədi. Biz də məscidin əməllərini yerinə yetirdikdən sonra kimsənin gələ bilməyəcəyindən əmin olmaq üçün içəridən məscidin qapısının qabağına xeyli daş-kəsək yığdıq. Sonra “dəkkətül-qəza”da üzü qibləyə tərəf oturub dua və ibadətlə məşğul olmağa başladıq. Gözəl əxlaqlı həmin tələbə isə həzin səslə “babul-fil” məqamına yaxın oturub “Kumeyl” duasını oxuyurdu. Hava olduqca saf, ay da tam dairəvi şəkildə idi. Onun işığı məscidə düşdükcə məni özünə cəzb edirdi. Birdən, məscidi müşk və ənbərdən də qoxusu gözəl ətir iyi bürüdü. Sonra ətrafa elə parlaq işıq yayıldı ki, ayın işığını belə üstələdi. İşıq məscidin bütün fəzasını bürüdü. Uca səslə “Kumeyl” duasını oxuyan həmin tələbə susaraq diqqətini ətrafı bürüyən iyə və məscidi nura qərq edən işığa yönəltdi. Elə bu vaxt möhkəm bağladığımız qapıdan çiyinində səccadə, əynində hicazlılara məxsus paltar olan bir şəxs içəri daxil oldu. O, qeyri-adi vüqarla həzrət Müslimin (ə) məqbərəsinə tərəf gedirdi. Bizim isə nəzərimiz qeyri-ixtiyari olaraq onun camalına dikilmişdi. Həyəcandan sanki qəlbimiz yerindən qopacaqdı. Bizə yaxınlaşıb salam verdi. Amma dostum o qədər həyəcanlı idi ki, salam verməyə taqəti olmadı. Mən isə çətinliklə də olsa salamının cavabını verdim.

O, həzrət Müslimin (ə) ziyarətgahına tərəf getdikdən sonra biz əvvəlki vəziyyətimizə qayıtdıq. Dostumdan soruşdum: Bu şəxs kim idi? Haradan məscidə daxil oldu? Sonra yerimizdən qalxıb onun ardınca həzrət Müslimin (ə)

ziyarətgahına tərəf getdik. Gördük ki, orada olan tələbə köynəyini cırıb uşağı ölmüş ana kimi zar-zar ağlayır. Ondan niyə belə ağladığını soruşduq. Dedi: Qırx cümə axşamıdır ki, İmam Zamanı (ə) görmək üçün bu məscidə gəlirəm. Amma arzuma çata bilmədim. Bu gün də özünüz gördünüz, İmam Zaman (ə) gəlib başım üstə dayanıb nə etdiyimi soruşdu. Mən isə üzündəki heybətdən dilim tutulub bir söz deyə bilmədim. O da üzünü çevirib getdi.

Məscidə qayıdıb qapının arxasına nəzər saldıqda, gördük ki, daşları ora necə düzmüşdüksə eləcə də qalmışdır.

## *«Əlli Doqquzuncu Görüş»*

Dizful alimlərindən biri orada baş verən maraqlı bir əhvalat nəql edir ki, o əhvalat "Əş-şəmsut-taliə" və "Şeyx Ənsari" kitablarında da nəql olunmuşdur. Həmin əhvalat belədir:

Məhəmməd Hüseyn Təbrizi, Təbrizin tanınmış tacirlərindən biri idi. Övladı olmadığından uzun müddət müalicə və dava-dərmandan sonra nəhayət, ziyarətgahlara üz gətirir. O deyir: Bir gün Nəcəf-Əşrəfə gedib orada Səhlə məscidində dua və münacat edərək İmam Zaman (ə)-dan kömək istədim. Gecə mükaşifə halında gördüm ki, alicənab bir şəxs mənə yaxınlaşıb dedi: Dur, get Dizfula, toxucu Məhəmməd Əli Culagərin yanına və bil ki, istəyin yerinə yetmişdir.

Mən Dizfula gedib həmin şəxsin ünvanını axtarmağa başladım. Bir qədər axtardıqdan sonra axır ki, onun yaşadığı yeri tapa bildim. Onu gördükdə, çox xoşum gəldi. Çünki o olduqca sadə bir adam idi və balaca dükanında toxuculuqla məşğul idi. Onunla salamlaşdım. Salamımın cavabını verib

dedi: Məhəmməd Hüseyn, gözlərin aydın! İstəyin yerinə yetmişdir.

Məni birinci dəfə görməsinə baxmayaraq adımı bilməsindən çox təəccüb etdim və ondan gecəni yanında qalmağı xahiş etdim. Dedi: Eybi yoxdur, qala bilərsən.

Sonra balaca dükanına daxil oldum və elə bu vaxt axşam azanı verildi. Birlikdə şam və xiftən namazlarını qılıb axşamdan bir qədər keçdikdən sonra süfrə açdı və ortaya bir az arpa çörəyi, bir az da qatıq qoydu. Beləcə, birlikdə axşam yeməyini yedik. Gecə oldu və yatdıq. Səhər sübh namazını qılandan sonra o, bir az dua oxudu və sonra yenə dükanına girib işi ilə məşğul olmağa başladı.

Mən ona dedim ki, sizə iki sualım var: birinci, mənim hacətimin qəbul olduğunu haradan bildiniz və ikinci, belə bir yüksək məqama necə nail olmusunuz? Dedi: Axı, bu nə sualdır ki, verirsən?! İstəyin yerinə yetib, daha başqa bir şey lazım deyil və çıx öz yolunla get. Dedim: Mən sizin qonağınızam və siz də gərək qonağa hörmətlə yanaşasınız. Xahiş edirəm, özünüz barədə mənə danışasınız və bilin ki, danışmayınca, yerimdən tərpənən deyiləm. Çox isrardan sonra dedi: Mən əvvəldən elə gördüyün həmin bu məhəllədə bu işlə məşğulam. Əvvəllər dükanımın qarşısında olduqca zülmkar bir dövlət mə`murunun evi var idi. Əskərlər növbə ilə onun evini mühafizə edirdilər. Bir gün əsgərlərdən biri gəlib məndən soruşdu: Siz özünüz üçün yemək-içməyi haradan əldə edirsiniz? Mən də ona dedim ki, mənmi əhli-əyalım yoxdur. Hər il üç yüz kiloqram arpa alıram, unundan çörək bişirirəm və beləcə, yaşayıram. Əskər dedi: Mən burada gözətçi işləyirəm, amma bu zalımın haram yolla qazandığı və bizə verdiyi yemək-içməkdən istifadə etmək istəmirəm. Əgər sənə zəhmət deyilsə, mənin üçün də yüz kilo arpa al və özün üçün çörək bişirdiyin zaman mənim üçün də gündə bir çörək bişir ondan yeyim. Əgər mənim üçün bu işi görsən, sənə çox minnətdar olaram. Mən də onun xahişini qəbul etdim və hər gün gəlib məndən iki çörəyini götürüb gedirdi.

Bir gün çörəkləri bişirib hazır qoymuşdum ki, gələndə ona verim. Amma nə qədər gözlədimsə, gəlib çıxmadı. Gedib onu tanıyanlardan soruşdum, dedilər xəstədir. Mən onu

yoluxmaq üçün yanına getdim və həkim gətirmək üçün ondan icazə verməsini istədim. Dedi: Lazım deyil, mən bu gecə ölməliyəm. Gecə yarısı bir nəfər gəlib sənə ölüm xəbərimi verəcək. Sən də bura gəlib nə desələr, onu da edərsən. Unun qalanı da sənin olsun. Mən axşam onun yanında qalmaq istədim. Amma mənə icazə vermədi. Sonra mən dükanıma qayıtdım.

Gecənin bir aləmində gördüm ki, kimsə dükanın qapısını döyür. Qapını döyən şəxs məni səsləyib dedi: Məhəmməd Əli, gəl bayıra. Mən də tez eşiyə çıxdım və dükanın qabağında tanımadığım bir şəxs gördüm. Birlikdə məscidə getdik. Ora çatdıqda, gördüm ki, həmin əskər artıq dünyasını dəyişmiş və iki nəfər də cənazəsinin kənarında dayanmışdır. Onlar məni görcək, dedilər: Gəl kömək et və cənazəni çaya aparıb orada qüsl verək.

Bir sözlə onu aparıb çayın kənarında qüsl verdik. Sonra kəfənləyib namazını qıldıq və məscidin kənarında dəfn etdik. Bundan sonra mən öz dükanıma qayıtdım. Bir neçə gündən sonra gecə yarısı dükanımın qapısını döydülər. Eşiyə çıxdım. Yenə tanımadığım bir şəxs mənə dedi: Ağa səni çağırır, gəl birlikdə yanına gedək.

Paltarımı geyinib onunla birlikdə yola düşdük. Nəhayət, bir çöllüyə gəlib çatdıq. Gecə yarısı və ayın axırı olmasına baxmayaraq hava on dörd gecəlik ay kimi, olduqca aydın və işıqlı idi. Heyrət məni bürümüşdü. Bir neçə dəqiqədən sonra parlaq bir çöllüyə çatdıq. Uzaqdan gördüm ki, bir neçə nəfər dairəvi şəkildə oturmuş və onların kənarında bir nəfər də ayaq üstə dayanmışdı. Oturanlardan biri olduqca vüqarlı və heybətli idi. Başa düşdüm ki, o şəxs İmam Zaman (ə)-dır. Bu səbəbdən də bütün vücudumu qeyri-adi qorxu hissi bürüdü və bütün bədənim titrəməyə başladı. Mənim ardımca gələn şəxs dedi: Bir az qabağa get. Mən də qabağa gedib dayandım. Ayaq üstə duran şəxs mənə dedi: Qabağa gəl, qorxma. Mən yenə bir qədər qabağa getdim. İmam Zaman (ə) onlardan birinə buyurdu: Bizim şiəmizə xidmət etdiyi üçün əskərin vəzifəsini ona verin. Dedim: Mən bir toxucuyam, necə əskər ola bilərəm? Belə fikirləşdim ki, məni dünyasını dəyişən həmin əskərin yerinə tə`yin etmək istəyir.

İmam Zaman (ə) gülümsəyərək dedi: İstəyirik onun mənsəbini sənə verək. Mən yenə sözlərimi təkrar etdim. İmam Zaman (ə) yenə buyurdu: Biz istəyirik mərhum əskərin tutduğu məqamı sənə verək və demirik ki, sən onun yerinə əskərlik edəsən. Get və bil ki, bundan belə sən onun yerini tutacaqsan.

Sonra tək geri qayıtdım. Hava isə artıq çox qaranlıq idi. Və şükür Allaha ki, o vaxtdan bu günədək İmam Zaman (ə)-ın göstərişləri mənə çatır və mən onunla sıx əlaqədəyəm. Sənə bu əlaqəmiz də onun verdiyi göstərişlərdən biri idi.

## *«Altmışıncı Görüş»*

Hacı Nuri "Nəcmus-Saqib"də yazır: Həmədanda tamam əhli şiə olan Bəni Raşid adlı bir tayfa vardır ki, şiə olmalarının səbəbi qəribə bir əhvalatla bağlıdır. Deyilənə görə onlardan biri bir dəfə Məkkəyə həcc ziyrətinə gedir. Ziyarəti başa vurduqdan sonra qayıdarkən belə qərara gəlir ki, atdan düşüb bir qədər piyada getsin. Bir qədər yol getdikdən sonra yorulub yolun kənarında yatır ki, yorğunluğu çıxsın. O istəyirdi ki, arxadan gələn karvan ona çatdıqda, yuxudan oyanıb yoluna onlarla birlikdə davam etsin.

O deyir: Yuxudan məni gün şüalarının hərarəti oyatdı. Ətrafa nəzər saldıqda kimsəni görmədim. Özüm də bu yollara nabələd idim. Amma Allaha təvəkkül edib yoluma davam etdim. Bir qədər getdikdən sonra hər tərəfi yaşıllıq olan bir əraziyə çatdım. Yer o qədər təravətli idi ki, sanki ora təzə yağış yağmışdı. Mən hələ o vatxa qədər belə ab-havası olan bir yer görməmişdim. Ortada gün tək parlayan bir qəsr görünürdü. Öz-özümə dedim: Kaş, biləydim bu qəsr kimindir. Bu maraq məni qəsrə tərəf çəkib apardı. Qəsrin qapısı astanasında ağ paltarlı iki nəfər xidmətçi dayanmışdı. Onlara yaxınlaşıb salam verdim. Onlar da ədəblə mənim salamımı aldılar. Ora daxil olmaq istədikdə, mənə dedilər: Əvvəl burada gözlə icazə alaq. Onlardan biri qəsrə girdi və bir neçə dəqiqədən sonra qayıdıb dedi: Gəl içəri. Mən qəsrə daxil oldum və xidmətçi mənim

qabağımda gedir, mənə yol göstərirdi. Nəhayət, bir otağa gəlib çatdıq. Xidmətçi pərdəni yuxarı qaldırıb dedi: Gir içəri.

Mən içəri daxil oldum. Gördüm ki, otağın ortasında bir cavan divara söykənmiş və başı üzərində də divardan qılınc asılmışdı. O, gecə qaranlıqda ay kimi işıq saçan nura bənzəyirdi. Mən ona salam verdim. O da özünə məxsus mehribanlıqla cavab verib dedi: Bilirsən, mən kiməm? Dedim: Xeyr. Buyurdu: Mən dünyanın sonunda qiyam edəcək və qılıncla dünyada ədaləti bərqərar qılacaq Ali Məhəmmədin canişiniyəm.

Bunu eşitcək, qarşısında yerə yıxıldım və üzümü yerə sürtməyə başladım. Buyurdu: Belə etmə! Başını yuxarı qaldır. Sən filankəssən (adımı çəkdi) və dağ ətəyində Həmədan adlanan şəhərdənsən. Dedim: Düzdür, düzdür! Ey mənim sərvərim! Buyurdu: Şəhərinə qayıtmaq istəyirsənmi? Dedim: Bəli, istəyirəm. İstəyirəm qayıdıb onlara sizinlə görüşümüzü də göz aydınlığı verim! İstəyirəm onlara deyim ki, Allah-təala mənə necə böyük lütf etmişdir! Gördüm, əli ilə xidmətçisinə işarə etdi ki, dediklərimə əməl etsin.

Xidmətçi əlimdən tutub mənə bir kisə pul verdi və mənimlə birlikdə qəsrdən çölə çıxdı. Mən də İmam Zamanla (ə) vidalaşıb oranı tərk etdim. Oradan bir neçə addım aralanmışdıq ki, uzaqdan ağac və minarələri görünən bir şəhər gördük. Xidmətçi mənə dedi: Bu şəhəri tanıyırsanmı? Dedim: Ora Həmədanın yaxınlığında yerləşən Əsədabad şəhərinə oxşayır. Xidmətçi dedi: Bəli, ora Əsədabad şəhəridir. Get, Allah amanında.

Bundan sonra mən daha onu görmədim. Kisənin ağzını açdıqda, gördüm ki, içində qırx əşrəfi qızıl pul var. Beləliklə, Həmədana yola düşdüm və orada qohum-əqrabamı başıma yığıb İmam Zamanla (ə) görüşdüyümü bildirdim. Bundan sonra onlar şiə məzhəbini qəbul etdilər. Nə qədər ki o pullar bizdə idi, naz-ne`mət içində yaşayıb yoxsulluğun nə olduğunu bilmədik.

## *«Altmış birinci görüş»*

Bir vəzifə kimi, şiələr təqlid etdikləri müctəhid dünyasını dəyişdiyi zaman alimlər arasından daha bilikli və daha ədalətlisini seçib ona təqlid etməlidirlər. “Cəvahir” kitabının müəllifi mərhum Ayətullah Şeyx Məhəmməd Həsən vəfat etdikdən sonra camaat dini-ibadi məsələlərdə Şeyx Ənsariyə (Allah ona rəhmət etsin) müraciət edib ondan risalə yazmasını istədilər. O isə camaata dedi: Babulda məndən daha elmli olan alimlər ağası Ayətullah Mazandarani olduğu bir halda, mənim risaləm ola bilməz və mən bu işi görən də deyiləm.

Beləliklə, Şeyx Ənsarinin özü Ayətullah Mazandaraniyə məktub yazıb ondan Nəcəf-Əşrəfə gəlməsini və elmi hövzəyə rəhbərliyi öz üzərinə götürməsini istəyir. Ayətullah Mazandarani isə Şeyx Ənsariyə göndərdiyi cavab məktubunda yazır: Düzdür, bir vaxtlar mən Nəcəfdə idim və sizinlə elmi mübahisə və müzakirələr edirdim. Və fiqh elmində sizdən daha bilikli idim. Lakin neçə ildir Babulda olduğumdan, elmi mübahisələr və nəhayət, tədris etmədiyimdən sizi özümdən daha bilikli hesab edirəm. Bunun üçün də xahiş edirəm, mərcə məqamını siz özünüz qəbul edəsiniz.

Şeyx Ənsari göndərdiyi ikinci məktubda yazır: Bu məqama layiq olmadığımı dəqiq bilirəm, amma sərvərim İmam Zaman (ə) mənə bu icazəni verərsə, onda qəbul edərəm.

Bir gün dərs zamanı sinif otağına üzündən böyüklük və vüqar sezilən bir şəxs daxil olur. Şeyx Ənsari həmin şəxsə hörmət və ehtiram göstərir. Sinifə daxil olan şəxs tələbələrin yanında üzünü Şeyx Ənsariyə tutub deyir: Əri bir şəkildən başqa bir şəkilə düşən qadın barədə nə deyə bilərsən? (Bu məsələ müsəlman ümməti arasında mövcud olmadığı üçün heç bir kitabda bu barədə ayrıca fəsil yoxdur). Bunun üçün də Şeyx Ənsari deyir: Kitablarda bu barədə heç bir mə`lumat verilmədiyi üçün cavab verə bilmərəm. O buyurur: Fərz edək ki, belə bir hadisə baş vermiş və belə olduqda, qadın nə etməlidir? Şeyx Ənsari deyir: Əgər o, hələ sağ olarsa, deməli, onun ruhu vardır. Mənim nəzərimcə, heyvan surətinə düşmüşsə, qadın iddə talağı alıb sonra ərə getməlidir. Lakin, əgər daşa dönmüşsə, ölü olduğu üçün o vaxt qadın ölü iddəsi saxlamalıdır.

Bu vaxt o, (İmam Zaman (ə)) üç dəfə bu sözləri “Əntəl-muctəhidu, əntəl-muctəhidu, əntəl-muctəhid!” (Sən müctəhidsən, müctəhidsən, müctəhidsən!) təkrar edir və sinif otağından çıxıb gedir.

Şeyx Ənsari bilirdi ki, həmin şəxs İmam Zaman (ə)-dır və ona müctəhidlik icazəsini vermişdir. Bunun üçün də dərhal şagirdlərə dedi. Tez həmin şəxsi tapın. Amma onlar onu nə qədər axtardılarsa, tapa bilmədilər.

Bundan sonra Şeyx Ənsari camaatın təqlidi üçün risalə yazdı.

## *«Altmış İkinci Görüş»*

“Qəvanin” kitabının müəllifi Mirzə Qumi belə bir əhvalat nəql edir:

Nəcəfdə, tələbə olduğumuz illərdə Əllamə Bəhrul-Ülumla birlikdə Baqir Behbəhaninin dərsinə gedirdik. Biz adətən, keçdiyimiz dərsləri biri-birimizlə müzakirə edirdik və əksər hallarda keçilən dərsləri Seyyid Bəhrul-Ülum üçün də yazırdım. Sonra mən İrana qayıtdım və bir müddətdən sonra Seyyid Bəhrul-Ülum şiə alimləri arasında məşhurlaşmağa başladı. Mən bundan təəccüblənib öz-özümə dedim: Axı onda belə bir iste`dad yox idi və birdən-birə necə belə məşhurlaşdı? Sonralar İraqdakı müqəddəs ziyarətgahların ziyarətinə getdim və Nəcəf-Əşrəfdə Seyyid Bəhrul-Ülumla görüşdüm və onun suallara cavab verdiyi məclisdə iştirak etdiyim zaman doğurdan da elm dəryası olduğunun şahidi oldum. Orada öz-özümə dedim: Doğurdan da onu Bəhrul-Ülum (elmlər dəryası) adlandırmaq lazımdır.

Bir dəfə təklikdə ondan soruşdum. Biz bir yerdə təhsil almışıq və hamı da bunu çox gözəl bilir ki, siz o vaxtlar belə bir iste`dada malik deyildiniz və daim mənim yazılarımdan istifadə edirdiniz. İndi isə Allaha şükürlər olsun, görürəm yüksək elmi məqama çatmısınız. Buyurdu: Mirzə Əbülqasim! Sualınızın cavabı sirr olaraq qalmalıdır, amma sizə deyəcəyəm. Lakin

xahiş edirəm, nə qədər ki, mən sağam, onu kimsəyə danışmayın.

Mən də ona bu sirri kimsəyə danışmayacağıma söz verdim. Sonra o dedi: İmam Zaman (ə) məni Kufə məscidində sinəsinə sıxdıqdan sonra, niyə də belə olmasın?!

Onunla necə görüşdüyünü soruşduqda buyurdu: Bir gün Kufə məscidinə getmişdim. İbadətlə məşğul olduğum zaman bir də gördüm İmam Zaman (ə) da orada ibadətlə məşğuldur. Dayanıb ona salam verdim, o da böyük ehtiramla salamıma cavab verdi və ona tərəf gəlməyimi əmr etdi. Mən də bir az qabağa getdim. Amma hörmət və ehtiramını gözləyib ona çox yaxınlaşmadım. Buyurdu: Yaxın gəl! Mən bir neçə addım da qabağa getdim. Sonra yenə ona tərəf gəlməyimi əmr etdi. Mən bir az da yaxınlaşdım. Bundan sonra o məni qucaqlayıb möhkəm sinəsinə sıxdı. Beləcə, Allah-təala nəyi istəyirdisə, o da bu qəlbə daxil oldu.

## «Altmış Üçüncü Görüş»

Mərhum Mirzə Məhəmmədəli Gülüstani İsfahani əmisi seyyid Məhəmmədəlidən belə bir əhvalat nəql edir:

İsfahanda nalbənd Cə`fər adlı bir şəxs var idi ki, bə`zən İmam Zamanla (ə) görüşdüyünü və "təyyül-ərz" etdiyini iddia edirdi. Təbii olaraq o, camaatla az ünsiyyətdə olardı. Camaat da həqiqətdən bixəbər olduqları üçün onun söylədiklərini əfsanə hesab edirdilər.

Bir dəfə İsfahandakı "Təxti-fulad"a (qəbiristan) ziyarətə gedirdim. Yolda Cə`fərin mənə tərəf gəldiyini gördüm. Mən ona yaxınlaşıb dedim: İstəyirsənsə, birgə gedək. Dedi: Nə olar, gedək.

Yol gedərkən ondan soruşdum: Camaat sizin barənizdə bə`zi şeylər danışır. Onlar düzmi deyirlər? Yə`ni, sən doğurdanmı İmam Zamanla (ə) görüşmüsən? Əvvəl sualıma cavab vermək istəmədi və buna görə də dedi: Keçək bunların üstündən və başqa məsələlər barədə danışaq. Amma mən israrla ondan sualıma cavab verməsini istədim. Dedi: İyirmi beş

dəfə Kərbəlaya ziyarətə getmişəm. İyirmi beşinci səfərimdə yəzdli bir şəxs mənimlə yol-yoldaşı oldu. Bir neçə kilometr getdikdən sonra o xəstələndi və get-gedə xəstəliyi güclənməyə başladı. Nəhayət, elə bir yerə gəlib çatdıq ki, yol təhlükəli olduğundan karvan iki gün orada qalmalı oldu. Həmin müddətdə yolda olan başqa bir karvan gəlib bizə çatdı və hər iki karvan birləşərək birgə yola düşdü. Xəstənin vəziyyəti isə daha da ağırlaşırdı. Karvan hərəkət etmək istədikdə, gördüm ki, onu heç cür yerindən tərpətmək olmaz. Bunun üçün də onun yanına gedib dedim: Mən gedirəm, sənin sağalmağın üçün dua edəcəyəm. Vidalaşmaq istədikdə, onu ağlamaq tutdu. Mən çox mütəəssir oldum. Çünki, Ərəfə günü yaxınlaşırdı və iyirmi beş il idi ki, Ərəfə gününü Kərbəlada keçirirdim. Amma yoldaşımın belə bir ağır vəziyyətdə olması məni çox sarsıtdı. Axı, onu necə tək qoyub gedə bilərdim. Nə edəcəyimi bilmirdim. O, ağlaya-ağlaya mənə dedi: Qardaşım, bir saatdan sonra mən öləcəyəm. Xahiş edirəm, bu bir saatı da gözlə. Mən öldükdən sonra ulağım, xurcunumda olan bütün əşyalarım qoy sənin olsun. Amma xahiş edirəm, cənazəmi Kərbəlaya aparıb orada dəfn et. Ona ürəyim yandı və onun yanında qalmalı oldum. Bir saatdan sonra o, dünyasını dəyişdi. Karvan da məni gözləməyib yoluna davam etdi. Mən də onun cənazəsini uzunqulağa qoyub Kərbəlaya tərəf hərəkət etdim. Amma karvandan nə bir əsər var idi, nə də bir əlamət. Ondan qalan yalnız qatı toz idi. Bir sözlə mən onlara çata bilmədim. Təqribən, altı kilometr yol getdikdən sonra həm təklik məni qorxuya salırdı, həm də cənazə. Bir az yol getdikdən sonra dayandım. Cənazə heç cür uzunqulağın belində qərar tutmurdu. O gah bu tərəfə sürüşürdü, gah da o tərəfə. Axır gördüm ki, heç cür onu apara bilməyəcəm. Çox mə`yus oldum. Çarəsiz qalıb yerimdən şəhidlər ağası İmam Hüseynə (ə) salam verdim və ağlaya-ağlaya dedim: Ağa! Mən sizin bu ziyarətçinizlə nə edim? Əgər onu bu səhrada qoyub getsəm, üzərimə ağır məs`uliyyət düşəcək. Özümlə aparmaq istəsəm də, görürsən ki, bunu bacarmıram. Nə edim, çarəsiz qalmışam.

Bir də gördüm ki, dörd nəfər süvari mənə tərəf gəlir. Onlardan biri alicənab nəzərə çarpırdı. O mənə yaxınlaşıb dedi: Cə`fər, bizim ziyarətçimizlə nə edirsən? Dedim: Axı, nə

edim? Çarəsiz qalmışam, nə edəcəyimi bilmirəm. Bunu demişdim ki, o üç nəfər atdan düşüb mənə yaxınlaşdı. Əlində nizə tutan o üç nəfərdən biri əlindəki nizəni yerə vurdu və oradan su çıxdı. Cənazəyə elə oradaca qüsl verdilər. Sonra o qabaqda durdu və o biriləri də arxasında durub cənazəyə meyyit namazı qıldılar. Namazı qılıb qurtardıqdan sonra birlikdə onu uzunqulağa möhkəm bağlayıb bir göz qırpımında gözdən itdilər.

Mən yoluma davam etməyə başladım. Bir az getdikdən sonra gördüm ki, məndən əvvəl hərəkət edən karvana çatıram. Onları ötüb keçdim və bir azdan ondan əvvəl yola düşən başqa bir karvan gördüm. Çox keçmədən mən onları da ötüb keçdim və bir neçə dəqiqədən sonra Kərbəla yaxınlığındakı ağ körpüyə çatdım və şəhərə daxil oldum. Kərbəlaya bu qədər tez çatmağım üçün heyrət içində idim. Nəhayət, onu aparıb Kərbəlanın "Vadiyul-əymən" qəbiristanlığında dəfn etdim. Mənim yol-yoldaşlarım iyirmi gündən sonra gəlib Kərbəlaya çatdılar. Onlar məndən nə vaxt və necə gəldiyimi soruşdular. Mən də onlara yolda başıma gələnləri danışdım və onlar da bu hadisədən heyrətə gəldilər.

Beləliklə, Ərəfə günü gəlib çatdı və mən İmam Hüseyn (ə)-ın ziyarətgahına gedtim. Amma oradakıların bə`zilərini heyvan surətlərində görüb qorxu içində evə qayıtdım. Həmin gün yenə evdən bayıra çıxdıqda, yenə də insanları müxtəlif heyvan surətlərində gördüm. Qəribə burasındadır ki, həmin səfərdən bir neçə il sonra da Kərbəlaya Ərəfə günü gələndə, yenə bə`zilərini müxtəlif heyvan surətlərində görürdüm. Amma başqa günlərdə isə bu hal məndə olmurdu. Bundan sonra belə qərara gəldim ki, Ərəfə günündə Kərbəlaya gəlməyim. Amma mən bu sözləri İsfahan camaatına danışdığım zaman onlar buna inanmır, qulaq ardına vururdular. Daha, qəti qərara gəldim ki, bu barədə kimsə ilə danışmayım. Bir müddət belə də etdim.

Bir gün həyat yoldaşımla birlikdə yemək yediyimiz zaman birdən, həyətdən bir səs eşitdim. Qapını açdım və qapı qarşısında duran şəxs mənə dedi: Cə`fər, gəl gedək, İmam Zaman (ə) səni çağırır. Mən də tez paltarımı geyinib onun hüzuruna getdim. O, məni İsafanın cümə məscidinə apardı.

Gördüm ki, İmam Zaman (ə) məscidin eyvanındakı minbərdə oturmuş və ətrafına da bir qədər adam toplaşmışdı. Həzrətlə necə görüşəcəyimi hələ bilmişdim. O məni görcək, dedi: Kərbəla yolunda başına gələnləri niyə camaata danışmırsan? Dedim: Mən əvvəllər bunu deyirdim. Amma camaat ardımca yaxşı sözlər danışmadıqlarından daha susmağı qərara almışam. Buyurdu: Sənin camaatın dedikləri ilə işin olmasın, başına gələnləri onlara danış və bilsinlər ki, biz cəddimiz İmam Hüseyn (ə)-ın ziyarətçilərinə nə qədər diqqət və məhəbbət göstəririk.

## «Altmış Dördüncü Görüş»

Mərhum Əllamə Məclisi (eləcə də mərhum Şeyx Abbas Qumi) atasından "Yəmani hirzi" duasının arxasınca belə bir əhvalat nəql edir:

Bu "hirz"i Əmir İshaq Əstərabadi Allahın yer üzündəki xəlifə və canişini İmam Zaman (ə)-a istinadən nəql edir ki, onun yazılma əhvalatı belədir:

Seyyid İshaq Əstərabadi deyir ki, bir dəfə Məkkə yolunda karvandan geri qaldım. Yorğunluq bir tərəfdən, sıxıntı və susuzluq da digər tərəfdən məni sağ qalacağıma ümid yeri qoymadı. Bunun üçün də qibləyə tərəf uzanıb kəlməyi-şəhadətimi oxumağa başladım. Bir də gördüm ki, ağam və sərvərim, Allahın yer üzündə bütün insanlar üçün tə`yin etdiyi xəlifə və canişini Sahibəzzəman (ə) başımın üzərində dayanıb mənə deyir: Ey İshaq! Qalx ayağa. Mən ayağa qalxdım, amma çox susuz idim. İmam Zaman (ə) mənə su verib sirab etdi və sonra öz atına mindirib birlikdə yola düşdük. Mən yolda Yəmani duasını oxumağa başladım və səhv etdiyim yerlərdə İmam Zaman (ə) səhvlərimə düzəliş verirdi.

Bir də gördüm ki, Məkkənin Əbtəh adlanan məntəqəsindəyəm. İmam Zaman (ə) məni atından düşürüb bir

göz qırpımında görünməz oldu. Karvanım isə Məkkəyə düz, doqquz gündən sonra çatdı. Məkkə camaatı arasında mənim oraya təyyül-ərzlə gəldiyim yayıldığı üçün özümü onlardan gizlətməyə çalışırdım.

Mərhum Məclisi yazır: Həmin seyyid dörd dəfə həcc ziyarətinə getmişdir. Kərbəladan Məşhədə İmam Rza (ə)-ın ziyarətinə getdiyi zaman onunla görüşə nail oldum və onda bir çox kəramətlər gördüm. Həmin kəramətlərdən biri də onun İsfahanda yuxuda əcəlinin yaxınlaşdığını və tezliklə dünyasını dəyişəcəyini görməsi idi. Həmin ərəfədə o mənə dedi: Əlli ildir Kərbəlanın yaxınlığında məskən salmışam ki, orada dünyamı dəyişim.

Borcları haqda mənə danışdı ki, onlardan biri də həyat yoldaşının mehriyyəsi idi. O, istəyirdi ki, həmin məbləği Məşhəddə ona o qədər borcu olan şəxsdən alsın. Dostlardan bə`ziləri bundan xəbər tutub həmin məbləği ona verdilər. Sonra biz bir nəfər şəxsi də ona qoşaraq birlikdə Kərbəlaya yola saldıq.

Həmin şəxs sonralar nəql edirdi ki, yolda o özünü çox yaxşı hiss edirdi. Amma Kərbəlaya çatıb borcunu verdikdən sonar xəstələnib dünyasını dəyişdi. Allah ona rəhmət etsin.

## *«Altmış Beşinci Görüş»*

Ayətullah seyyid Təyyib Cəzayiri[1] deyir: Təhsillə əlaqədar İraqda yaşadığım illərdə, Kərbəlada olarkən (1364 h.q.) Hindistandan olan Əbu Sahib adlı e`tibarlı bir dostum mənə belə bir əhvalat danışdı:

[1] Ayətullah Cəzayiri böyük mühəddis, alim Ne`mətullah Cəzayirinin nəslindən olub hal-hazırda elmi-dini fəaliyyətlə məşğuldur. O, on doqquz vasitə ilə cəddi İmam Musa bin Cəfərə (ə) çatır. Nəcəfdə Ayətullah Həkim, Xoyi, Şirazi, Şahrudi, Təbrizi kimi böyük mərcələrin "xaric" dərslərində iştirak etmişdir. 1374-cü ildə (h.q) Nəcəf-Əşrəfdə çap etdirdiyi "Əl-lümətul-satiə" adlı elmi işi ilə ictihad icazəsini almış və müxtəlif mövzularda altmışa yaxın kitabın müəllifidir.

Dostlarımdan biri İmam Hüseyni (ə) ziyarət etmək üçün Hindistandan Kərbəlaya gəlmişdi. Gecə-gündüz hərəmdə dua edirdi ki, İmam Zamanla görüşsün. O, əmin idi ki, İmam Zaman həmişə cəddi İmam Hüseynin ziyarətinə gəlir. Bu fikirlərlə öz arzusunu orada olan tələbələrdən bə`zisinə bildirir və soruşur ki, mən İmam Zamanla görüşə bilərəmmi? Bu arzuya çatmağın yolu nədir? Tələbələrdən biri ona deyir: Əgər sən qırx gecə cümə axşamları hərəmdə ibadət və riyazətlə məşğul olsan, Allah qoysa öz istəyinə çatarsan. Çünki Allah-təala İmam Hüseynə şəhadətinin müqabilində üç şey lütf etmişdir:

1. Onun qübbəsi altında edilən dua müstəcab olar.
2. Onun türbətinə şəfa bəxş etmiş.
3. İmamət məqamı (qiyamətə qədər) onun nəslinə mənsubdur.[1]

Bu sözləri eşidən sonra o, qırx gecə cümə axşamları İmam Zamanı görmək ümidi ilə İmam Hüseynin hərəmində qalır. O, bütün gecəni rüku və səcdə halında ağlayıb-sızlamaqla ibadətə məşğul olur. Nəhayət, qırx gecə başa çatır, amma o öz hacətinə çatmır.

Səhər açılanda o, narahat və qəmli halda hərəmdən çölə çıxır. Hərəmin həyətində dayanıb gözlərindən yaş axıda-axıda, başqasının diqqətini cəlb etməyəcək şəkildə öz-özü ilə danışmağa başlayır: “Mənə qırx gecə hərəmdə qalmağı təklif edən adam məni boş və bihudə bir işə vadar etdi. Ey kaş, o adam indi burada olardı, mənim bu halımı görərdi ki, vaxtım, malım necə zay olmuşdur! İndi mən öz ölkəmə necə qayıdacağam, nə pulum var, nə də halım.”

O, bu sözləri zümzümə etdiyi halda yaxınlığında durmuş, əyninə iraqlılara məxsus libas geymiş, başını şal (ərəblərin başlarına saldıqları örtük) ilə örtmüş bir ərəb, sanki bu sözləri eşidib başa düşürmüş kimi, yaxına gəlib fəsih hind dilində ona dedi: Nə olub, filankəs? (onu öz adı ilə çağırır) Niyə belə qəmgin və pərişansan? O, tanımadığı ərəbin onu adı ilə çağırması və hind dilində danışmasından təəccüblənsə də, ona e`tina etmir. Fikirləşir ki, yəqin bu adam Kərbəla əhlidir, ola

[1] “Bihar”, c. 44, səh. 221, hədis 1; Tusi, “Əmali”, c. 1, səh. 324

bilsin hindlilərlə çox oturub-durduğu üçün hind dilində yaxşı danışır. Buna görə də ona deyir:

–Mənim işimin sənə nə dəxli var?

–Haradan bilirsən ki, sənin işinin mənə dəxli yoxdur?

–Çünki sənin mənim müşkülümü həll etməyə gücün çatmaz.

–Sənin nə müşkülün var?

–Mən mövlam Sahibəzzamanı görmək arzusunda idim. Uzaq Hindistan ölkəsindən qalxıb bu qədər yolu ziyarət üçün gəlmişəm. Burada olan ruhanilərdən biri mənə dedi ki, əgər qırx gecə cümə axşamları imam Hüseynin (ə) qübbəsi altında dua etsən, duan müstəcab olar. Mən əhli-əyalımı buraxıb qırx həftədir ki, burada qalmışam. Nə pulum var idisə, xərclənib qurtarıb.

–Əhəmiyyət vermə və özün də nigaran olma. Sənin yol xərcin düzələcək və vətəninə də qayıdacaqsan.

–Yol xərcinin düzəlməyinin, ya vətənə dönməyimin faydası nə olacaq? Nəticəsiz, əliboş geri dönməyin nə xeyri ki, məqsədimə çatmamışam. Mən bu qədər vaxtı burada ona görə qalmamışam ki, Allahdan pul, mal istəyim. Mən qırx gecəni ona görə oyaq qalmışdım ki, İmamı görüm. Mənim imamı görməkdən başqa heç bir niyyətim olmayıb. Sizcə bu mümkün olmayan bir arzudur?

O, deyir: Sözlərim bu yerə çatanda həmin ərəbin üzündə təbəssüm aşkar oldu. Gülümsündüyü halda mənə dedi: İndi də öz imamının üzünü görə bilmədin? Dedim: Yox. Dedi: Artıq bundan yaxşı necə görə bilərsən? (Yə`ni sənin qarşında dayanmış şəxsi bundan yaxşı necə görmək olar? Sən hal-hazırda onun üzünə baxıb söhbət edirsən.) Bunu dediyi halda birdən qeyb oldu. Mən heyrət içində donub qaldım. Sağıma, soluma baxdım, kimsəni görmədim. Haçandan-haçana özümə gəldim. O, mənim dilimdə danışır, halımı bilirmiş, amma mən isə onu tanımamışam, onunla ədəbsiz danışmışam. Birdən məni ağlamaq tutdu. Görüşün bu qədər az olmasına təəssüf etdim. Onunla dikbaşlıqla danışmağıma bərk peşman oldum. Bir az keçmiş bir nəfər gəlib mənə pul verdi. Bu pul mənim yol

xərclərimi yetərincə ödəyirdi. Allah-təala mənim bu haldan çıxarıb gözəl bir əhval-ruhiyyə ilə əvəz etdi.[1]

## «Altmış Altıncı Görüş»

Hillədə Cəmaləddin Zuhdəri adında bir şəxs iflic olur. Qohum-əqrəbaları onu bir çox həkimlərə göstərsələr də, heç bir nəticə əldə edilmir. Müalicələr bir nəticə vermədikdə və hamı mə`yus olduqda, qərara gəlirlər ki, onu Hillədəki "İmam Zaman məqamı"na aparsınlar. Onlar belə də edirlər və İmam Zaman (ə) onun qarşısında zahir olub Allahın izni ilə ona şəfa verir. Mərhum Məclisi Əbdürrəhman Ommanidən nəql edərək deyir:

Bu əhvalat camaat arasında yayıldıqda, mənimlə Cəmaləddin arasında sıx dostluq münasibətlərimiz olduğundan onun evinə gedib baş verənləri onun öz dilindən eşitdim. O, baş verənləri belə xatırladı:

Mə`lum olduğu kimi, mənim iflic olduğumdan siz də xəbərsiz deyilsiniz. Nəhayət, qohum-əqrəbam məni İmam Zaman (ə)-ın məqamına apardılar. O gecə çox keçmədi ki, bir də gördüm Həzrət məqamın qapısından daxil oldu. Mən ona salam verdim. O da məhəbbətlə salamımın cavabını verib buyurdu: Qalx ayağa! Dedim: Ağa, bir ildir ki, yerimdən ayağa dura bilmirəm. Yenə buyurdu: Allahın iznilə qalx ayağa! Sonra qolumun altına girib mənə ayağa qalxmağa kömək etdi. Mən də, sanki heç bir xəstəlik yoxmuş kimi ayağa qalxdım. Elə bil ki, heç iflicə düçar olmamışdım. Bundan sona İmam Zaman (ə) bir göz qırpımında qeybə çəkildi. Camaat bu hadisədən xəbərdar olub başıma toplaşdılar və hərə bir tərəfdən təbərrük olaraq əyinimdəki paltarlarımı parça-parça edib apardılar.[2]

## «Altmış Yeddinci Görüş»

[1] Seyyid Təyyib Cəzayiri, "Axərin umide cəhan", səh. 358-360.
[2] Seyyid Təbərsi Nuri, "Kifayətül-Muvəhhidin".

Müəmmər ibn Şəmsin “Bürş” adlı bir kəndi var idi ki, onu seyyid və ələvilərə vəqf etmişdi. Onun orada İbn Xətib adlı şiə olan təqvalı vəkil və naibi, bir də Osman adlı təəssübkeş sünni qulluqçusu var idi. Bu iki nəfər Müəmmər ibn Şəms tərəfindən kəndin işləri ilə əlaqədar onlara tapşırılan vəzifələri yerinə yetirirdilər. Amma daim bu iki nəfərin arasında məzhəb məsələləri ilə bağlı çəkişmələr müşahidə olunurdı.

Bir gün onlar yenə camaat arasında bir məsələ ətrafında mübahisə edirlər. İbn Xətib Osmana deyir: İndi ki, həqiqət mə`lum oldu və bu həqiqəti qəbul etmək istəmirsənsə, gəl belə bir iş görək, mən öz əlimə Həzrət Əlinin (ə), oğulları Həsən (ə) və Hüseynin (ə) və zövcəsi həzrət Zəhranın (ə) adlarını yazacağam, sən də öz əlinə Əbu Bəkrin, Ömərin və Osmanın adlarını yaz. Sonra camaat əllərimizi biri-birinə bağlayıb alovun içinə tutsunlar. Kimin əli yansa, haqsız, kiminki yanmasa, haqlıdır.

Osman isə buna razı olmur. Camaat da Osmana gülərək onu masqara edirlər. Pəncərədən baş verənləri izləyən Osmanın anası bərk narahat olur və bacardığı qədər oradakı şiələri söyməyə, lə`nətləməyə və acı sözlər deməyə başlayır. O, bərk hiddətlənərək, elə hey onlara nalayiq sözlər deyirdi ki, birdən gözlərindən bərk ağrı tutur və hər ikisi kor olur. Onu müalicə üçün Hilləyə aparırlar. Həkimlər əllərindən gələni etsələr də, heç bir faydası olmur və daha kimsə onun gözlərinin açılacağına ümid etmir.

Bir dəfə neçə nəfər şiə qadın onu yoluxmağa gedir və ona deyirlər: Sən şiələrə hörmətsizlik etdiyin üçün İmam Zaman (ə)-ın qəzəbinə gəlmisən. Bil ki, şiə olmayana qədər bu bəladan nicat tapmayacaqsan. Əgər şiə olsan, Allahın hökmən sənə şəfa verəcəyinə zaminik.

O, şiələrə hörmətsizlik etdiyindən bərk peşman olur və şiəliyi qəbul edir. Hillənin təqvalı və pak qadınları cümə axşamı onu “İmam Zaman (ə)-ın məqamı”na aparırlar və özləri onu bayırda gözləyirlər. Gecənin bir aləmində, birdən onun fəryad səsləri eşidilir və görürlər ki, o qadın ağlaya-ağlaya çölə çıxıb belə deyir: Sahibəzzəman (ə) mənə mərhəmət göstərdi, şəfa tapdım!

Artıq o, hər şeyi görürdü. Qadınlar sevincək, ondan İmam Zamanla (ə) necə görüşdüyünü soruşurlar. O, deyir: Siz məni “İmam Zaman (ə)-ın məqamı”na gətirdikdən sonra mən Həzrətdən imdad dilədim. Bir vaxt eşitdim ki, kimsə mənə deyir: Allah sənə şəfa verdi, qalx məqamdan çölə çıx və bu xoş xəbəri səni gözləyən qadınlara de. O an artıq hiss etdim ki, mən daha görürəm. Məqam nura qərq oldu və bir nəfərin qarşımda durduğunu gördüm. Ondan kim olduğunu soruşduqda, buyurdu: “Mən Sahibəzzəman Höccət ibn Həsənəm!” Yerimdən qalxıb ətəyindən yapışmaq istədikdə, bir göz qırpımında qeyb oldu.

Bu əhvalat Hillə şəhərində baş verir və sonralar dillər əzbərinə çevrilir. O qadının oğlu Osman da bu əhvalatdan sonra şiə olur.

## *«Altmış Səkkizinci Görüş»*

Əllamə Hillinin (Allah ondan razı olsun) zamanında bir sünni alim şiə məzhəbinin əleyhinə kitab yazaraq təşkil etdiyi ümumi və xüsusi məclislərdə onun vasitəsilə bir çoxlarını şiə məzhəbinə qarşı bədbin edir. Eləcə də bu kitabı kimsənin ixtiyarında qoymur ki, onun şübhələrinə cavab verə bilsinlər. Əllamə Hilli kimi böyük şəxsiyyət bir yolla həmin kitabı əldə etmək üçün bir şagird tək o şəxsin dərsində iştirak etməyi özünə vacib edir və beləcə onun e`timadını qazanır. O, Əllamə Hillinin kitaba belə böyük marağından çox sevinir və ona rədd cavabı verə bilməyib deyir: Mən kitabı yazarkən nəzr etmişəm ki, bir gecədən artıq onu kimsəyə verməyim.

Əllamə Hilli çarəsiz qalıb bir gecəlik də olsa kitabdan istifadə etməyə razılığını bildirir və həmin gecə böyük həvəs və sevinclə kitabı üzündən köçürməyə başlayır. O istəyirdi ki, həmin gecə kitabdan mümkün qədər köçürüb fürsət yarandıqda, onlara cavab versin. Lakin gecə yarısı onu yuxu tutur. Elə həmin an möhtərəm bir qonaq onun otağına daxil olur və onunla söhbətə başlayır. Sonra ona deyir: Əllamə, sən yat, kitabın köçürülməsini mənə həvalə elə.

Əllamə bir söz demədən itaət edir və dərin yuxuya dalır. Yuxudan oyandıqda, nurani qonağından əsər-əlamət görmür. Kitaba nəzər saldıqda isə onun başdan-ayağa köçürüldüyünü və sonda imza olaraq belə bir yazı görür: *"Kətəbəhul-Huccə."* (Yazdı Allahın höccəti.)

## «Altmış Doqquzuncu Görüş»

İmam Zamanla (ə) görüşləri nəql edən kitablarda Əli ibn Məhziyarın əhvalatı xüsusi diqqət mərkəzində olmuşdur. Əli ibn Məhziyarın qəbri Əhvaz şəhərindədir. Üzərində böyük günbəz olan bu məqbərə böyük ziyarətgaha çevrilmişdir. O özü həmin əhvalatı belə nəql edir:

İmam Zaman (ə)-ın görüşünə nail olmaq üçün hər il həcc mövsümü Məkkəyə gedərdim. Beləliklə, on doqquz dəfə Məkkəyə Kə`bə evinin ziyarətinə getdim. Hər dəfə nə qədər çalışsam da, Həzrətdən bir əsər-əlamət əldə edə bilmədim. Nəhayət, mə`yus olub bir daha Məkkəyə getməmək qərarına gəldim. Növbəti il dostlarım Məkkəyə həcc ziyarətinə getdikləri zaman mənə də səfərə hazırlaşmağı təklif etdilər. Onlara dedim: Bu il mənim bir sıra çətinliklərim var və daha getmək fikrim yoxdur. Həmin günün axşamı yuxuda kimsə mənə dedi: Bu il həcc ziyarətini tə`xirə salma, gəl. Allahın izni ilə məqsədinə çatacaqsan.

Səhər yuxudan oyanıb ümidlə səfərə hazırlaşmağa başladım. Dostlarım məni gördükdə təəccüblənsələr də, onlara heç bir şey demədim. Nəhayət, gəlib Məkkəyə çatdıq. Həccin əməllərini tamamilə başa vurduq, amma bir xəbər çıxmadı. Bütün bu müddət ərzində hər dəfə Məscidül-Həramın bir guşəsinə çəkilib, elə hey fikirləşirdim. Hərdən öz-özümə deyirdim: Görəsən, yuxum doğru idi, yoxsa sadəcə olaraq xəyallara qapılmışdım?

Bir gün yenə başımı aşağı salıb fikirlərə dalmışdım. Birdən bir nəfər əlini çiynimə qoyub mənə salam verdi və sonra haralı olduğumu soruşdu. Qarabuğdayı bir şəxs idi. Dedim: Əhvazlıyam. Soruşdu: İbn Xəsibi tanıyırsanmı? Dedim: Allah

ona rəhmət eləsin, artıq dünyasını dəyişmişdir. Dedi: Hamımız Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq. Yaxşı insan idi, camaata xeyli ehsan edərdi. Allah onun günahlarından keçsin.

Sonra dedi: Əli ibn Məhziyarı tanıyırsanmı? Dedim: Bəli, özüməm. Dedi: Xoş gördük Məhziyar oğlu, sən çox zəhmət çəkmisən. Ağan İmam Zamanla (ə) görüşəcəyini sənə müjdə verirəm. Bu səfərində onun ziyarətinə nail olacaqsan. Get yoldaşlarınla vidalaş və sabah axşam da “Əbu Talib dərəsi”nə gəl. Mən orada səni gözləyəcəyəm və oradan səni İmam Zaman (ə)-ın yanına aparacağam.

Hədsiz sevinclə yoldaşlarımın yanına qayıtdım və yol ləvazimatımı bir yerə yığıb onlarla vidalaşdım. Nəhayət, həmin gecə “Əli Talib dərəsi”nə getdim və gördüm ki, o şəxs orada məni gözləyir. Salamlaşıb bir-birimizlə hal-əhval tutduq. Sonra dəvələrə minib Ərəfat və Minanın dağlarını keçib Taif dağlarına çatdıq. Ora çatdıqda, bələdçim mənə dedi: Düş, gecə namazını qılaq.

Mən dəvədən düşüb onunla birlikdə namaz qıldım və sonra yenə yolumuza davam etdik. Səhər açılana yaxın yenə dəvələrimizdən düşüb sübh namazını qıldıq. Artıq hava bir qədər işıqlanmışdı. O mənə dedi: O təpənin başında nə görürsən? Dedim: Bütün səhranı işıqlandıran bir xeymə görürəm. Dedi: Bəli, düzdür. Sənin arzu və istəyin oradadır. Sərvər və ağamızın yeri oradır.

Bir qədər dayanıb, sonra dedi: Gəl gedək. Dedim: Bəs, dəvələri nə edək? Dedi: Onları azad burax, bura əmin-amanlıqdır.

Onunla birlikdə xeyməyə tərəf getdim. Ora çatdıqda, mənə dedi: Sən hələ gözlə. Bunu deyib məndən əvvəl xeyməyə daxil oldu və bir neçə dəqiqədən sonra bayıra çıxıb dedi: Xoş halına! Həzrət sənə görüşə icazə verdi.

Mən xeyməyə daxil oldum və orada qəlbləri məftun edən gözəl bir cavan gördüm. Onun kaman kimi qaşları, düz burnu və sağ yanağında bir xalı var idi.

Məni görcək, böyük mehribanlıqla hal-əhval tutdu və sonra dedi: Atam mənimlə əhd-peyman bağlamışdır ki, şəhərlərdə mənzil qurmayam. Allah nə qədər istəsə, zalım və

sitəmkarların şərindən qorunmaq üçün dağ və səhralarda məskən quracaq, onların hakimiyyətindən kənarda olacağam. Ta o vaxta qədər ki, Allah özü fərəc hasil etsin.

Mən neçə gün İmam Zaman (ə)-ın xeyməsində qonaq qaldım və bu müddət ərzində onun elm və nurundan kifayət qədər bəhrələnə bildim. Nəhayət, vətənimə qayıtmaq istədikdə, ixtiyarımda olan əlli min dirhəmi "imam səhmi" olaraq Həzrətə təqdim etmək istədim. Qəbul etməyib buyurdu: Bundan narahat olma. Çünki, qarşıda səni uzun yol gözləyir və yol xərcin üçün sənə lazım olacaq.

Bundan sonra İmam Zamanla (ə) vidalaşıb vətənə yola düşdüm.[1]

## *«Yetmişinci Görüş»*

Əllamə Nuri yazır: Yaxından tanıdığımız Şeyx Qasım adlı olduqca imanlı və e`tibarlı bir şəxs vardı. Hər il həcc mövsümü ziyarətə gedərdi. O, səfərlərin birində başına gələn bir əhvalatı belə nəql edir:

Səfərlərin birində dincimi almaq üçün bir ağacın kölgəsinə çəkilib uzandım. Yorğunluqdan yuxu məni apardı və çox uzun çəkdi. Nə qədər yatdığımı bilmirəm, amma ayılanda gördüm ki, karvandan əsər-əlamət yoxdur. O zaman hansı səmtə gedəcəyimi tə`yin edə bilmədim. Seyyid ibn Tavusun "Əl-aman" kitabında deyildiyi kimi, üzümü bir səmtə tutub fəryad çəkdim: "Ya Əba Saleh!" Bu adı çağırmaqda məqsədim həmin kitabın göstərişinə müvafiq olaraq İmam Zamanı (ə) səsləmək idi. Mən haray çəkdiyim vaxt bir də gördüm ki, bədəvi ərəblərə məxsus libasda dəvəyə süvar olmuş bir nəfər mənə tərəf gəlir. Mənə çatıb dedi: Karvandan geri qalmısan? Dedim: Bəli. Buyurdu: Gəl tərkimə süvar ol, səni karvanına çatdırım. Mən qalxıb onun tərkinə oturdum. Dəvə astadan nərilti çəkib yola düzəldi. Bir saat keçməmişdi ki, karvana yetişdik. Karvana yaxınlaşanda həmin ərəb məni dəvədən endirib dedi: Get karvana qoşul. Dedim: Susuzluqdan yanıram,

[1] Şeyx Səduq, "Kəmalud-Din".

sizdə su varmı? O, dəvənin yəhərinin qayışına bağlanmış su cürəsini açıb mənə uzatdı. Suyu alıb içdim. Allaha and verirəm ki, mən ömrümdə o ləzzətdə və elə dadlı su içməmişdim. Xudahafizləşib öz karvanımıza qoşuldum. Qayıdıb geri baxanda, daha onu görmədim.

## *«Yetmiş Birinci Görüş»*

Rəziyyəddin Məhəmməd ibn Məhəmməd Avi öz dövrünün böyük alimi, yüksək mə`nəvi məqam sahibi olmuşdur. O, həzrət Mehdi (ə) ilə görüşə nail olan kəslərdən biridir. Seyyid Məhəmməd Avi həm də Seyyid ibn Tavusun səmimi dostu olub. Seyyid ibn Tavus onu özünə qardaş seçmiş, müxtəlif yerlərdə Seyyid Məhəmməd Avidən söz düşərkən, ona "saleh qardaş" deyə müraciət etmişdir. Həmçinin "rical" alimləri onu mö`təbər sayıb tə`rifləmişlər. "Əməlül-amal" kitabında Seyyid Məhəmməd Avi haqqında deyilir: "Seyyid Rəziyyəddin Məhəmməd ibn Məhəmməd Avi (Əlvi Hüseyni) möhtərəm və mö`təbər alimlərdən olub atası Məhəmməddən və Seyyid ibn Tavusdan rəvayət nəql edir..."[1] Tanınmış mühəddis Şeyx Abbas Qumi "Əl-Küna vəl-Əlqab" kitabında yazır: "Seyyid Məhəmməd Avi abid, zahid, saleh, məqamı ali, kamalı yetkin şəxs və Seyyid ibn Tavusun yaxın dostlarından olmuşdur. Seyyid ibn Tavus öz kitabında onu "saleh qardaş" ünvanı ilə yad etmişdir. Bə`zi istixarələrin sənədi ravilər silsiləsində ona gedib çatır..."[2] Seyyid ibn Tavus "Məcməüd-dəvat" (dualar toplusu) kitabında yazır: "Dostum və qardaşım Məhəmməd ibn Avinin mənə xəbər verdiyi

[1] "Əməlul-amal", səh. 298; "Rical", Ayətullah Xoyi, c. 2, səh. 162.
[2] "Əl-Küna vəl-Əlqab", c. 2, səh. 9.

dualardan biri də "İbrət" duasıdır. O, bu dua haqqında qəribə əhvalat da nəql edir."

Şeyx Sə`dəddin Yusif Hilli, Məhəmməd Avidən nəql edərək deyir: Sultanın əmirlərindən birinin fərmanı ilə uzun müddət idi ki, həbsxanaya atılmışdım. Həbsdə günüm çox ağır keçirdi. Günlərin bir günü yuxuda İmam Zamanı (ə) gördüm. Çoxlu ağlayıb-sızlayandan sonra ərz etdim: Ey mövlam! Məni bu zalım dəstənin əlindən xilas etməyə şəfaətçi ol. Həzrət buyurdu: İbrət duasını oxu. Mən dedim: İbrət duası hansıdır? Dedi: Misbah kitabına baxsan, bu duanı orada taparsan. Bu an yuxudan qalxdım. Sübh namazını qılıb "Misbah" kitabını açdım. Kitabın arasında bir kağız var idi. Dua orada yazılmışdı. Həmin duanı, düz qırx dəfə oxudum.

Məni həbsə saldıran əmirin iki arvadı vardı. Onlardan biri ağıllı və tədbirli qadın idi. O qadın əmirlə görüşəndə ona deyir: Əli (ə) övladlarından kimisə həbs etmisənmi? Əmir deyir: Niyə bunu soruşursan? Qadın deyir: Bir gecə yuxuda üzündən nur yağan bir şəxs gördüm. İki barmağı ilə mənim hülqumumdan yapışıb dedi: Sənin ərin mənim övladlarımdan birini tutub zindana salıbdır. Ona olmazın əziyyətlər verir. Dedim: Ey ağam, siz kimsiniz? Dedi: Mən Əli ibn Əbu Talibəm. Ərinə de ki, əgər onu azad etməsə, bilsin ki, evini başına uçuracağam!

Onun bu yuxusu hər yerə yayılır və hətta sultanın qulağına çatır. Sultan deyir: Mənim bu məsələdən xəbərim yoxdur. Ona deyirlər ki, tutulmasına əmr etdiyiniz ələvi indi zindandadır. Deyir: Tez onu azad edin. Özünə də bir at bağışlayın və yolu da göstərin çıxıb getsin.[1]

## *«Yetmiş İkinci Görüş»*

Seyyid ibn Tavus deyir: 641-ci il (h.q.) cəmadiüs-sani ayının iyirmi yeddisi, cümə axşamı Həzrət Əlinin (ə) müqəddəs hərəmini ziyarət etdikdən sonra Hilləyə, öz şəhərimə qayıtdım. Cümə günü Həsən ibn Əli Əlbiqli adlı tanışlarımdan biri gəlib

[1] Seyyid bin Tasus, "Məcməül-dəəvat və Minhəcul-inayat".

dedi: İmam Zamanla görüşdüyünü iddia edən Əbdülmöhsün adlı bir nəfər gəlib sizi görmək istəyir. Qonağı hörmətlə qarşılayıb evə də`vət etdim.

Cəmadiüs-sani ayının iyirmi səkkizi, şənbə gününün axşamı qonaq-qara dağılışandan sonra aranı xəlvət görüb qonaqla söhbətə başladıq. Bir az söhbətdən sonra onun e`tibarlı adam olduğunu bildim. Sözləri əsla şəkk-şübhə doğurmurdu. O, başına gələnləri mənə belə danışdı: Əslim "Hüsni-bəşər" deyilən yerdəndir. Amma Dulab yurduna köçüb orada ticarətlə məşğul oluram. Bir zamanlar "Divani-Sərair" deyilən yerdən taxıl alırdım. Səfərlərimin birində yenə də mal almaq üçün həmin məntəqəyə yollandım. Axşam Müdiyyə qəbiləsinin yanında qalmalı oldum. Bu qəbilənin məskunlaşdığı yer "Mücrə" adlanır. Gecə yarısı ibadət üçün yuxudan qalxdım. Su üçün çölə çıxdım. Amma onların suyu haradan gətirdiklərini bilmirdim. Yaxınlıqda su quyusu gözə dəymirdi. Şərqə doğru uzaqda bir arxın olduğunu bilirdim. Əlacsız qalıb həmin səmtə yollandım. Bir qədər yol gedəndən sonra anladım "Təllis-səlam" deyilən yerdə – Kərbəla yolunun üstündəyəm. O gecə cümə axşamı, 641-ci il cəmadiüs-sani ayının on doqquzu idi. (Seyyid ibn Tavus deyir: Həmin gecə mən qardaşım Seyyid Məhəmməd Avi ilə birlikdə Həzrət Əlinin (ə) qəbri kənarında idik. O gecə çoxlu mə`nəvi feyz alıb mükaşifələr gördük.) Bu anda gözlənilmədən, haradansa bir atlı peyda oldu. Qəribə idi, onun nə vaxt, necə gəldiyini hiss etmədim. Ay işığı olsa da, duman hər yeri bürümüşdü. Atlının əynində ağ libas vardı. Başına əmmamə sarımış, belinə qılınc bağlamışdı. Məndən soruşdu: Camaatın vaxtı necədir? (Dövran necə keçir?)

Elə bildim ki, indiki vaxtı soruşur. Dedim: Dünyanı duman bürüyüb. Dedi: Onu soruşmuram. Sual etdim, camaatın vəziyyəti necədir? Dedim: Camaat – hər kəs öz vətənində, malının, sərvətinin kənarında əmin-amanlıqla yaşayır. Dedi: İbn Tavusun yanına gedib bu xəbəri (mə`xəzdə Həzrətin tapşırığı qeyd olunmayıb) ona çatdırarsan.

Seyyid ibn Tavus deyir: Əbdülmöhsün Həzrətin (ə) tapşırığını mənə çatdırdı və ondan soruşdum ki, Həzrət (ə) başqa bir şey buyurmadı? Dedi: Həzrət (ə) sonra buyurdu: Həqiqətən də və`d edilən vaxt yaxınlaşmışdır!

Bu vaxt bir anlıq zehnimdən keçdi ki, olmaya bu şəxs mövlamız Sahibəzzamanın özüdür? Bihuş olub özümdən getdim. Səhərə qədər bihuş vəziyyətdə qaldım.

Əbdülmöhsündən soruşdum: Haradan bildin ki, onun dediyi İbn Tavus mənəm? Dedi: Mən, Tavus övladları arasında sizdən başqa kimsəni tanımıram. Həzrət (ə) bunu söyləyəndə, ağlıma sizdən başqa kimsə gəlmədi.

Dedim: Həzrətin "Həqiqətən də və`d edilən vaxt yaxınlaşmışdır!" – sözündən o vaxt nə başa düşdünüz? Ölümün yaxınlaşmağı, yoxsa zühurun yaxınlaşmağını deyirdi? Əbdülmöhsün dedi: Mən belə başa düşdüm ki, zühurunun vaxtını deyir. Dedim: Bu barədə məndən başqa kimsəyə bir söz demisən? Dedi: Bəli. Müdiyyə yurdundan çıxanda, bir dəstə adam məni görüb elə bildilər ki, yolu azıb həlak olmuşam. Çünki halım özümdə deyildi. Qayıdanda, iki gün tamam – çərşənbə və cümə axşamı düşdüyüm qeyri-adi hal çöhrəmdən çəkilmədi.

